www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10-11 mart 2018-ci il Şənbə № 55 (6944) Qiyməti 60 qəpik

Xəbər

**3 manata görə qonşusunu öldürdü, izi itirmək üçün evi yandırdı**

yazısı səh.14-də

## Gündəm

**Hərəkat iştirakçılarından Siyavuş Novruzovun müraciətinə cavab**



Xalq Cəbhəsinin öncülləri Vidadi İsgəndərli adlı şəxsin bu proseslərdə iştirak etmədiyini dedilər, ona xitabən "əxlaqdan kənar mübarizə metodları qəbuledilməzdir" söylədilər

yazısı səh.9-da

**"Bölgələrdə yerli məhsullar çürüyür, alan yoxdur" ittihamına dövlət qurumlarından reaksiya**

yazısı səh.3-də

**"Azərenerji"nin yükünü dövlətin üzərindən necə qaldırmalı**

yazısı səh.10-da

**Türkiyənin Azərbaycan əsilli nazir müavini Bakıda önəmli açıqlamalar verdi**

yazısı səh.9-da

**Evimizə gələn çirkablı, qumlu su - çıxış yolu nədir...**

yazısı səh.10-da

**Sabiq vergi məmurları üçün kritik dönəm apreldə başlayacaq - təfərrüat**

yazısı səh.4-də

**Ziya Məmmədovun qardaşı oğlunun 200 min dollarlıq məhkəmə işi**

yazısı səh.14-də

**NATO "Rus NATO-su"nu Ermənistandan çıxara biləcəkmi?**

yazısı səh.11-də

**Azərbaycanda bir ildə 638 nəfər böyrək çatışmazlığından ölüb**

yazısı səh.11-də

**Tramp Kim Çenin görüş təklifini qəbul etdi - nə dəyişəcək...**

yazısı səh.12-də

**Oğlu Qəzzafinin milyardlarını Avropa banklarından "sümürür"**

yazısı səh.13-də

# ERMƏNİSTANDA İTAƏTSİZLİK BAŞLAYIR - ÖLKƏ QARIŞIR

İki Sərkisyana bir ortaq təpki; işğalçı ölkənin yeni prezidenti ilk ciddi sınaqla üz-üzə; erməni lobbisi də hakim rejimlə savaşa girir - "baş məşq"?..



yazısı səh.8-də

## ATƏT-in seçkini müşahidə missiyası fəaliyyətə başladı

Müşahidə missiyasının rəhbəri: "Seçkilərə müdaxilə etməyəcəyik, DTİHB seçki polisi deyil, biz seçkilərin nəticəsi ilə maraqlanmırıq..."

yazısı səh.5-də



*Mirmahmud Mirəlioğlu:*

**"Seçki məsələsi sevgi məsələsi kimidir"**

yazısı səh.6-da



*Yazıçı Anar:*

**"Nəvəmi Yazıçılar Birliyinə yaxın qoymuram"**

yazısı səh.7-də



Rövşən Əkbərov

**Oğlunun adı Röya ilə hallandırılan general danışdı**

yazısı səh.2-də



## Prezident DTX, XDMX və XKX əməkdaşlarının maaşını artırdı

**Prezident İlham Əliyev Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, Xüsusi Dövlət Mühafizə Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılıb.

Prezident İlham Əliyev həmçinin Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında sərəncam imzalayıb.

DTX-nin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılıb.

Prezident digər sərəncamla Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları 2018-ci il martın 1-dən orta hesabla 10 faiz artırılıb.

Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## Rayonlarda təhsil infrastrukturunun inkişafına 5,05 milyon manat ayrıldı

**Azərbaycan prezidenti İlham Əliyev Qax, Qəbələ, Oğuz və Şəki rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, Qax, Qəbələ, Oğuz və Şəki rayonlarında cəmi 956 şagird yerlik modul tipli 15 məktəbin quraşdırılması məqsədi ilə "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.2-ci yarımbəndində göstərilmiş məbləğin 5 056 000 manatı Təhsil Nazirliyinə ayrılıb.

Maliyyə Nazirliyinə müvafiq məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

## Azərbaycanın dəniz sərhədini pozan İran vətəndaşları tutulub, xəbərdarlıq atəşi açılıb

**Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirləri uğurla davam etdirilir. DSX-nın Mətbuat Mərkəzindən APA-ya verilən məlumata görə, 2018-ci ilin mart ayının 8-də gecə saat 01:25 radələrində Astara rayonu ərazisində DSX Sahil Mühafizəsi tərəfindən naməlum üzmə vasitəsinin dövlət sərhədini pozaraq sərhəd sularımıza daxil olması haqqında məlumat daxil olub.**

Üzmə vasitələrinin hərəkətləri nəzarətdə saxlanılmaqla həmin istiqamətdə dövlət sərhədinin mühafizəsində olan sərhəd gözətçi gəmisinə müvafiq tapşırıqlar verilib, sahil xətti boyu ərazilərdə baxış qrupları tərəfindən həssas nöqtələrdə xüsusi nəzarət təşkil olunub.

Açıq dənizə doğru 25 düyün sürətlə hərəkət edən üzmə vasitəsi sərhəd gözətçi gəmiləri və iti sürətli katerlər vasitəsilə təqib edilmiş, səs və sayrışan işıqlarla "Dayan" siqnalları verilib, hədəfə 250 metr məsafədə havaya xəbərdarlıq atəşi açılıb, gəmilərin manevrlərilə üzmə vasitəsinin sürətinin azaldılmasına nail olunub.

2 saat 5 dəqiqə müddətində təqibdən sonra üzmə vasitəsi saxlanılıb və baxış keçirilib.

Baxış zamanı dövlət sərhədini pozmuş "Yamaha 150" mühərrikli layner tipli üzmə vasitəsindəki şəxslərin İran İslam Respublikasının vətəndaşları - 1985-ci il təvəllüdlü Mehran Yusif Nicat Tağı oğlu və 1984-cü il təvəllüdlü Camzəmi İsmayıl Şahvildi oğlu olmaları müəyyən edilib, üzmə vasitəsində və sərhəd pozucularının üzərində 2 ədəd smartfon tipli telefon, 1 ədəd "GARMİN" tipli GPS qurğusu, 1 ədəd fənər, 1 ədəd bıçaq və 9 həb "Tramadol" dərman preparatı aşkar olunub.

Dövlət sərhədini pozmuş üzmə vasitələrinin saxlanılması üzrə keçirilmiş əməliyyat çərçivəsində sahilboyu ərazilərdəki qapadılma tədbirləri nəticəsində "Vel" sahil nəzarəti məntəqəsinin xidməti sahəsində 7-ci yanalma körpüsünün yaxınlığında 3 bağlamada 74 ədəd 1 litrlik "Qubernator" arağı aşkar olunub.

İlkin araşdırma zamanı 2018-ci ilin 15 fevral tarixində Lənkəran rayonunun Balıqçılar qəsəbəsi istiqamətində sərhəd naryadları tərəfindən saxlanılmış 39 ədəd bağlamada 450 ədəd 1 litrlik şüşə qablarda arağın və 20 şüşə "Baltika-9" pivəsinin də məhz bu cinayətkar qrup tərəfindən qeyri-qanuni olaraq dəniz yolu ilə ölkə ərazisindən çıxarılmasına cəhd edilməsi müəyyən olunub.

Cinayətkar qrupun digər üzvlərinin tutulması istiqamətində əməliyyat və istintaq tədbirləri davam etdirilir.

# General oğlunun adının Röya ilə hallandırılmasına sərt reaksiya verdi

**Azərbaycanın tanınmış generallarından biri, Milli Qəhrəman Rövşən Əkbərov oğlu Telman Əkbərovun müğənni Röya ilə sevgili olmasına münasibət bildirib.**

Musavat.com-un "Bizim Yol"a istinadən məlumatına görə, R.Əkbərov yayılan xəbərin doğru olmadığını deyib: "Bu jurnalistlərin işi-gücü yoxdur? Vətəndən, torpaqdan yazın. Bu, yalan, cəfəngiyatdır. Kim tərəfindən uydurulub, ötürülüb, onu da bilirəm. Bu barədə oğlumla da danışmışam, onun Röya xanımla heç bir əlaqəsi yoxdur. Müğənni kimi şəkli ola bilər, məşhur müğənnidi, hamı şəkil çəkdirə bilər. Orda mənimlə qoyulan şəkli də, Röyanın qardaşı mənim yanımda xidmət edib, andiçmə zamanı yanıma gələndə çəkilib. Orda da yüzlərlə valideyn olub, Röya xanım da iştirak edib. Belə cılız söhbətlər lazım deyil".







## Zəvvarlar Həcc ziyarəti üçün ödənişi hissə-hissə ödəyə biləcəklər

**Azərbaycandan bu il Həcc ziyarətinə getmək istəyən zəvvarlara ödənişin ödənmə qaydasında güzəştlər edilir.**

Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) verilən məlumata görə, zəvvarlar ziyarətə görə ödənişi hissə-hissə edə biləcəklər.

Ödənişin son tarixi 1 may 2018-ci ildir.

Qeyd edək ki, bu il üçün Azərbaycandan Həcc ziyarətinin xərci 4150 dollardır. Azərbaycana bu il Həcc ziyarəti üçün 2000 kvota ayrılıb, sənəd qəbulu artıq başlayıb. Azərbaycandan Həcc ziyarətini yalnız QMİ həyata keçirir.

## Bakının daha bir küçəsində hərəkət məhdudlaşdırılır

**Asfalt-beton örtüyünün yenilənməsi ilə əlaqədar olaraq Təbriz küçəsinin Əliyar Əliyev küçəsi ilə kəsişməsindən Ağa Nemətulla küçəsi ilə kəsişməsinədək olan hissəsində bu gecədən etibarən (martın 9-dan 10-na keçən gecə) avtonəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılacaq.**

"Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyindən "APA-Economics"ə verilən məlumata görə, məhdudlaşma qısa müddətlik tətbiq ediləcək.

"Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi məhdudlaşma ilə əlaqədar yarana biləcək narahatlığa görə öncədən vətəndaşlardan üzr istəyir", - deyə məlumatda vurğulanıb.




Fariz Babayev

## Azərbaycanda bir ildə 638 nəfər böyrək çatışmazlığından ölüb

**"Hazırda Azərbaycanda 3406 böyrək xəstəsi qeydiyyatdadır. Onlardan 1922 nəfəri kişi, 1484 nəfəri isə qadındır. Bu xəstələrdən ən balacanın 6 yaşı, ən böyüyünün isə 84 yaşı var" AzVision.az xəbər verir ki, bunu M.C.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxanasının hemodializ şöbəsinin müdiri, "Hemodializ müalicəsinə ehtiyacı olan və bu müalicəni alan xəstələrin qeydiyyatının qaydaya salınması və müalicəsinin təşkilinin təkmilləşdirilməsi" komissiyasının üzvü Fariz Babayev deyib.**

Onun sözlərinə görə, xəstələrin 2022 nəfəri regionların, 1384 nəfəri isə Bakının payına düşür.

"Böyrək xəstəliyi Azərbaycan regionu üçün geniş yayılmış xəstəlikdir. Lakin bu xəstəlik daha çox rütubətli və Qərb rayonlarında daha geniş yayılıb. Əhali kütləsinim həmin ərazilərdə çox olması bu xəstəliyin sayının artmasına səbəb ola bilir".

F. Babayev qeyd edib ki, 1226 yeni xəstə hemodializ alır. Onlardan 527-si Bakıdan, 799-u isə regiondandır: "Dünyada il ərzində böyrək çatışmazlığı olan xəstələrin 20-24 faizində ölüm halı qeydə alınır. 2016-cı ildə Azərbaycanda ölüm göstəricisi 20,2 faiz, 2017-ci ildə isə 18, 1 faiz olub. Dəqiq desək, keçən il ölkədə böyrək çatışmazlığı səbəbindən 638 ölüm faktı qeydə alınıb. Bunun da 392 -si regionun, 246-sı paytaxtın payına düşür. 2016-cı ildə ölüm göstəricisi 20,2 % təşkil edirdisə, bu rəqəm keçən il üçün 18,6 % olub".

Şöbə bu günə qədər 758 xəstəyə böyrək köçürüldüyünü qeyd edib: "Keçən il 78 xəstəyə bu əməliyyat icra olunub, 6 xəstə periton dializi alıb".

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

## Azərbaycan-Aİ danışıqlarının növbəti mərhələsinin vaxtı məlum olub

**Avropa İttifaqı ilə Azərbaycan arasında danışıqların növbəti mərhələsi videokonfrans şəklində martın 16-da keçiriləcək.**

Bu barədə APA-ya Aİ-nin Azərbaycan nümayəndəliyinin Siyasət, iqtisadiyyat və informasiya şöbəsinin rəhbəri Denis Danilidis məlumat verib. O bildirib ki, danışıqlar sektoral sahə üzrə baş tutacaq.

Siyasi sahə üzrə danışıqların isə bu ayın sonu, gələn ayın əvvəlində keçirilməsi nəzərdə tutulub.

## MTRŞ "Real" TV-nin peyk yayımına başlayacağı vaxtı açıqladı

**"Real" TV-nin peyk yayımına başlayacağı tarix məlum olub. Milli Televiziya və Radio Şurasının (MTRŞ) Aparat rəhbəri Toğrul Məmmədov APA-ya bildirib ki, "Real" TV-nin martın 12-dən sonra "Azərspace-1" peykində yayıma başlaması nəzərdə tutulub.**

Qeyd edək ki, martın 5-də MTRŞ-da "Real Təhlil İnformasiya Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin peyk yayımı üçün lisenziya verilməsi barədə müraciətinə baxılıb. MTRŞ-nın qərarına əsasən, "Real Təhlil İnformasiya Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə ixtisaslaşmış (xəbər) kanal kimi peyk yayımı üçün müddətsiz lisenziya verilib.

"Real" TV-nin baş direktoru Mirşahin Ağayevdir.

## "Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında həmsədrlərin fəaliyyətini dəstəkləyirik" - ATƏT sədri

**"ATƏT Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında Minsk qrupunun həmsədrlərinin fəaliyyətini dəstəkləyir."**

"Report"un verdiyi xəbərə görə, bu barədə təşkilatın fəaliyyətdə olan sədri, İtaliya XİN başçısı Ancelino Alfano Nyu-Yorkda BMT Təhlükəsizlik Şurasındakı çıxışı zamanı deyib.

O bildirib ki, biz Dağlıq Qarabağ münaqişəsinin birdəfəlik həlli üçün Minsk qrupu həmsədrlərinin fəaliyyətini dəstəkləməyə davam edəcəyik.

Onun sözlərinə görə, ATƏT bu il əsas diqqətini Dağlıq Qarabağ, Dnestryanı və Gürcüstan münaqişəsi daxil olmaqla, uzanan münaqişələrin həllinə yönələcək.

Xatırladaq ki, İtaliya ATƏT-ə bu il sədrlik edir.

**Azərbaycan fermerlərinin ən başlıca problemlərindən biri də əkib-becərdikləri məhsul üçün bazar tapa bilməmələridir.. Belə ki, artıq yerli məhsulların tükəndiyi bir mövsümü yaşasaq da, bəzi bölgələrdə məhsulların zirzəmilərdə qalıb çürüdüyü ilə bağlı məlumatlar gəlməkdədir. Təbii ki, bu fermer üçün çox böyük rəqəmlərlə ifadə olunan ziyan deməkdir. Həmçinin kənd təsərrüfatına marağı azaldan, kəndlini torpaqdan imtina etməyə gətirib çıxaran bir tendensiyadır.**



# "Bölgələrdə yerli məhsullar çürüyür, alan yoxdur" ittihamına dövlət qurumlarından cavab

## "Kimim əlində məhsulu varsa, bazar qiymətinə uyğun olaraq o məhsulu almağa hazırıq"

Qeyd edək ki, hazırda bazarlarda ən çox tələbat olan yerli məhsullardan biri Gədəbəy kartofudur ki, qiyməti 80 qəpik 1 manat arasında dəyişir. Keyfiyyəti yaxşı olsa da, qiyməti baha olduğu üçün rəqabətdə xaricdən idxalı olunan məhsullara uduzur. Alıcılar əsasən 50-60 qəpiklik kartofa üstünlük verdiyindən satıcılar Rusiya, Ukrayna, İran kartoflarını idxal edib satmağa üstünlük verirlər. Nəticədə yerli məhsullara tələbat azalır. Fermerlər isə yerli məhsulun istehsalı baha baş gəldiyindən onu dəyər-dəyməzinə satmaqdan imtina edirlər. Baha qiymətə satıldıqda isə bu alverçilərə və satıcılara sərf eləmir.

Kənd təsərrüfatı məhsullarının saxlanılması üçün bölgələrdə, o cümlədən Gədəbəydə saxlama anbarları tikilsə də, xərclər xırda və orta fermerlərin gücünə uyğun deyil. Məhsul anbarlarda saxlandıqda, müvafiq xərclər də qiymətin üzərinə gəlir ki, bu zaman alıcı tapmaq daha da çətinləşir. Nəticədə fermerlə məcbur olub məhsulu özlərinin uyğunlaşdırdıqları anbarlarda , əsasən də zirzəmilərdə saxlayırlar. Bu da bir neçə aydan sonra həmin meyvə-tərəvəzlərin kiflənməsinə, istifadəyə yararsız hala düşməsinə gətirib çıxarır. Yəni hər iki halda itirən fermer olur.

Bəs görəsən, Kənd Təsərrüfatı Nazirliyi bu istiqamətdə hansı işlər görür? Respublikanın bir çox rayonlarında təşkil olunan həftəsonu yarmarkaları niyə bu problemi həll edə bilmədi?

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan nazirliyin mətbuat xidmətinin rəhbəri Murtuzəli Hacıyev "mən deməzdim ki, bazarlarda xarici məhsullar üstünlük təşkil edir" deyə bildirdi: "Yerli məhsul bazarda daha çoxdur. Məhsulu əlində qalan fermerlərə isə müraciət edirəm ki, bizim bayramqabağı təşkil etdiyimiz yarmarkalara gəlib, məhsullarını tam sərbəst şəkildə sata bilərlər. Bu məsələdə heç bir problem, heç bir məhdudiyyət yoxdur. Yarmarkalarda tam şərait yaradılıb".

Rayonlarda məhsulların fermerdən alverçilər tərəfindən çox ucuz qiymətə alınmasına gəlincə, M.Hacıyev bunun tərəflərin qarşılıqlı razılaşması hesabına baş verdiyini bildirdi: "Qiymətlər sərbəst müəyyən olunur. Kənd təsərrüfatı məhsullarının qiymətləri artıq leqallaşıb, bazar özü bunu tənzimləyir. Hər bir qiymət qarşılıqlı razılaşma əsasında müəyyən olunur və biz buna müdaxilə etmirik. Kartofun satışında hər hansı bir problem varsa, bizim Gədəbəy rayon Kənd Təsərrüfatı İdarəsinə də müraciət edə bilərlər. Bayram yarmarkalarımız 4 gün olacaq. Bundan başqa hər həftənin şənbə və bazar günləri yarmarkalar keçirilir. Fermerlər məhsullarını gətirib sata bilərlər. İstənilən problemlər bağlı bizim rayon kənd təsərrüfatı idarələrimiz də fermerlərə köməklik göstərə bilərlər".

"Yeni Müsavat"ın suallarını cavablandıran "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nicat Nəsirli də vurğuladı ki, məhsulların satışı məsələsində fermerlərə kifayət qədər dəstək olunur: "Bizim cəmiyyət ərzaq məhsullarının tədarükü və satışı ilə bağlı bir neçə istiqamətdə tədbirlər həyata keçirir. Birincisi, bizim ASC-nin əsas funksiyası dövlət təşkilatlarının ərzaq məhsullarına olan tələbatını ödəməkdir. Ona görə də, il ərzində əsasən də yerli məhsullar tədarük olunaraq təxminən 2000-ə yaxın dövlət təşkilatının ehtiyacları təmin olunur. Bu təxminən il ərzində 150 milyon manatlıq bir dövriyyə deməkdir. Bizim qurum 1 ildir ki, fəaliyyət göstərir və 2017-ci ilin nəticələrinə görə artıq, 150 milyon manatlıq kənd təsərrüfatı məhsulları həmin müəssisələrin tələbatının təmin olunmasına yönəldilib. İl ərzində bu proses gedir. Bizim qurumun tədarük.gov.az portalı var. İqtisadiyyat Nazirliyi ilə Kənd Təsərrüfatı Nazirliyi orada bütün məhsulların qiymətini müəyyən edir. O qiymətlər üzərindən səhmdar cəmiyyət fermerlərdən məhsulları alır. Tələbat isə belə formalaşır ki, ilin əvvəlində həmin müəssisələr öz tələbatlarını tədarük.gov.az portalına elektron formada göndərirlər. Nəticədə onların tələbatı formalaşır. Eyni zamanda paralel şəkildə istehsalçılar öz təkliflərini həmin portala yerləşdirirlər. Biz onların istehsal gücünü şəffaf şəkildə görürük. Bu sayt virtual bir bazar rolunu oynayır. Həmin portal vasitəsilə məhsulları onlardan alıb satın alan təşkilatlara yönəldirik".

Nicat Nəsirli vurğuladı ki, bu qurumun tədbirlərinin ikinci istiqaməti fermerlərdən məhsulları tədarük edib bazara çıxartmaqdır: "Bildiyiniz kimi, hazırda ölkədə prioritet siyasət xırda və orta sahibkarlığın inkişafıdır. Xüsusən aqrar sektorda buna üstünlük verilir. Regionlarda məşğulluğu, o cümlədən iqtisadi aktivliyi artırmaq əsas məqsədlərdən biridir. Ona görə də, biz il ərzində kənd təsərrüfatı məhsullarını orta bazar qiymətinə fermerlərdən tədarük edərək həm regionlarda, həm də paytaxt rayonlarında fəaliyyət göstərən yarmarkalara öz maşınlarımızla aparırıq. Artıq bir aya yaxındır ki, bizim özümüzün də Bakının bir neçə rayonlarında ayrıca yarmarkalarımız açılıb. Orada həm məhsulları gətirib özümüz satırıq, həm də şərait yaratmışıq ki, fermerlər özləri gətirib sata bilsinlər. Onlara da təşkilati dəstək göstərilir, o cümlədən yerpulu alınmır. Fermerlər hər həftə təxminən 150 tona yaxın məhsul gətirib bu yarmarkalarda sata bilirlər".

Onun sözlərinə görə üçüncü istiqamət isə maddi stimullaşdırma tədbirlərinin həyata keçirilməsi, avans verilməsidir: "2017-ci ildə 3 milyon 500 min manat avans verilib. Bu təxminən 130-140 fermeri əhatə edib. Onlara müxtəlif həcmlərdə , 1000 manatdan 250 min manata qədər məbləğdə avans vermişik. Bunun qarşılığında 11 adda məhsul ölkənin regionlarında istehsal olunub. O məhsullar ki, ölkəmiz 100 faiz idxaldan asılı idi. Həmin məhsulların ölkədə istehsalını təmin etmək və idxalı aradan qaldırmaq üçün avans proqramı həyata keçirilir. Avansın birinci mərhələsi başa çatıb. İndi isə biz ikinci mərhələsinin başlamasını gözləyirik".

Bazarda xarici məhsulların yerli məhsulları üstələməsinə gəlincə, N.Nəsirli bildirdi ki, bəzi hallarda bunun səbəbi yerli məhsulun maya dəyərinin baha olmasıdır: "Eyni problem Ağsuda da baş vermişdi, indi Gədəbəydə də baş verir. Fermerlər problemi belə əsaslandırırlar ki, məhsulun maya dəyəri çox baha başa gəldiyindən biz məhsulu ucuz satmaq istəmirik. Qusarda, Biləsuvarda və digər rayonlarda da analoji hallar baş verir. Məsələ bundan ibarətdir ki, iki nazirlik bu məhsulların qiymətini müəyyən edir. Biz məhsulu həmin qiymətdən aşağı ala bilərik, ancaq baha almamalıyıq. Gədəbəydəki fermerlər isə deyirlər ki, onların becərdiyi kartofun maya dəyəri 45-50 qəpikdir. Bu isə bu gün bazardakı qiymətlər düz gəlmir. Biz onu 45 qəpikdən alsaq, gətirib Bakıda neçəyə sata bilərik? Nəticədə bazar rəqabətini uduzmuş məhsullar ortaya çıxır. Digər bir amil odur ki, fermerlərin əlindəki məhsul azdır, bəzən heç 500 kq deyil. Həmçinin onların saxlanma şəraiti elə olur ki, bir müddət sonra keyfiyyətini itirir, müəyyən xəstəliklər yaranır. Yəni, heç də bütün məhsullar həmişə bazara yararlı olmur. Biz fermerlərə təklif edirik ki, siz şərait yaradaq, pulsuz nəqliyyatla təmin edək, bazarlarda pulsuz yer ayıran, məhsullarınızı özünüz satın. Bu zaman fermerə daha çox xeyir qalır, nəinki vasitəçilərə. Hazırda bazarda minlərlə vasitəçi var, onlar fermerlərə təzyiq edirlər ki, məhsulu filan qiymətə verməlisən. Bu ölkənin ümumi siyasətinə uyğun deyil. İstehsalçıları ən çox narahat edən məsələ də budur ki, alverçi gəlib məhsulu su qiymətinə alıb, aparıb kiloqramını 1 manata satır, bizə xeyir qalmır. Biz həmin fermerlərə müraciət edirik ki, qaynar xəttimiz olan "16-59"a zəng vursunlar, maraqları varsa onlara kömək edirik".

ASC sözçüsü mətbuatda yayılan iddialara da aydınlıq gətirərək, onun iqtisadi əsasının olmadığını vurğuladı: "Gədəbəydə kartofun zirzəmidə çürüməsinə məsələsi ilə bağlı məsələni biz operativ şəkildə araşdırdıq. Bizim regional struktur bölmələrin rəhbərləri, eyni zamanda Gədəbəy rayon icra hakimiyyəti ilə əlaqə saxladıq. Bu qurumların xətti ilə , Gədəbəydə kartof istehsalı və satışı ilə məşğul olan bütün insanlara çıxış əldə etdik. Hazırda rayonda qeyd edilən miqdarda kartof yoxdur. Biz "Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyəti olaraq kartof istehsalçılarına müraciət edirik ki, kimim əlində məhsulu varsa, bazar qiymətinə uyğun olaraq o məhsulu almağa hazırıq. Qaynar xəttimiz olan "16-59"a zəng vursunlar, 1 gün ərzində bizim cəmiyyət onlardan məhsulu alacaq. Ancaq bizim araşdırmamıza görə hazırda rayonda o qədər kartof yoxdur, bazarlara və yarmarkalara çıxarılaraq satılıb".

**❑ Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 55 (6944) 10 mart 2018



# Yeni Salyan yolunun bir yeni problemi

Xalid KAZIMLI

**Hərdən ara küçələrdə asfaltın qabardılmasını, bilərəkdən açılmış şırımları və ya yolun ortasından keçirilmiş gəmi kəndirini görəndə istər-istəməz avtomobilin sürətini minimuma qədər azaltsaq da və buna görə dilxor olsaq da, bu tədbiri görənlərə haqq veririk.**

Çünki anlayırıq: insan həyatı hər şeydən önəmlidir. Başa düşürük ki, avtomobillərin yavaşımasına səbəb olan bu tədbirlər görülməsə gənc avtoxuliqanlar, yaşlı hövsələsizlər yaşayış məntəqəsinin içindən, məktəblərin qabağından şütüyüb keçər, tez-tez qəza törədər, uşaqları, yeniyetmələri həyatdan qoparar. Necə ki, edirlər...

Əslində bir çox yerlərdə işıqforlar da bu işi görür, avtomobillərin şütüyüb getməsinə mane olur, onlara "bu yol təkcə sizin deyil, yan küçədən gələn də, piyadalar da keçməlidir" deyir.

Ancaq elə yollar var ki, orada nə piyada keçidi, nə də işıqfor yoxdur. Yol da düz və hamardır, bir çox sürücülərin qırışdan məhrum olan beyinləri kimidir.

Yeni Salyan yolu bu qəbildəndir.

Bilənlər bilir, son illərdə çəkilmiş bu yol, 20-ci sahə adlanan yaşayış məntəqəsinin sol kənarıyla Bibiheybət məscidinə doğru uzanır və orada köhnə Bakı-Qazax yoluna birləşir.

Bu yolda sürət həddi saatda 60 kilometrdir. Radarlar və müşahidə kameraları da var. Ancaq sürücülərin ən azı 75 faizi bu yolda 70-90 km/s sürətlə şütüyür.

Yeni Salyan yolunun üstündə 4 çoxmərtəbəli bina var. Bunlardan ikisi jurnalistlərin yaşadığı binadır. Burada toplamda 2-3 min insan məskunlaşıb və proses davam edir. Göründüyü kimi, bu, ortabab bir qəsəbənin əhalisidir və yaxın illərdə o nahiyədə yaşayanların sayı 5 mini ötəcək.

Demək, yeni Salyan yolu heç də şəhərkənarı magistral sayıla bilməz, bu, şəhərdaxili yol kateqoriyasına aiddir. Sürət həddi də buna müvafiqdir.

Elədirsə, artıq küçəyə dönməkdə olan yolda nədən işıqforlar olmasın?

Bir neçə gün öncə o yolda bir işıqfor quraşdırılıb, ancaq bu ondan 400 metr aralıda olan iki binanın sakinlərinin dərdinə məlhəm deyil. Onlar da yolu o tərəf-bu tərəfə keçməli olurlar və təhlükə ilə üzləşirlər. O gün dostlardan biri zarafatla yazmışdı ki, yəqin, iraq olsun, bu yolda bir-iki adam avtomobillə vurulub öldürüləndən sonra gətirib işıqfor qoyacaq, piyada keçidi düzəldəcəklər.

Yaşıl işığının ömrü 15 saniyə olan bir işıqfor bu problemi həll edə bilər.

Belə olsa, bu iki binada yaşayan və avtomobili olan sürücülər evlərindən çıxıb "Azneft" dairəsi istiqamətinə getmək üçün Bibiheybətə doğru və geri 6 kilometrlik məsafə qət etməz, yaxud da Lökbatan istiqamətindən gələrkən evlərinə dönməyə görə təzədən "Azneft" dairəsinə doğru və geri 6-7 km yol ölçməzlər.

15 saniyəlik işıqfor bu kimi xırda problemləri həll edərsə, insanlara əziyyət verməyin mənası yoxdur.

Həm də artıq presedent var. Bir-birindən 400-500 metr aralı binaların bir cütünün sakinləri üçün normal şərait yaradılırsa, digər cüt üçün də eyni şərait yaradıla bilər və yaradılmalıdır. Əks təqdirdə bu ayrı-seçkilik kimi çıxar, elə görünər ki, o binalarda yaşayanlar ağ adamlardır, bu birilərdə yaşayanlar ikinci sortdur.

O gün sosial şəbəkədə bu xüsusda düşüncələrini yazan jurnalist həmkarımızın statusuna belə bir şərh yazmışdılar ki, nədən jurnalistlər imtiyaz sahibi olmalıdır...

Məgər yolu təhlükəsiz keçmək, evinə sağ-salamat dönmək xüsusi növ imtiyazdır? Bu, hamının haqqıdır. Dünyada heç kəs evinin bir addımlığındaykən yenidən 6 kilometr yol qət edib, dönüb-dolaşıb gəlmək istəməz. Və bunu tələb etmək imtiyaz ummaq deyil.

Dövlət öz vətəndaşının qanuni və məntiqli tələbini ödəməyə, ona optimal şərait yaratmağa borcludur.

Yəni prinsipcə, bu, bəsit məsələdir, bəlkə də bir yazıya mövzu olacaq qədər ciddi problem deyil. Ancaq gördüyünüz kimi, yazılmasa, deyilməsə, ictimailəşməsə, yuxarıdan qəti göstəriş verilməsə, bəzi aidiyyatı qurumlar məsələyə laqeyd yanaşır, konkret tədbirlər görmürlər.

Ümid edək ki, bu, sözügedən mövzuya həsr olunmuş sonuncu yazı olacaq.

# Sabiq vergi məmurları üçün kritik dönəm apreldə başlayacaq - təfərrüat

## Sahibkarlardan alınan milyardların xaricdən geri qaytarılması üçün ciddi işlər görülür

**Sabiq vergilər naziri Fazil Məmmədovun və onun komandasında təmsil olunmuş vergi məmurlarının taleyi bu ilin aprelində keçiriləcək prezident seçkilərindən sonra həll ediləcək.**

Bu haqda "Yeni Müsavat"a daxil olan məlumatda deyilir ki, hazırda Fazil Məmmədov və onun komanda üzvlərinə qarşı müşahidə edilən hərəkətsizlik əslində "tufanqabağı sakitlik"dən başqa bir şey deyil. Fazil Məmmədovun rüşvətxor, koorrupsioner kadrlarının siyahıları hazırdır. Onların sahibkarlara qarşı qanunsuz hərəkətləri ilə bağlı çoxlu dosyelər tutulub. Bildirilir ki, bəzi vergi məmurları onlarla bağlı gizli bir prosesin aparılmasından xəbərdardırlar. Odur ki, vəzifədə olarkən qan uddurduqları, böyük rüşvətlər aldıqları sahibkarlarla münasibətlərini düzəltməyə çalışırlar. İstəkləri də budur ki, istintaq orqanlarına çağırılan sahibkarlar onların qanunsuz əməlləri haqda məlumat verməsinlər. Bunun əvəzində sahibkarlara əvvəllər onlardan rüşvət olaraq alınan pullar geri qaytarılır.

Gələn məlumatlar onu deməyə əsas verir ki, Fazil Məmmədov üçün kritik dönəm səngimiş kimi görünür. Əslində isə proses davam edir. Fazil Məmmədovun ölkə daxilindəki aşkar və gizli olan bütün əmlakları siyahıya alınıb. Onun sahibkarlardan taladığı və xaricə çıxara bildiyi milyardların geri qaytarılması üçün də çox ciddi işlər görülür. Sabiq nazirin gizlədə bildiyi, ilkin qeydiyyatdan keçirib çıxarış almadığı obyektlərin isə axtarışları davam edir. Belə məlumat var ki, hələ 2015-ci ilin oktyabrında Eldar Mahmudov "vurulan" günlərdə Fazil Məmmədov çamadanlarını yığıb gözləmə mövqeyində dayanıb. Həmin dövrdə hələ bir müddət vəzifəsində qalacağını yəqinləşdirəndən sonra ehtiyatlı davranmağa başlayıb. Ətrafındakılara inamsızlıq nümayiş etdirib, aldığı mal-mülklərin ilkin qeydiyyat sənədlərini götürsə də, çıxarış alınması üçün müraciətlər etməyib. Fazil Məmmədov bunu ona görə etməyib ki, onun əmlakları ilə bağlı araşdırma aparanlar mal-mülkünün tam siyahısını müəyyən edə bilməsinlər. Yəni dövlət qurumlarına Fazil Məmmədovun, onun ətrafının adına olan əmlaklarla bağlı sorğu verilərsə, bu halda yalnız çıxarışla olan əmlaklar haqda məlumat verilir. Çıxarışsız əmlaklar isə bir növ kölgədə qalmış olur. Fazil Məmmədov bu kələyi ilə mal-mülkünü gizlətməyə çalışıb. Özü haqda fikir formalaşdırmağa çalışıb ki, nazir olaraq elə də böyük pulları qamarlamayıb. Hazırda Fazil Məmmədov qeyri-müəyyənlik içərisindədir. O, düşdüyü sıxıcı durumdan can qurtarmaq üçün günlərlə içir.

Redaksiyamıza daxil olan məlumatlarda deyilir ki, Fazil Məmmədovun Eldar Mahmudovla aşkar-gizli əlaqələri hələ də qalmaqdadır. Sabiq nazirlərin bir müddət əvvəl gö-



rüşmələri, bir neçə şüşə spirtli içki boşaltdıqları haqda da xəbər var.

Yada salaq ki, Eldar Mahmudov işdən çıxarıldığı günlərdə xəbər yayılmışdı ki, Fazil Məmmədovu işdən çıxarıblar. O dövrdə Vergilər Nazirliyi "Fazil Məmmədov kabinetindədir" açıqlaması verməklə onun işdən çıxarılması xəbərinə reaksiya verməmişdi. Amma Fazil Məmmədovun ətrafında körükləmə işlərinin aparıldığı da bilinirdi. 2016-cı il yanvarında prezidentin keçirdiyi ilk müşavirədə məmurları sərt tənqid etməsi də bu baxımdan diqqət çəkirdi. Prezident konkret nazirlərin rəhbərlik etdiyi sahələri tənqid edərkən Fazil Məmmədovun adını çəkmişdi. "Sahibkarları boğurlar, soyurlar, incidirlər. Bu, dözülməz haldır. Bax, 30 minə yaxın iş yeri bağlanıb, 67 min daimi iş yeri yaradılıb, 30 mini bağlanıb. Mənə məlumat verilsin ki, o iş yerləri hansı səbəblər üzündən bağlanıb. O müəssisələrin rəhbərlərini dəvət etmək, soruşmaq lazımdır. Buna son qoyulmalıdır" - deyə, prezident bildirmişdi.

Prezidentin o dövrdə Vergilər Nazirliyinə yönəlik çıxışında dedikləri də yaddaşlardan silinməyib: "Gəlirlər, əsassız tələblər irəli sürürlər, sanki bunlara kimsə borcludur. Heç kim heç kimə borclu deyil. Bu əməlləri törədənlər ciddi şəkildə cəzalandırılacaq. Onlar bu çirkin əməllərdən əl çəksinlər. Bu, ilk növbədə bizim siyasətimizə ziddir. Digər tərəfdən, bu, imkan vermir ki, iqtisadiyyatımız tam şəkildə inkişaf etsin, sahibkarlar ölkədə rahat işləsinlər. Mənə verilən məlumata görə, lisenziyaların sayı getdikcə artır. Əksinə, azalmalıdır, amma bizdə artır. Nəyə görə? Çünki müvafiq qurumlar çalışırlar ki, lisenziyaların sayını artırsınlar. Lisenziya da nədir? Pul mənbəyidir. Qanunsuz varlanma metodudur"...

2016-cı oktyabrında keçirilən müşavirədə isə F.Məmmədovun yaratmaz fəaliyyəti bir daha qabardılmışdı: "Biz liberal iqtisadiyyat, bazar iqtisadiyyatı modelini seçmişik və bu yolla gedirik. Əgər rüşvətxorluq, korrupsiya, yoxlamalar, lisenziyalar, haqqoyma olmasaydı, görün büdcəmiz nə qədər arta bilərdi?! Buna nə qədər dözmək olar?! Artıq qurtardı, yəni hövsələ tükənib. Hər kəs nəticə çıxarsın. Nəticə çıxarmasa, cəzalandırılacaq".

Fazil Məmmədov 2017-ci ilin dekabrına qədər fəaliyyəti ilə göstərdi ki, sərt tənqidlərdən nəticə çıxarmır. Rəhbərlik etdiyi qurumun bu çıxışlardan sonrakı fəaliyyətinə nəzər saldıqda aydın olur ki, nəinki nəticə çıxarmayıb, hətta sahibkarların sıradan çıxarılmasına yönəlik addımlar daha da sistemli şəkil alıb. Belə iddialar var ki, hətta bir çox sahibkarlardan 2016-cı ildə 2017-2018-ci illərdə ödəyəcəkləri vergilər əvvəlcədən alınıb. Sanki Fazil Məmmədov pulları alıb və aradan çıxmağa hazırlaşırmışE Eldar Mahmudov "vurulandan" sonra MTN-də baş verən sahibkarla bağlı cinayətlərin bir ucunun da Vergilər Nazirliyinə uzandığı üzə çıxdı. Nazirliyin cinayət xarakterli vergi hüquqpozmalarının təhlili və vergi borclarının alınması işinin təşkili Baş İdarəsinin rəisi Vidadi Məmmədov həbs edildi. Vidadi Məmmədov MTN-in sabiq rəhbəri Eldar Mahmudovun ən yaxın adamlarından sayılır.

V.Məmmədov MTN-də olan dəstə ilə birgə iş adamlarına qarşı fəaliyyətdə şübhəli bilinirdi. Məlumata görə, biznesmenlərdən vergidən əlavə pul ala bilməyəndə dərhal həmin iş adamı haqda məlumatlar MTN-ə ötürülürmüş. MTN çetesi də şantaj, hədə-qorxu yolu ilə həmin biznesmenləri soyurmuş. Bu şərikli "biznes"dən Fazil Məmmədovun bixəbər qalması inandırıcı da deyildi. İnandırıcı deyildi ki, Vergilər Nazirliyində Eldar Mahmudovun ən yaxın adamının illərlə sahibkarlardan milyonlar qoparmasından Fazil Məmmədov xəbərsiz olub. Artıq onun da cəzalandırılacağı gün uzaqda deyil. Sadalananlar onu deməyə əsas verir ki, Fazil Məmmədov üçün kritik dönəm sona çatmayıb, sabiq nazirlə haqq-hesab çəkiləcəyi günləri irəlidədir.

❑ E.HÜSEYNOV,
"Yeni Müsavat"

**ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Azərbaycanda prezident seçkilərini müşahidə missiyası rəsmi olaraq fəaliyyətə başlayıb.**

# ATƏT-in seçkini müşahidə missiyası fəaliyyətə başladı

## Müşahidə missiyasının rəhbəri: "Seçkilərə müdaxilə etməyəcəyik, DTİHB seçki polisi deyil, biz seçkilərin nəticəsi ilə maraqlanmırıq..."



Koryen Yonker





Bu münasibətlə ATƏT/DTİHB-nun Azərbaycanda prezident seçkilərini izləyəcək müşahidə missiyasının rəhbəri, xanım Koryen Yonker martın 9-da mətbuat konfransı keçirib. K. Yonker uzunmüddətli missiyanın gələn həftə Azərbaycana gələcəyini bildirib. O, uzunmüddətli missiyanın 20 nəfərdən ibarət olacağını qeyd edib: "Fevralın sonunda Azərbaycana səfər edən ehtiyacların qiymətləndirilməsi missiyasının hesabatından sonra seçkiləri müşahidə etmək barədə qərar verilib. Biz şadıq ki, Azərbaycandan müşahidə ilə bağlı dəvəti vaxtında almışıq.

Müşahidə missiyası seçkiləri qiymətləndirəcək, öhdəliklərə nə qədər riayət olunmasını dəyərləndirəcək. Gələn həftə uzunmüddətli missiya Azərbaycana gələcək. Ekspertlər ATƏT üzvü olan 19 fərqli ölkəni təmsil edir. Qısamüddətli missiya isə seçki günündən bir qədər əvvəl gələcək, səsvermə prosesini izləyəcək. Missiya aprelin axırına kimi davam edəcək, seçki sonrası mühiti də diqqətdə saxlayacaq. Missiya Bakıda 11 ekspertdən ibarət heyət, regionlarda isə 20 uzunmüddətli müşahidəçidən ibarətdir. Missiya martın 15-dən etibarən regionlarda müşahidələrə başlayacaq.

Müşahidəçilər namizədlərin qeydə alınması prosesini, seçkiqabağı kampaniyanın aparılmasını, seçki məsələlərinin həllinin hüquqi çərçivədə həyata keçirilməsində seçki administrasiyası və müvafiq dövlət orqanlarının işini izləyəcək. Həmçinin müşahidəçilər seçki məntəqələrinin açılması, səsvermə, seçki bülletenlərinin sayılması və nəticələrin hesablanması prosesinə nəzarət edəcək. Müşahidə DTİHB metodologiyasına uyğun aparılacaq. ATƏT üzvü olan bütün ölkələr öhdəlik götürüb ki, seçkilərini ATƏT-in seçki öhdəliklərinə uyğun aparsın. Biz seçkilərə müdaxilə etməyəcəyik. DTİHB seçki polisi deyil, biz seçkilərin nəticəsi ilə maraqlanmırıq. Bizim üçün əsas məsələ məqsədimiz seçki prosesinin şəffaf olmasıdır.

Seçki müşahidə missiyası 10 komanda ilə ölkənin bütün regionlarını əhatə edəcək. İlkin olaraq aralıq hesabat yayacağıq. Yekun hesabat isə seçki prosesi bitdikdən 8 həftə sonra açıqlanacaq".

### Avropa Parlamenti isə Azərbaycanda seçkini izləməyəcəyini açıqladı

Avropa Parlamenti isə Azərbaycanda keçiriləcək prezident seçkisini müşahidə etməyəcək. Novator.az xəbər verir ki, açıqlama martın 9-da yayılıb. Rəsmi açıqlamada bildirilir ki, Avropa Parlamenti Rusiyada və Azərbaycanda keçiriləcək prezident seçkiləri zamanı səsvermə prosesinə nəzarət etməyəcək və nəticələri şərh etməyəcək. Məlumata görə, Avropa Parlamentinin heç bir üzvü qurumun adından müşahidəçi kimi rəsmi mandat almadığı üçün hansısa deputatın bu yöndə addımı şəxsi təşəbbüs hesab olunacaq. Açıqlamada Avropa Parlamentinin Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlərlə bağlı məruzəni müzakirəyə çıxarmaq niyyətində olduğu vurğulanır. Prezident seçkisi ilə bağlı rəsmi mövqeyin həmin müzakirələrdə əksini tapacağı qeyd olunur.

Qeyd edək ki, prezidentliyə 15 nəfərin namizədliyi irəli sürülüb. Hələlik prezident seçkisində 4 rəsmi namizəd var: Yeni Azərbaycan Partiyasından prezident İlham Əliyev, Sosial Demokrat Partiyasından deputat Araz Əlizadə, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasından deputat Qüdrət Həsənquliyev və müstəqil namizəd, deputat Zahid Oruc.

Milli Dirçəliş Hərəkatı Partiyasının namizədi Fərəc Quliyev, Liberal Demokrat Partiyasının namizədi Fuad Əliyev, Müasir Müsavat Partiyasının namizədi Hafiz Hacıyev, Vətəndaş və İnkişaf Partiyasının namizədi Əli Əliyev, Azərbaycan Demokrat Partiyasının namizədi Sərdar Cəlaloğlu, "Cəbhəçilərin təşəbbüs qrupu"ndan namizəd Razi Nurullayev, müstəqil namizəd, AĞ Partiyanın sədri Tural Abbaslı MSK-da qeydə alınmaq üçün lazım olan imzaları toplayıblar. Onlardan Fərəc Quliyev imzaları və sənədləri MSK-ya təqdim edib. Digərləri isə martın 12-dək təqdim edəcəklərini bildiriblər.

Digər iddiaçılar Anar Umudov, Asif Məmmədov, Elşən Həsənov və Ramazan Bəkirovun isə imza toplama kampaniyası barədə heç bir məlumat yoxdur.

İmzaların və qeydə alınmaq üçün sənədlərin MSK-ya təqdim olunması üçün vaxt isə martın 12-də saat 18.00-da başa çatacaq.

### Namizədlərdən biri digər iddiaçının xeyrinə geri çəkildi

Martın 9-da seçkilərdə namizədliyinin başqasının xeyrinə geri götürmə hadisəsi yaşandı. Belə ki, Azərbaycan Liberal Demokrat Partiyasının (ALDP) sədri Fuad Əliyev Rəyasət Heyətinin iclasını keçirib. Bu barədə ALDP mətbuat xidmətindən musavat.com-a verilən xəbərdə deyilir ki, toplantıda çıxış edən Fuad Əliyev Mərkəzi Seçki Qərargahının (MSQ) imzatoplama kampaniyasında iştirak edən partiya üzvlərinə öz minnətdarlığını bildirib.

"İmzatoplama kampaniyası uğurla keçdi. Biz bir daha sübut etdik ki, partiyanın potensialı var və biz düz yol seçmişik. Bizim tərəfdarların sayı artır və bu bizə əlavə stimul verir"-deyə ALDP sədri qeyd edib.

Daha sonra Fuad Əliyev seçkilərdə müxalifətin vahid mövqeyindən çıxış etməyini vacibliyini bildirib: "Hesab edirəm ki, əgər seçkilərdə iştirak edən ADP, VİP və Ağ partiya və seçkilərdə iştirak etməyən müxalif partiyalar vahid mövqedən çıxış etsələr müxalifətin qələbəsinə nail olacağıq. Bu seçkilərdə VİP, Ağ partiya və ADP sədrlərinin iştirakına hörmətlə yanaşıram və onlara uğurlar arzulayıram. Baxmayaraq ki, biz lazım olan 45 min imzanı topladıq, təklif edirəm ki, müxalifətin birliyi naminə bu addımı ataq. Hesab edirəm ki, müxalifətin vahid namizədi Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu ola bilər və təklif edirəm ki, ALDP üzvləri bu seçkidə onu dəstəkləsinlər. Biz seçkidə iştirakımızı dayandırmırıq, əksinə ADP ilə birlikdə davam edirik. İkinci təklifim var. Seçkidə iştirak edən və iştirak etməyən partiyalara müxalifətin vahid mövqeyindən çıxış etmək üçün müraciət qəbul edək".

Müzakirələrdən sonra ALDP sədrinin təklifi qəbul olunub.

Rəyasət Heyətinin qərarı ilə ALDP növbədənkənar prezident seçkilərində ADP sədri Sərdar Cəlaloğlunun namizədliyini dəstəkləyəcək.

**❑ Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Hakimiyyət uğrunda mübarizəni "Azərbaycan savaşı" kimi təqdim edənlər...

## Siyasi mübarizənin əcaib mənzərəsinin səbəbləri

**Azərbaycanda bir sıra müxalif siyasi qüvvələr hakimiyyət uğrunda mübarizələrini sanki Azərbaycan uğrunda savaş kimi təqdim edir. Hansı ki, hazırda belə bir mübarizə şəraiti, şərtləri yoxdur. Azərbaycan müstəqil dövlətdir, nizami ordusu, oturuşmuş idarəçilik sistemi var. "Azərbaycan mübarizəsi" artıq pafosdan başqa bir şey deyil. Siyasi güclərin hakimiyyət mübarizəsinə "vətən uğrunda" savaş qiyafəsi geyindirməsi vətəndaşlarda da qıcıq yaradır.**

Belə bir vəziyyətin yaranmasının səbəbləri barədə ekspertlərin fərqli rəyləri var.

AMİP katibi Əli Orucov bu barədə danışarkən bildirdi ki, nə qədər qəribə görünsə də, bir çoxları tərəfindən Azərbaycanda hakimiyyət, iqtidar dedikdə dövlət başa düşülür. Ona görə də hakimiyyəti tənqid etmək, hakimiyyətə qarşı çıxmaq dövlətə qarşı çıxmaq kimi yozulur. Halbuki bunlar tamam ayrı-ayrı anlayışlardır: "İkincisi, hakimiyyət uğrunda mübarizə ona görə amansız gedir ki, sivil normalar və demokratik qaydalar arxa plana keçirilir, siyasi etika gözlənilmir. Təəssüflər olsun ki, sivil cəmiyyətlərdən fərqli olaraq Azərbaycanda hakimiyyətə siyasi qüvvələr öz proqram və platformalarının, ideyalarının gerçəkləşdirilməsi və xalqa xidmət üçün vasitə kimi deyil, qüdrətlənmə, sonsuz səlahiyyətlər, toxunulmazlıq əldə etmək vasitəsi kimi yanaşırlar. Və bunu da özlərinin toxunulmaz şəxsi əmlakları sayırlar. Ona görə də hakimiyyət uğrunda savaş vətən və ali dəyərlər uğrunda savaşdan daha şiddətli və amansız olur. Burada həm də psixoloji amillər və milli mentalitet amilləri də var . Bizim xalq vəzifəli, qalstuklu şəxslərə daha hörmətlə yanaşır. İnkişaf etmiş ölkələrdə ən yüksək post tutan şəxslər ən adi vəzifələrdə çalışırlar. İctimai nəqliyyatdan sonradan istifadə edirlər, sadə həyat tərzi keçirlər. Azərbaycanda isə dəbdəbəli və zəngin həyat tərzi sanki məmurun bir etalonuna və tanınma markasına çevrilir. Və bu həyat tərzini də qazanmaq üçün ya da əldə saxlamaq üçün mütləq hakimiyyətdə, vəzifədə olmaq vacibdir. Onların yerini tutub həmin imtiyazı əldə eləmək istəyənlər də kifayət qədər olduğu üçün mübarizə amansız olur".

Politoloq Natiq Miri isə bildirdi ki, ölkədə belə bir vəziyyətin yaranmasının bir sıra səbəbləri var. Səbəblərdən biri idarəetmədir: "Alternativləri, alternativ haqları heç kim tanımaq istəmir. Alternativi qəbul edə bilməmək siyasi mübarizəni, hakimiyyət uğrunda mübarizəsini bu həddə gətirib çıxarır. İdarəetmə üsulunda dəyişiklik olmadıqca vəziyyət o şəkildə də davam edəcək. Alternativ qüvvə qarşı tərəfdə düşmən obrazında görüləcək. Bu vəziyyət cəmiyyətin inkişafının qarşısını alır. Ona görə də idarəetmə sistemində, yanaşmada, seçki sistemində dəyişikliklər olmalıdır. Bu, həm ölkəyə, həm iqtidara, həm də müxalifətə lazımdır".

Ekspert onu da dedi ki, özünü hakimiyyətə alternativ kimi təqdim edən qüvvələrin yanaşma tərzi də dolayısı ilə bu arzuolunmaz vəziyyətin yaranmasında rol oynayır: "Onlar çıxışlarında, bəyanatlarında hakimiyyətdəkiləri hədələyirlər. Nəticədə qarşı tərəfdə özünü qoruma instinkti işə düşür. Hakimiyyət düşərgəsi düşünür ki, əgər seçkidə hakimiyyəti əldən versək bunlar bizi məhv edəcək, ona görə də nəyin bahasına olur-olsun buna imkan verilməməlidir. Beləliklə də hakimiyyət uğrunda seçkilər yolu ilə mübarizə çevrilir qalıb-qalmamaq savaşına. Bunun da qarşısını almağın yolu ölkədə idarəetmə sistemində demokratik islahatların aparılmasıdır".

**❑ Etibar SEYİDAĞA.**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 55 (6944) 10 mart 2018

**Aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkilərində iştirakdan imtina edən siyasi partiyalardan biri də Klassik Xalq Cəbhəsi Partiyasıdır. KXCP sədri Mirmahmud Mirəlioğlu ölkə daxilində baş verən bu və ya digər məsələlərlə bağlı "Yeni Müsavat"ın suallarını cavablandırıb.**

# "Seçki məsələsi sevgi məsələsi kimidir"

## Mirmahmud Mirəlioğlu: "Hakimiyyətinin iki müxalifəti var"



**"Daha normal olardı ki, seçkilərdən imtina edən bütün qüvvələr birləşəydi"**

***- Gələcək Azərbaycan Partiyası 10 martda Fəvvarələr meydanında keçirəcəyi etiraz aksiyasına sizin partiyanın dəstək verdiyi barədə məlumat yayıb. Doğrudan da bu dəstək olacaqmı?***

- Doğrudur. Hesab edirik ki, Bakı Şəhər İcra Hakimiyyətinə etiraz aksiyası ilə bağlı edilən xəbərdarlığını təhlükəsizlik baxımından razılığa gətirilməsi doğru deyil. Bu konstitusiya və mövcud qanunlara ziddir. Xəbərdarlıq olunduqdan sonra aidiyyəti qurum üzərinə düşən borcu yerinə yetirməlidir. Amma təəssüf ki, BŞİH-i kefi istəyəndə icazə verir, istəməyəndə yox. Bizə GAP sədri müraciət etdi, dəstək istədi, biz də lazımı dəstəyi verəcəyimizi bildirmişdik.

***- Hansı formada dəstək olacaq?***

- Üzvlərimizdən aksiyada iştirak edənlər olacaq. Böyük ehtimalla orada həbslər və başqa hallar olacaq. Bu baxımdan aksiyada iştirak edib-etməməklə bağlı üzvlərimiz azaddırlar.

***- Milli Şuranın 10 mart aksiyası ilə bağlı nə deyə bilərsiniz? Bu aksiyaya da dəstək olacaqsınız?***

- Milli Şura bizə müraciət etməyib. Kimlərə müraciət etdiklərini özləri daha yaxşı bilir. Sosial şəbəkələrdən edilən müraciətlər elə oradakılara aiddir. Kimlər iştirak etsə, bu onların haqqıdır. GAP-dan bizə rəsmi müraciət var. Həm sözlə, həm də yazılı müraciət var.

***- Əvvəl prezidentliyə namizəd olacağınızı bəyan etdiniz. Sonra boykot qərarı verdiniz. Bununla belə seçkilərdə iştirak edən müxalif namizədlər var...***

- Seçki məsələsi sevgi məsələsi kimidir, bir növ könül məsələsidir. Azərbaycanda seçkilərdə iştirak etməyənlərə cəza verilməsi kimi qanun yoxdur. Ayrı-ayrı dövlətlər var ki, vətəndaş mütləq seçkidə iştirak etməlidir, əgər etmirsə, müxtəlif cəzalar onu gözləyir. Hər kəsin özünün sevgisi necədirsə, seçkisi də elə olmalıdır. Hər kəs öz seçdiyinə layiqdir. Seçkilərdə iştirak edənlər hansı məqsədlə iştirak etdiklərini özləri yaxşı bilirlər. Bu da onların haqlarıdır. Bizim oktyabrda olmalı olan seçkilər barədə qərarımız var idi. Növbədənkənar seçkilər təyin olunduqdan sonra uzun müzakirələrdən sonra iştirakdan imtina qərarı verdik. Bu qərarımıza hər kəsin hörməti olmalıdır. Bizim məsələlərə baxışımız hamının baxışından fərqlidir. Hər kəsə uğurlar arzulayıram, seçkidə iştirak edənlərə də, etməyənlərə də. Nə olacaqsa, millətimizin, dövlətimizin xeyrinə olsun.

***- KXCP müxalif namizədlərdən hansısa birinə istər seçki kampaniyası dövründə dəstək verəcəkmi?***

- Müxalifət təmsilçilərinin seçkidə iştirak etdiklərini demək çox ciddi bir məsələdir. Əvvəla, Azərbaycan hakimiyyətinin iki müxalifəti var. Həm iqtidarın özünün dediyi, həm də müxalifətçilərin özlərinin dediyi müxalifət. Başqa müxalifət olanları hakimiyyətin təsirində olmaqda ittiham edirlər. Amma hakimiyyətin təsirində olaraq, iqtidarın müxalifəti kimi görünən, hakimiyyətə bu və ya digər məsələlərdə dəstək olan, o cümlədən, beynəlxalq təşkilatlar və diplomatik korpuslar tərəfindən qəbul edilən iki müxalifət var. Bunlar hakimiyyətin təyin etdiyi, bəzən radikal sandığı müxalifətdir. Bildiyim qədəri ilə hələ imzatoplama kampaniyası və qeydə alınma prosesi hələ davam edir. Proses başa çatandan sonra rahat fikir söyləmək olar. KXCP olaraq bu seçkilərdə iştirak etmirik, üzvlərimiz də iştirak etməyəcək.

***- ADP sədri Sərdar Cəlaloğlu prezidentliyə iddiaçı kimi qeydə alınsa necə? Müxalifət deyilmi?***

- Hər kəs müxalifətdir. Mən müxalifətəm, məndən başqa müxalifət yoxdur demək normal görünmür. Azərbaycanda bu cür deyənlər çoxdur. Mən hesab edirəm ki, Sərdar Cəlaloğlu bu və ya digər dərəcədə müxalifətdir.

***- Maraqlıdır ki, seçkilərdən imtina edən qüvvələr belə bir neçə hissəyə ayrılıblar. Məsələn, Milli Şura 10 mart mitinqi üçün yalnız Müsavat və REAL-a birgə mitinq keçirmək üçün müraciət edir. Nə baş verir?***

- 5 fevralda növbədənkənar prezident seçkilərinin təyin olunması xəbərindən bir neçə saat sonra bütün müxalifətə müraciət etdik, onların bu məsələni birlikdə müzakirə etmələrini istədik. Bizim də olduğumuz Siyasi Partiyalarla Əməkdaşlıq Mərkəzi toplandı. 10 mart mitinqinin təşkilatçılarına müraciət etdik. Onlar bu məsələni ya bizimlə müzakirə etmək istəmədilər, ya da istədilər, kimlərsə buna izn vermədi. Daha normal olardı ki, seçkilərdən imtina edən bütün qüvvələr birləşəydi. Bir yerdə olmaq istəyənlər birlikdə olurlar, kimlərisə məcbur etmək olmaz. REAL-ın birgə mitinq müraciətinə mənfi cavab verdiyi məlumdur. Müsavat Partiyası ilə müzakirələrimiz bu yöndə olmuşdu. Əli Kərimli ilə də görüşümüz olmalı idi. Cəmil Həsənli ilə isə müzakirəmiz olmayacaqdı. Çünki fevralın 5-də ona müraciət edəndə ki, sabah tədbirimiz var, gəlin, amma o dedi ki, fikirləşərəm, sonra yəqin məsləhət bildilər ki, tədbirimizdə iştirak etməsin, o da məsləhətə qulaq asıb. Partiyamızda bu məsələ müzakirə ediləndə də dedim ki, lazım gələrsə, Əli Kərimli ilə görüşəcəm, Cəmil bəylə görüşə isə heç bir ehtiyac yoxdur. Yəqin bu məsələ onların qulaqlarına çatdığı üçün Milli Şura adından edilən müraciətlərdə adımız olmadı. Nə yaxşı ki olmadı, özləri bilərlər. Mitinqlərinə uğurlar arzulayırıq. Elə olsun ki, birgə başladıqları bu mitinqi birgə də başa çatdırsınlar. Ötən dəfəkilər kimi olmasın.

***- Azərbaycanda müxalifət deyəndə bəlli bir dairənin nəzərdə tutulmasına münasibətiniz?***

- Hakimiyyətin müxalifəti olmaq arzusunda olanlar belə istəyirlər ki, yalnız müxalifət bizik. Beynəlxalq aləm də hakimiyyətin qeydə aldığı "müxalifətlə" görüşlər keçiriblər, keçirməkdə də davam edirlər. Nəticə ortadadır. Son 25 ildə hakimiyyətin nə qədər məsuliyyəti bu məsələlərdə varsa, müxalifətin eyni o qədər məsuliyyəti var. Kimsə məsuliyyətdən yaxa çəkə bilməz.

***- Prezidentliyə namizəd olan ALDP sədri Fuad Əliyev bütün partiyalara müraciət edərək, onları Sərdar Cəlaloğlunu dəstəkləməyə çağırdı. Sizcə o müxalifətin vahid namizədi olmalıdırmı?***

- Sərdar Cəlaloğlunun bizim dəstəyə ehtiyacı varsa, biz onu dəstəkləməyə hazırıq. Biz seçkiləri boykot edirik, amma tərəfdarlarımızdan iştirak edənlər olacaqsa, buna da normal yanaşacağıq. Sərdar bəy seçkilərdə iştirakı uyğun sayıb, proseslərə qatılıbsa, ona uğur arzulayıram.

***- Deputat Siyavuş Novruzovun Azərbaycanın müxalif liderlərinə etdiyi son müraciəti ölkə gündəmini silkələyib. Sizcə bu müraciət nədən doğdu?***

- Bu müraciət həm gözlənilən, həm də gözlənilməzdir. Çox normal bir müraciətdir. İstər xaricdən, istərsə də, daxildən kiminsə kimisə təhqir etmək haqqı yoxdur. Xüsusilə, qadınlara söz demək əxlaqlı siyasət deyil. Bu şəkildə davam edə bilməz. Kimliyindən asılı olmayaraq, hər kəs Azərbaycan insanıdır. Bizdə cəsarət tapıb, 30 mindən çox erməni gəlinini kimsə təhqir etmir. Təhqir üçün cəsarət lazım deyil, tərbiyəli olmaq vacibdir. Adamlar var ki, ağıllarına nə gəlirsə danışır, qabağına nə qoyulursa yeyir. Bu müraciət yerində olan lazımlı, düşünülmüş müraciətdir. Orada xeyli şəxslərin adları çəkilir. Kimin adı orada çəkilirsə, hesab edirəm ki, onlar da danışsalar, daha yaxşı olar. Kimsə bu məsələyə biganə qalmalı deyil.

**"Dedim ki, lazım gələrsə, Əli Kərimli ilə görüşəcəm, Cəmil Həsənli ilə görüşə isə heç bir ehtiyac yoxdur"**

Bizim adımız o müraciətdə yoxdur, amma münasibət bildirmək bizim də borcumuzdur. Kiminsə kiminləsə söhbəti varsa, bunu etik çərçivədə etməlidir. Onu da unutmaq olmaz ki, bəzi şəxslər saxta profillər vasitəsilə bu işləri görürlər. Bunlar da yolverilməzdir. Bu əslində cəmiyyətə sosial şəbəkələrin verdiyi ziyandır. Bu şəbəkədən bütün dünya xeyir götürür, yalnız bizdən başqa. Nə yaxşı ki, belə müraciətlər olur, bu müraciətlərə də yəqin cavablar olar. Düşünürəm ki, bu situasiya insanlarımızın silahsızlıqlarından doğur, vəziyyətdən çıxmaq üçün başqa bir silah tapmayanda söyüşə əl atırlar. Dünyanın heç bir yerində belə bir şey yoxdur.

***- Partiyanızın qurultayı da olmalı idi...***

- Hazırda konfranslarımızı keçiririk. Bu proses bitəndən sonra mütləq konfransımızı keçirəcəyik. Azərbaycanda siyasi partiyalar içərisində yeganə qurumlardan biri bizik ki, istədiyimiz vaxt qurultay keçirmirik. Başqaları istədiyi vaxt elan edirlər ki, sabah qurultaydır. İnşallah, bu il qurultayımız olacaq.

***- Mirmahmud Mirəlioğlu yenidən namizəd olacaqmı?***

- Hər şeyi qurultay göstərəcək.

***- KXCP daxilində ciddi narazılıqların baş qaldırdığı deyilir. Ara-sıra sosial şəbəkələrdə buna rast gəlirik. Narazılıqlara səbəb nədir?***

- Sosial şəbəkələrdə baş verənlərdən məlumatlısız. Amma orada olanlar tək təşkilat daxilində baş verənlər deyil. Bəzi adamlar düşünür ki, narazılıqları bu şəkildə etmək lazımdır. Mənim "Yeni Müsavat"a müsahibə verməyim belə, KXCP-də narazılıqlar var deyənlərin içərisində narazılıq yaradır. Narazılıqlar ən çox bundan ibarətdir. Niyə "Yeni Müsavat"ın baş redaktorunu təbrik edəndə bu sözü demişəm? Təsəvvür edirsiniz ki, narazılıq doğuran məsələlərdən biri də budur. Hər kəs narazılıqların mahiyyətini axtarsa, çox şeyin şahidi olar. Oqtay Gülalıyev məni ittiham edir ki, filan vaxtı filan sözü demisən. Bu kimi faktlar az deyil.

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 55 (6944) 10 mart 2018

# "Nəvəmi Yazıçılar Birliyinə yaxın qoymuram"

## Yazıçı Anar: "Mən yenə də Əkrəm Əylislini yazıçı kimi qiymətləndirirəm, axırıncı əsərindən başqa; onuncun ən yaxşısı bu olar ki, xalqdan üzr istəsin"

**Bu görüş əslində xalq yazıçısı Anarın öz təşəbbüsü ilə baş tutdu. Düzdür, biz də arzulayırdıq ki, böyük yazıçımızın 80 illiyi ərəfəsində onunla rəhbərlik etdiyi Yazıçılar Birliyində görüşüb ondan geniş müsahibə alaq. Ancaq xaricdə olması səbəbindən bu, baş tutmamışdı və telefonla danışa bilmişdik.**

Qəzetimizə verdiyi ötən müsahibədən sonra bu sətirlərin müəllifinə özü telefon açdı. Təşəkkür etməklə yanaşı, uyğun zamanda görüşmək təklifini verdi və təbii ki, böyük məmnunluqla qəbul etdim. Görüşdük, söhbətimizin şirin yerində təklif etdim ki, Anar müəllim, bəlkə tarix üçün, həm də yubileyqabağı sizdən həm də bir "növbədənkənar" müsahibə götürüm. Etiraz etmədi...

(Əvvəli ötən sayımızda)

***- Anar müəllim, heç bu barədə düşünmüsünüzmü ki, Rəsul Rzanın övladı olmasaydınız, indiki statusda olardınızmı?***

- Statusumu, nə varsa, mən özüm qazanmışam. Amma bilmirəm, bəlkə də mən ədəbi ailədə doğulmasaydım, ədəbi mühitdə, kitabların içində, ədəbi söhbətlərdə yetişməsəydim, yazıçı olmazdım. Yəqin ki, mənim yazmaq həvəsimdə ailənin təsiri olub. Amma ilk addımımda mən ancaq özüm olmuşam. Yəni nə atamın, nə anamın mənə himayəsi, köməyi olmayıb. Onlar sağ olanda mənim Moskvada hekayələrim çıxırdı, kitabım nəşr olunmuşdu, amma Azərbaycan Yazıçılar Birliyinin heç İdarə Heyətinin də üzvü deyildim. Çünki deyirdilər bu ailədən ikisi var: atası, anası. Halbuki mənim tay-tuşlarım, o cümlədən Əkrəm (Əylisli-E.P.) Moskvada Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü idi. Ancaq mən heç Azərbaycanda da üzv deyildim. Nə qədər ki, atam, anam sağ idi, Moskvaya, yazıçıların qurultayına bir dəfə də olsa, nümayəndə kimi getməmişdim. Valideynlərim rəhmətə gedəndən 6 il sonra məni Yazıçılar Birliyinin rəhbəri seçdilər.

***- Bəs, siz necə, yazıçı övladlarınıza kömək edirsinizmi?***

- Mənim oğlum da yazır, qızım da. Mən onlara heç bir kömək eləmirəm. O cəhətdən kömək eləmirəm ki, bunları qabağa çəkim, ya başqaE

***- Amma qızınız, Günel Anarqızı Yazıçılar Birliyinin üzvüdürE***

- Tural da üzvüdür, kitabları var. Günelin kitabları artıq 8-9 dilə tərcümə olunub, xaricdə çap olunub. Maraq doğurub. Özü də elə-belə çap olunmayıb, mən tərcümə eləmirəm ki. Özəlliklə "Qarabağ hekayələri" xaricdə maraq doğurur, tərcümə edirlər. Görürsən deyirlər ki, bir ailədən nə qədər yazıçı olar? Nə qədər bacarırlarsa, o qədər olar. Səməd Vurğun Xalq şairi idi, birinci xalq şairi. Yusif Səmədoğlu Xalq yazıçısı idi, bizim ən yaxşı yazıçılarımızdan biri, Vaqif Səmədoğlu Xalq şairi idi, bizim ən gözəl şairlərimizdən biri. Bəs, bunlar olmayaydı ki, bir ailədəndirlər? Nə olsun bir ailədəndir. Bunlar bir ailədən olsa da, hər üçü öz yerində ədəbiyyata böyük töhfələr vermiş sənətkarlardır.

***- Nəvələriniz necə, onlar da yazır?***

- (gülür) İndi deyəcəyəm, onu qəzet çap eləsə, səhəri gün biri başlayacaq ki, "gör e..." Mənim nəvəm, adı da Anardır, Turalın kiçik oğlu, ingilis dilində roman yazıb. Özü də iki romanı İngiltərədə çap olunub. Mənim də xəbərim yoxdur, romanı da oxumamışam, çünki ingiliscə bilmirəm. Bircə onu bilirəm ki, gətirdi mənə ki, "baba, mənim ilk kitabım çıxıb".

***- Çox gözəl. Nə vaxt olub bu hadisə?***

- 5-6 ay bundan qabaq. İndi də üçüncü romanını yazır. Təbii ki, ana dilini, Azərbaycan dilini də təmiz bilir, amma ingilis dilini də ana dili kimi bilir.

***- Bəs, Azərbaycanda necə, çap olunmayıb?***

- Yox, çap olunmayıb.

***- Üstəlik, Yazıçılar Birliyinə də üzv deyil?***

- Yox, Yazıçılar Birliyinə yaxın qoymuram. (gülür)

***- Anar müəllim, ilk dəfə nə qədər qonorar almışınız, xatırlayırsınız?***

- İlk dəfə 60-cı ildə, hekayələrim çap olunanda. Çox sevinmişdim, hekayələrimin çapına görə. Amma qonorarın məbləği yadımda qalmayıb.

***- Yəqin nəticəniz də yazıçı olar...***

- Nəticəmin 1 yaşı var, hələ yazmır, indi görək də...

***- Nəticəyə hansı adı qoymuşunuz?***

- Murad. O hələ ancaq yeməklə məşğuldur. İştahası yaxşıdır, təpişdirir nə gəldi. (gülürük)

***- Allah saxlasın! Anar müəllim, bayaq da dediyiniz kimi, gənclikdə yaxın dostunuz Əkrəm Əylisli olub...***

- Bəli, cavanlıqda çox yaxın dost olmuşuq. İndi demək yaxşı deyil, mən ona çox kömək eləmişəm. Fikirləşirdim ki, rayondan gəlib, burda adamı yoxdur, mənim atam Yazıçılar Birliyinə üzv olmaq üçün ona zəmanət verib. Mənim ilk dəfə Moskva mətbuatında, "Komsomolskaya paravda"da onun haqqında tərifli yazım çıxıb. Sonra bir pyesi Moskva jurnalında çap olunurdu, xahiş etdi, ona da ön söz yazdım. Komsomol mükafatı alanda rolum oldu. Mən o vaxt - Cəfər Cəfərov Mərkəzi Komitənin katibi idi, ondan xahiş elədim, Əkrəm mükafat aldı. Sonra mən bura sədr seçiləndə birinci o mənim namizəd olmağımı təklif etdi, bunu həmişə deyirəm. Onda sədr deyildi, birinci katib postu var idi. Mən də bura gələndən sonra onu katib gətirdim, bir müddət bir yerdə işlədik. Sonra nə isə döndü də...



***- Bəlkə istəyirmiş ki, növbəti dəfə siz onun sədr olmasına şərait yaradasınız, ola bilərmi?***

- Nə bilim vallah. Bəlkə də istəyirmiş. Ancaq onu açıq deyirdi ki, mən istəyirəm, mən də fikirləşərdim. İndi sizə deyim də, mən yenə də onu yazıçı kimi qiymətləndirirəm, axırıncı əsərindən başqa... Amma burada işləyə bilməzdi.

***- Nəyə görə?***

- Ona görə ki, o harada işləyibsə, az işləyib, sonra çıxıb gedib. Onun çətinliyə dözümü yoxdur. Əsəbiləşir, papağını götürür, çıxıb gedir.

***- Amma "Daş yuxular"ı yazandan sonra onun əleyhinə başlanan hücumda dözdü, heç yerə qaçmadı. Baxmayaraq ki, çoxları ölkədən gedəcəyini gözləyirdi...***

- Yox, deyəsən, harasa getmək istəyirdi, buraxmadılar. Özü də niyə ölkəni tərk eləsin ki? Mən elə fikirləşirəm ki, onuncun ən yaxşısı bu olar ki, xalqdan üzr istəsin. Məhz xalqdan, ayrı heç kəsdən yox. Nə hökumətdən, nə yazıçılardan, nə dostlarından. Xalqdan üzr istəsin ki, "mən belə bir əsəri yazmaqla səhv eləmişəm" və o əsərdən imtina eləsin. Onda mənə elə gəlir ki, xalqın da ona münasibəti dəyişər. Çünki bu, xalqa arxadan vurulmuş bıçaq idi, mənə də çox təsir elədi.

***- Kitab rəfinizdə Əkrəm Əylislinin kitablarından da varmı?***

- Hamısı var evdə. Mənə çox kitablarını bağışlayıb, hamısını da saxlamışam. Hətta mən onun haqqında yazdığımı "LİK"-də də olduğu kimi vermişəm, azərbaycanca çıxanda orda da verəcəyəm onu. Mən yazdıqlarımın heç birindən imtina etmirəm. Bəlkə hansısa yazım səhvdir, hansısa yazdığım zəifdir, ya hansınısa indi yazmazdım. Amma madam ki, yazmışam, onlara həmişə sahib dururam.



**"Sovetlərdən akademiya da qalıb, metro da, zavodlar da, aeroport da, vağzal da, onda gəlin, hamısını ləğv edək"**

***- Deməli, Əkrəm Əylislinin də yazdığından imtinası real görünmür...***

- Onu bilmirəm. Əkrəm Əylisli indiyə qədər mənim haqqımda heç bir yaxşı şey yazmayıb. (gülür)

***- Sonuncu dəfə nə vaxt görüşmüsünüz?***

- (düşünür) Çoxdan... Heç yadıma gəlmir. Hər halda bu məsələlərdən çox-çox qabaq.

***- Milli Məclisdə siz də təmsil olunurdunuz...***

- Yox, mən seçilmədim. Göyçay seçiciləri etimad göstərmədilər mənə, o seçildi.

- Mən sizin əvvəlki dövrdə deputat olmağınızı nəzərdə tuturam...

***- Bəli, mən əvvəlki illərdə iki dəfə seçildim. Növbəti dəfə...Mən deputat olanda komissiyanın sədri idim, o vaxt biz 15 qanun qəbul etdik.***

- Anar müəllim, illərdir ki, Yazıçılar Birliyi adlı quruma ehtiyac olmadığı haqda fikirlər səslənir, vaxtaşırı müzakirələr gedir. Bununla bağlı münasibətinizi bilmək istərdim. Yeri gəlmişkən, üzvlərinin sayı indi nə qədərdir?

***- Artıq 2 minə yaxındır.***

- Sovetlərin yadigarı olan Yazıçılar Birliyinə ehtiyac varmı, sualına qısaca necə cavab verə bilərsiniz?

***- Sovetlərdən akademiya da qalıb, metro da, zavodlar da, aeroport da, vağzal da, onda gəlin, hamısını ləğv edək.***

Bu vaxt qapı açılır və...

Dəyərli ziyalımız Qəzənfər Paşayevin müşayiəti ilə Kərkükdən gələn qonaqlar əvvəlcədən qəbul vaxtını razılaşdırdıqları və səfər qrafiklərinin sıx olması səbəbindən Anar müəllimlə görüşmək üçün içəri daxil olurlar. Xalq yazıçısının təklifi ilə mən də görüşdə iştirakçı oluram. Səmimi salamlaşmadan sonra kərküklü şairlər türkmən elinin durumundan, ədəbi əlaqələrdən danışırlar, Anar müəllimlə əvvəlki görüşlərini xatırlayırlar. O da məlum olur ki, türkmən şair Bakıda imza günü keçirməyə gəlib.

Söhbətin sonunda türkmən şair yazdığı, türkmənlərin xoryat dediyi bir bənd rübaini söyləyir:

***Rəsul Rza pınardır, (bulağ)***
***İşıq kimi yanardı.***
***Nur evi bir nur doğdu,***
***O da ədib Anardı...***

Anar müəllim məmnunluqla təşəkkür edir. Görüş başa çatandan sonra söhbətimizi qaldığı yerdən davam etdiririk...

***- Anar müəllim, Yazıçılar Birliyindən danışırdıq, fikrinizi tamamlamadınız, deyəsən...***

- Deyim də sizə. Yazıçılar Birliyi ən azı bir neçə şey üçün lazımdır. Birincisi, ona görə lazımdır ki, bu qurumun mətbu orqanları - 4 jurnalı, 2 qəzeti var. Camaat gedir öz cibindən pul verir, kitabını buraxdırır, bu mətbu orqanlarda isə yazıçılar çap olunurlar və az-çox qonorar alırlar. Demək, vaxtilə Heydər Əliyev onları büdcəyə götürməsəydi, bu jurnallar olmayacaqdı və ciddi ədəbiyyat da olmayacaqdı. Ədəbiyyat jurnalların, qəzetlərin ətrafında yaranır. Birinci buna görə Yazıçılar Birliyi lazımdır. İkincisi, yazıçıların yubileyləri olur, yazıçıların kitabları çıxır, onların təqdimatı keçirilir, yazıçıların kitablarının müzakirəsi olur. Yazıçılar Birliyi olmasa, bunlar harada olacaq? Kimə mane olur Yazıçılar Birliyi? Yazıçılar Birliyi ancaq xeyir verir. Yazıçılar Birliyindən başqa, bizim digər təşkilatlar da var, Rəssamlar İttifaqı, Bəstəkarlar İttifaqı. Heç kəs demir ki, bunlar kimə lazımdır, bağlayaq! Niyəsə hamının gözü dikilib ki, bu Yazıçılar İttifaqını bağlayaq! Bağlayaq, nə kitablarımız, nə jurnallarımız, nə qəzetlərimiz çıxsın, ümumiyyətlə, ədəbiyyat yox olsun! Bunu istəyirik?!

***- Elə isə əks-arqumentə cavabınızı bilmək istərdim: Yazıçılar Birliyi olmayan ölkələrdə o kitablar, qəzet-jurnallar necə çıxır?***

- Yazıçılar Birliyi olmayan ölkədə, deyim necə çıxır. Birincisi, məsələn, Türkiyədə 6-7 yazıçılar birliyi var. Yazıçılar Sindikatı, Yazıçılar Birliyi, Avrasiya Birliyi, PEN-Klub var və s. Demək, bunlar orda da var. Rusiyada Yazıçılar İttifaqı 7-8 yerə bölünüb. Hansı ölkədə yoxdur Yazıçılar Birliyi? İntəhası, başqa ölkələrdə Yazıçılar Birliyinin üzvləri gəlmirlər ki, "mənə ev ver!" Gəlmirlər ki, "xəstəm var, sən onun müalicəsinə kömək elə!" Sırf yaradıcılıq təşkilatıdır. Bizdə isə sovet dövründən qalma bir şüur var ki, Yazıçılar İttifaqı ancaq yazıçılara sosial cəhətdən xidmət etməlidir. Sosial nazirlik kimi, işsizi işə düzəltməlidir, xəstəsini müalicə etdirməlidir, özünə ad, ya ev verməlidir-filan. Bu, sovet dövründə mümkün idi, amma indi mümkün deyil. Gəlirlər ki, "nə olar, mənə bir otaq ver!" Hardan düzəldim mən sənə otağı, mənim otağım var sənə otaq düzəldəm?!

Özü də burada demokratik mühit var. Müxalifətdən də, iqtidardan da təmsilçilər var. Ancaq biz burada ancaq yaradıcılıq məsələlərini müzakirə edirik, siyasi məsələləri yox, çünki bura siyasi təşkilat deyil. Burada siyasi müzakirələr olsaydı, çoxdan dağılardı. Biz buranı ona görə indiyədək saxlaya bildik ki, dedik bura ancaq yaradıcılıq təşkilatıdır. Burada ancaq yaradıcılıq söhbətləri, kitabların müzakirəsi gedir, yazıçıların yubileyləri qeyd olunur, təqdimat olur, xarici qonaqlarla görüşlər keçirilir və s.

***- 1987-ci ildən Yazıçılar Birliyinin sədrisiniz, eləmi?***

- Bəli, artıq 31 ildir.

***- Növbəti qurultayda yenə də namizədliyinizi irəli sürəcəksinizmi?***

- Qurultaya qədər baxarıq da.

***- Bəs, sədrlik üçün varisiniz varmı?***

- Hələ fikirləşirəm. Olmalıdır. Təbii ki, heç bir yer insanın boynuna ömürlük biçilmir. Bir gün mən ya gedəcəyəm, ya başıma bir iş gələcək, təbii ki, kimsə yerimə gələcək. Amma hələlik fikirləşirəm. Bu barədə çox düşünürəm...

**❑ Elşad PAŞASOY**
**FOTO: "Yeni Müsavat"**



# Ey zəbər tə

Zamin HACI
zaminhaci@gmail.com

*"Xiyarı o, özün? qapıçı qoymuşdu.*
*Şamamanı qarşısında qulluqçu t?yin etmişdi"*
*(Füzuli, "Meyvələrin söhbəti")*

**Elmlər Akademiyasının vitse-prezidenti İsa müəllim deyir ki, idarənin Dilçilik İnstitutunda bir neçə lüğətin hazırlanması üzərində işlər gedir. Üç aydır orfoqrafiya lüğətini qayırırmışlar. Orfoepiya və izahlı lüğətlər də paralel olaraq işlənirmiş. Deyir dilimizin yeni qrammatika qaydaları yaradılır.**

Halal olsun. Orfoqrafiyanın düzgün yazmaq, orfoepiyanın düzgün danışmaq haqda qaydalar olduğunu nəzərə alsaq belə çıxır uca millətimiz indi-indi dilini öyrənəcəkdir. Yazmağı, danışmağı, sözlərin anlamını bilmirik. Körpə millət olmağımızdan irəli gəlirmi? Yox. Biz əslində qədim xalqıq. AMEA-dan başqa alim Yaqub müəllimin araşdırmalarına görə 1 milyon il eramızdan qabaq planetdə ancaq biz yaşamışıq. Bunun isbatı da vardır. Misal üçün, istənilən xalqın dilində birhecalı sözlər ən qədim sözlərdir. Gəlin dilimizdəki təkhecalı sözlərə baxaq: su, ət, ot, od, yol, pul, neft və sairə.

Təkcə danışmaq və yazmağı öyrətməklə iş bitmir, milləti qarşokda oturmağa, əlindən tutub yerimeyi öyrətməyə də hökumət borcludur. Yoxsa ölünü və milləti özbaşına qoysan, nəticə necə olur - bəşəriyyətə məlumdur. Qrammatika ilə yanaşı milləti də yenidən yaratmalıyıq. Yeni Azərbaycan Partiyası məhz bunun üçün qurulubdur.

Sevindirici haldır ki, millətin təlim-tərbiyəsi istiqamətində son illər xeyli işlər görülmüşdür, görülməkdə davam edir. Örnək üçün, artıq biz yas mərasimlərini necə keçirtmək dərsindən "4" almışıq. Əslində bəzi regionlar "5" alıbdır, ancaq Bakıda, müəyyən yerlərdə uca şeyximizin rəhbərlik etdiyi ölüxana biznesi sabotaj yapmışdır, prosesi tamamlamağa imkan verməmişdir. Bu baxımdan, indi Naxçıvanda ölü yeri qaynadılmış suya batırılan şəkər tozu dənəciyi ilə yola verilirsə, Masallıda öküzü yıxıb kəsməsən mərhumun Sırat körpüsündən adlamasına qarantiya yoxdur. Test imtahanında da belə nəticələr olur. Biri 100 bal yığıb Qazax Aşıq Sənətləri Universitetinin qiyabi şöbəsinə girir, başqası 750 balla Alidən Ali Diplomatik Akademiyanın nazir qudası fakültəsinə.

Sonra, qəbirlərin düzəldilməsi üçün dövlət standartı hazırlanıb. Ona görə xəstəxanaları yandırıb çoxlu adam öldürürlər ki, bu proyekti kütləvi sınaqdan çıxarsınlar. Bir-iki ölüylə təzə qanun keçməz ki. Qanun xalq üçündür, xalq qanun üçün deyil.

Şadlıq saraylarının tikilməsi, bunların məmurlar və rəislər tərəfindən idarəçiliyi, xınayaxdı mərasimlərinin təşkilinin isə həmin rəislərin məşuqələrinə tapşırılması da dövlət proqramının tərkib hissəsidir. Sözgəlişi, bəzi bizdən də qədim qəbilələrdə "birinci gecə haqqı" kimi toy adəti vardır, bu hüquq konstitusiya ilə icra hakiminə, o, yerində olmasa prokurora, o da xaricdə olsa JEK müdirinə verilir. Niyə bu cür gözəl qanun-qayda bizim ulu diyarda yerinə yetməsin? Şair demişkən, qoynunda var bir cüt nar, biri heyva, biri nar...

Novruz bayramı yaxınlaşdıqca narın qiyməti də qalxacaqdır, bilin. Dünən mən pomidoru 5 manata gördüm, ona salam verdim, dedim, əslində, ey pomidor, sən bostan bitkisi deyilsən, bizik bostan bitkisi. Bundan sonra pomidor da basdı şaxı sinəsinə, epiqraf yazdığım misraları dedi.

Qayıdaq mövzuya. Tək biz deyilik, 1500 ildir bütün müsəlman aləmi ölünü necə basdırmağı, axirətin faydalarını düşünür. "Ey əhli qübur" - ən geniş yayılmış müraciət formasıdır. Çünki bu həyat fanidir. Əsas yaşayış bizi o tərəfdə gözləyir. Bu baxımdan, qoy neft gəlirlərini kim istəyir oğurlasın. O dünyada neft oduyla yanacaqdır! Çünki hər kəs cəhənnəmə öz oduyla gedir! Bə nə. Şairin bu temada misraları da vardır: "Zahid, məni aldatma cəhənnəmdə od olmaz, Onlar ki yanarlar odu burdan apararlar". Bah-bah. Gör indi MB rəhbərliyi nə qədər manat aparacaqdır.

Bir qohum var, uşağı məktəbdən gəlirdi, soruşdum bu gün nə öyrəndiniz, deyir, müəllim ovucdakı xətlərin insanın taleyində rolundan danışdı. Falçılıq öyrədirmiş. Xiromantiyanı başa salırmış. Halal olsun. Hələ bəzi müəllim var, Babəki tədris edəndə "Allahın lənətinə gəlmiş Babək" deyə sözə başlayır.

Yadıma köhnə əhvalat düşüb. 18 il qabaq bir nəfər tapmışdım, Çeçenistanda ərəb Xəttabın dəstəsində ruslara qarşı vuruşmuşdu. Deyir, orda bizə ərəb dili də öyrədirdilər. Bir dəfə müəllim "ey zəbər tə" deyəndə məşhur film səhnəmizi xatırladım, məni gic gülmək tutdu, birtəhər özümü saxladım.

Doğrudan da, Xəttaba necə izah edəsən ki, bizdə kafirlik hətta kino çəkmək səviyyəsinə qalxmışdı. Hələ oğul atanın ikinci arvad almasına etiraz eləsin, desin, özümü Kürə atacağam...



# Ermənistanda itaətsizlik başlayır - ölkə qarışır

## İki Sərksiyana bir ortaq təpki; işğalçı ölkənin yeni prezidenti ilk ciddi sınaqla üz-üzə; erməni lobbisi də hakim rejimlə savaşa girir - "baş məşq"?..

**Martın 2-də Ermənistan formal da olsa, yeni prezidentini seçdi - bu dəfə parlamentdə. Böyük Britaniyadakı sabiq səfir və iş adamı Armen Sərkisyan növbəti 5 il üçün Serj Sərksyanı bu postda əvəzləyəcək. Aprelin 9-a onun andiçməsi nəzərdə tutulub.**

Armen Sərkisyan seçilən kimi Serj Sərkisyanla görüşdən sonra bəyan edib ki, hazırkı siyasi kursa sadiq qalacaq - o cümlədən Dağlıq Qarabağ məsələsində. Bu da faktiki, o anlama gəlir ki, erməni əhalisinin iqtisadi-sosial durumunda yaxşıya heç bir dəyişiklik baş verməyəcək. Çünki mövcud siyasət ölkə qarşısında duran əsas və üzücü problem kimi Qarabağ ixtilafının həllinə yox, onun uzanmasına xidmət edir. Deməli, ölkədən kütləvi köç davam edəcək, işğalçı ölkənin blokada rejimi daha da sərtləşəcək, iş yerləri daha da azalacaq, dolanışıq bir az da qəlizləşəcək, orduya çağırışçı problemi bundan da sərt xarakter alacaq.

*****

"Yeni Müsavat" xatırladır ki, artıq bu il yanvarın 1-dən Ermənistanda bütün zəruri ərzaq məhsullarının və benzinlə maye qazın qiyməti qalxıb. Bahalaşma ilə bağlı İrəvanda artıq etiraz aksiyaları da olub. Prezident səviyyəsində Təhlükəsizlik Şurasının xüsusi iclası keçirilib. Belə görünür ki, yeni prezident də vəziyyəti müsbətə dəyişmək gücündə olmayacaq. Bu mənada Aram Sərkisyan ilk olaraq daxili sınaqla üzləşməli olacaq.

Söz düşmüşkən, martın 10-dan - yəni bu gündən etibarən Ermənistanda etiraz aksiyaları keçiriləcək. Azvision.az-ın məlumatına görə, bu barədə "Miras" partiyasının sədri Armen Martirosyan açıqlama yayıb. Müxalif partiya sədri bildirib ki, itaətsizlik aksiyaları ölkəni böhran vəziyyətinə salan hakim rejimin dəyişdirilməsinə yönələcək. Çox güman ki, aksiyalar bir neçə gün davam edəcək.

Göründüyü kimi, bir Sərksyanı başqa, daha imkanlı və "qərbyönlü" Sərksyan əvəzləsə də, əhalinin sabaha ümidi azalıb ki, artmayıb. Səbəb də odur ki, narazı vətəndaşlar hər iki Sərkisyana "eyni bezin qırağı" kimi baxır...

*****

Bu arada Avropadakı erməni lobbisi ilə Ermənistan hakimiyyəti arasında gərginlik artmağa başlayıb. Lobbi aprelin 9-da prezidentlikdən baş nazirliyə "sıçrayış" etməklə hakimiyyətinin ömrünü uzatmağa hazırlaşan Serj Sərkisyanın Ermənistanı tam olaraq nəzarət altına almasından narahatlığını ifadə edib (Axar.az).

Ölkəyə təsirini əldən vermək istəməyən lobbi artıq Sərkisyana qarşı sərt ittihamlar səsləndirməkdədir. Belə ki, Ermənistanın 1in.am saytına açıqlama verən Avropa Erməni Təşkilatları Forumunun sədri Aşot Qriqoryan Avropadakı ermənilərin ən çox Təhlükəsizlik Şurasının səlahiyyətlərinin artırılmasından narahat olduğunu söyləyib.

"Xarici analitiklər demokratik haqların fəlakətli şəkildə məhdudlaşdırılmasına Venesiya Komissiyası və Avropa Birliyinin reaksiya verməməsindən təəccübləniblər. Bizim Forumun analitikləri belə qənaətə gəliblər ki, hökumətin qapalı rejimdə iclas keçirmək qərarı olduqca təhlükəli tendensiyadır. Niyə bu görüşləri qapalı edirlər və burada hansı qərarları qəbul etmək istəyirlər? Belə qapalı iclaslar və Təhlükəsizlik Şurasının səlahiyyətlərinin parlamentdən yüksək olması bir şeyə - Ermənistanın "azad edilmiş torpaqları" (Qarabağ və ətrafındakı 7 rayon nəzərdə tutulur - red.) geri qaytarmağına xidmət edir. Serj Sərkisyanın bu torpaqları parlamentdə müzakirə etmədən qaytarılması təklifinə Təhlükəsizlik Şurasında baxılacaq. Burada isə hər şey ona tabedir. Biz bəyan edirik ki, əgər bu, baş versə, xalq qiyama başlayacaq".

Qeyd edək ki, Ermənistanın işğal altındakı torpaqları azad etmək planları ilə bağlı çıxışlar bundan öncə də dəfələrlə gündəmə gəlib. Bir çox erməni ekspertləri İrəvanı buna Moskvanın məcbur etdiyini bəyan etsələr də, hökumətdə heç kim bu iddiaları təsdiqləmir. Bəzi mənbələr isə hətta daha da irəliyə gedərək, Sərkisyanın öz hakimiyyətini uzatmaq üçün Moskva ilə Qarabağ sövdələşməsinə getdiyini söyləyirlər. Belə bir sövdələşmədə Moskvanın məqsədinin həm Sərkisyanı hakimiyyətdə saxlamaq, həm də Azərbaycanı öz təsir zonasına qatmaq olduğu deyilir. Maraqlı məqam isə Kremlə yaxın bəzi rusiyalı ekspertlərin son illər mütəmadi şəkildə Qarabağla bağlı optimist fikirlər söyləməleridir.

*****

Qeyd edək ki, bu ilin aprelində parlamentli idarəetmə sisteminə keçidlə bağlı Ermənistanda prezidentin səlahiyyətləri azaldılacaq, onların çox hissəsi baş nazirə veriləcək. Üstəlik, ordu, kəşfiyyat xidmətləri və polis baş nazirin tabeliyində olacaq. Siyasi müşahidəçilərə görə, yeni baş nazir böyük ehtimalla, hazırkı prezident Serj Sərkisyan olacaq.

Lakin bu dəyişikliyə qarşı ən sərt mövqedə duran məhz erməni diasporudur. Səbəblərdən biri də Serj Sərkisyanın 2008-ci il martında 1-də birinci prezidentlik müddətinə 8 dinc nümayişçini güllələməklə başlamasıdır. Hətta Avropadakı lobbinin ünlü simalarından biri az öncə hakim rejimi qiyamla hədələyərək bəyan edib ki, əgər S.Sərkisyan indi də baş nazir postunda ölkəyə nəzarəti əlində saxlasa, bu yolda zorakılıq eləsə, onun nəticələri Ermənistanla yanaşı, hakim ailə üçün də çox ağır olacaq.

Doğrudur, məsələdə əsas söz sahiblərindən biri Rusiyadır. İstənilən halda ehtimal ki, aprelin 9-u - baş nazir seçkiləri yaxınlaşdıqca, ölkədə siyasi və sosial etirazlar daha qızışacaq, daxili siyasi hərarət qalxacaq. 9-na isə bir aydan da az qalır. Bu mənada bu günə nəzərdə tutulan itaətsizlik aksiyalarını və bütövlükdə aprelin 9-a qədər olan dönəmi "baş məşq" də adlandırmaq olar...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 8 (6897) 13 yanvar 2018

**Rusiyada martın 18-də prezident seçkisi keçiriləcək. Seçki yaxınlaşdıqca ABŞ-dan Rusiyaya, xüsusilə də Vladimir Putin iqtidarına basqı artır. Artıq ABŞ Rusiyaya qarşı bundan sonrakı sanksiyalar üçün dörd sfera müəyyən edib. Bu halda, Rusiya prezidenti Putin üçün ən təhlükəli zərbə rus oliqarxlarına qarşı məhdudlaşdırıcı tədbirlər ola bilər.**

# Milli Azadlıq Hərəkatının iştirakçıları Siyavuş Novruzovun müraciətinə cavab verdilər

## Xalq Cəbhəsinin öncülləri Vidadi İsgəndərli adlı şəxsin bu proseslərdə iştirak etmədiyini dedilər, ona xitabən "əxlaqdan kənar mübarizə metodları qəbuledilməzdir" söylədilər



Xəbər verildiyi kimi, YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov Milli Azadlıq Hərəkatında iştirak edənlərə adbaad səslənərək, özünü illərin hərəkatçısı kimi təqdim edən, son vaxtlar qalmaqallı videolar yayan və təhqiramiz tonda danışan Vidadi İsgəndərlinin Milli Azadlıq Hərəkatında olub-olmadığına aydınlıq gətirmələrini xahiş edib. Sitat: "Mən Milli Azadlıq Hərəkatında, Meydan Hərəkatında iştirak edənlərə müraciət edirəm, desinlər, görək bu adamı o proseslərdə görüblər? Azərbaycanın müstəqilliyi, ya Qarabağ uğrunda mübarizədə onun iştirak etdiyini görən olubmu? Mən müraciət edirəm, Əbülfəz Elçibəyin ailə üzvlərinə! Allah onun özünə qəni-qəni rəhmət eləsin! Ailə üzvləri desin, bir dəfə bizim onlar haqqında təhqiramiz ifadə işlətdiyimizi eşidiblər?"

S.Novruzovun adını çəkdiyi şəxslərin bəziləri məsələyə münasibət bildiriblər.

Milli Azadlıq Hərəkatının liderlərindən biri, Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı bidirib ki, Adətən Milli Azadlıq Hərəkatında iştirak edən və üzdə olan insanlar hamısı bir-birini tanıyır. Vidadi İsgəndərli o hərəkatda olsaydı, ən azından, adını eşitmiş olardım: "Mən hərəkatda Vidadi İsgəndərli adlı şəxsi tanımırdım. Milli Azadlıq Hərəkatında yüz minlərlə insan iştirak edib. Əlbəttə, hamısını tanımaya bilərəm. Ancaq o hərəkatda iştirak edən Vidadi İsgəndərli adlı adam tanımamışam. Kim olduğunu da bilmirəm. Bu adda insanın Milli Azadlıq Hərəkatına qoşulduğunu eşitməmişəm".

Modern.az saytı S.Novruzovun çağırışına mərhum eks-prezident Əbülfəz Elçibəyin ailəsindən münasibət öyrənməyə çalışıb. Elçibəyin xanımı Türkiyədə olduğundan oğlu Ərturqut Əliyev məsələyə dair mövqeyini açıqlayıb: "Azərbaycan hakimiyyəti tərəfindən bizim ailəmiz, ailə üzvlərimiz təhqir olunmayıb. Kimsə kiminsə fikirlərinə etiraz edə bilər. Lazım gəlsə, kimisə tənqid də etmək olar. Amma təhqir yolverilməzdir. Mənim ailəmə qarşı təhqir olmayıb və ola da bilməz".

Xalq hərəkatının liderlərindən olan ADP sədri də xalq hərəkatında V.İsgəndərlinin tanımadığını deyib.

Xalq hərəkatının öncüllərindən olan, deputat Fəzail Ağamalı isə S.Novruzovun müraciəti ilə bağlı ayrıca böyük bəyanat yayıb. Bəyanatda F.Ağamalı V.İsgəndərli adlı hərəkatçı tanımadığını bildirib: "Xalqımız azadlıq uğrunda mübarizəyə başlayandan bu günə qədər onun tam içərisində olanlardanam. Vidadi İsgəndərlini bu mübarizının nə ortasında, nə də önündə görmüşəm. Ara-sıra müxalifətin keçirdiyi mitinqlərdə İsa Qəmbərin, Əli Kərimlinin yanında duraraq ekranın obyektinə tuş gəlməyə çalışan Vidadi İsgəndərli bir gün xaricə getmək və daha yaxşı yaşamaq üçün "siyasi mühacir" adını qazanmağa çalışanlardan və buna nail olanlardandır. Vəssalam".

Milli Şuranın sədri Cəmil Həsənli isə bildirib ki, kiminsə ailə üzvünün təhqir edilməsi yolverilməzdir: "İstər mətbuatda, istər siyasi qarşıdurmalarda insanların şəxsiyyətini alçaldan, ailə həyatına müdaxilə edən hər hansı ifadələr yolverilməzdir. Bunu etmək olmaz. Siyavuş Novruzovun narahatlığını başa düşürəm. Ancaq bu narahatçılığı gərək, müxalif düşərgənin adamları təhqir olunanda da keçirərdi".

"Vidadi İsgəndərli Meydan hərəkatında iştirak edibmi" sualına isə Milli Şura sədri belə cavab verib: "Söhbət Vidadi İsgəndərlinin o hərəkatda iştirak edib-etməməsindən getmir. Vidadi heç iştirak etməyib, amma Vidadiyə görə onun atasının məzarını o formada təhqir etmək olmaz. Əgər bir şəxs düzgün olmayan iş görübsə, onun özüylə haqq hesab çəkmək lazımdır".

Xalq Hərəkatının iştirakçısı, politoloq Zərdüşt Əlizadə is axar.az-a deyib ki, 7-8 il bundan əvvələ qədər ümumiyyətlə Vidadi İsgəndərli adlı adam tanımayıb: "Vidadi İsgəndərli haqqında son 7-8 il ərzində eşitmişəm. Yəni hüquq müdafiəçisi kimi həbs edildiyi zamanlarda tanımağa başladım. Ondan əvvəl isə ümumiyyətlə onun kim olduğunu bilmirdim. Milli Azadlıq Hərəkatında isə qəti bilirəm ki, Vidadi İsgəndərli adlı adam olmayıb. Bütün bölgələrdən, şəhərdən, minlərlə insan tanıyıram ki, Xalq Hərəkatında iştirak edib. Şəxsən tanıdıqlarım da var, tanımayıb, adını eşitdiklərim də var. Mən Vidadi İsgəndərli adlı insan tanımamışam. Xalq Hərəkatında iştirak etsəydi, hətta şəxsi tanışlığımız olmasaydı belə, adından tanıya bilərdim. Bəlkə kimlərsə tanıyır, mən səhv edirəm?! Mən öz adımdan deyirəm ki, belə bir insan tanımamşam".

Milli Məclisin deputatı, Xalq Hərəkatının fəallarından olan Fazil Mustafa isə siyasi mübarizə zamanı kimliyindən asılı olmayaraq, qırmızı xətti gözləməyin lazım olduğunu deyib: "Biz 35 ildən artıqdır ki, siyasi mübarizənin içərisindəyik və bu mühitdə xeyli sayda tanımadığımız insan var. Vidadi İsgəndərlini özünü tanımamışam, amma qardaşı İsfəndiyarı tanıyıram. İsfəndiyar bəy dəyərli, hörmət etdiyim şəxslərdən biridir. Vidadi İsgəndərlini isə bir neçə il öncə həbsdən çıxandan sonra tanımışam. Əvvəllər hakimiyyətə qarşı ən sərt, barışmaz mövqedə dayanmışıq, amma tam səmimi deyim ki, indiyə qədər mənə qarşı da hansısa haqsızlıqlar olub. Həbsə də düşmüşəm, lakin bütün bunlara baxmayaraq, həmişə fikir vermişəm ki, hansısa şəkildə istər Heydər Əliyevin, istərsə də İlham Əliyevin hakimiyyəti dövründə şəxsi və yaxud ailə zəminində təhqirlə qarşılaşmamışam. İnsanlar başa düşməlidirlər ki, siyasi mübarizə insanın özü ilə aparılır. Onun ailəsini, uşaqlarını təhqir etmək, söyüşdən istifadə etmək düzgün deyil. Bu, həm hakimiyyət, həm də müxalifət nümayəndələrinə aiddir".

Xalq hərəkatının tanınmış simalarından olan Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimli də Vidadi İsgəndərlini ancaq son günlər etdiyi radikal çıxışlarına görə tanıdığını bildirib: "Əvvəla, Siyavuş müəllimə təşəkkür edirəm, mənim məhkəmə sədri olduğum halda Milli Azadlıq Hərəkatına qoşulduğumu bildirdiyi üçün. Milli Azadlıq Hərəkatı olan zaman ola bilər ki, Vidadi İsgəndərli orada iştirak edib. Ancaq mən onu görməmişəm, tanımamışam. Onu son dövrlərdə radikal çıxışlarına görə tanımışam. Xalq Hərəkatında iştirak etməsi barədə də heç kəsdən eşitməmişəm. Hazırda yanımda olan partiya yoldaşlarımdan da soruşdum. Onlar da mənimlə eyni fikirdədir, yəni nə Vidadi İsgəndərlini tanıyan var, nə də xatırlayan.

Nə olursa olsun, istənilən halda əxlaqdan kənar mübarizə metodları qəbuledilməzdir".

Xalq hərəkatının öncüllərindən olan, deputat Fərəc Quliyev də V.İsgəndərlini tanımadığını bildirib: "Bütövlükdə istər müxalifət, istərsə də hakimiyyətdə olanlar tərəfindən sərgilənən təhqir xarakterli davranışın əleyhinəyəm. Mən Vidadi İsgəndərlini tanımıram və müstəqillik uğrunda vüsət almış Azadlıq Hərəkatında belə bir adamla hər hansı bir birgə fəaliyyətimiz olmayıb, lakin bütün hallarda hər hansı bir xidmətinin olub-olmamasından asılı olmayaraq, kiminsə kimisə təhqir etməsi birmənalı şəkildə yolverilməzdir və qınanılmalıdır. Siyasətçilər isə millətin və dövlətin taleyini çiyinlərinə almağa iddialı olan şəxslər kimi, daha da nümunəvi dəyərlərə köklənməlidirlər. Qeyri-etik davranışlar və danışıqlar kimliyindən asılı olmayaraq hüquqi aspektdə və bizim mental dəyərlərəmizlə qəbuledilməzdir".

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



# Türkiyənin Azərbaycan əsilli nazir müavini Bakıda önəmli açıqlamalar verdi

## Babası Xalq Cümhuriyyəti uğrunda döyüşmüş Şuay Alpay: "Zeytun budağı" əməliyyatı Türkiyənin beynəlxalq sənədlərdən irəli gələn hüquqlarına uyğun olaraq başladılıb"

**Türkiyənin müdafiə nazirinin müavini Şuay Alpay Bakıdadır. Ancaq aldığımız məlumata görə, qardaş ölkənin ordusunun rəhbərliyində təmsil olunan şəxsin budəfəki səfəri hərbi əməkdaşlıq məsələləri ilə bağlı deyil.**

Türkiyənin Azərbaycandakı səfirliyinin mətbuat müşaviri Hamit Karadeniz də "Yeni Müsavat"a dedi ki, müdafiə naziri bu dəfə yalnız Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş dostluq matçında iştirak üçün Bakıya gəlib və hərbi əməkdaşıq məsələləri müzakirə olunmayacaq. Öyrəndik ki, Türkiyənin Gənclər və İdman Naziri Osman Aşkın Bak da Azərbaycana gələcək.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən də "Yeni Müsavat"a eyni sözü dedilər.

Türkiyə parlamentindən Modern.az-a bildirilib ki, Şuay Alpayın ölkəmizə səfəri 5 ölkənin deputatları arasında keçiriləcək beynəlxalq futbol turniri ilə bağlıdır. Bildirilib ki, Ş.Alpay 3 gün Bakıda səfərdə olacaq və Türkiyəni təmsil edəcək komandada futbol yarışına qatılacaq. Qeyd edək ki, Bakı tarixində ilk dəfə olaraq 5 ölkənin deputatları arasında beynəlxalq futbol turniri keçiriləcək. Martın 9-11-i arasında gerçəkləşəcək futbol yarışı Azərbaycan Parlamentinin yaradılmasının 100 illiyə həsr olunub. Artıq martın 9-da püşkə uyğun olaraq ilk oyunlar keçirilib. Turnir Milli Məclisinin Gənclər və idman komitəsinin təşəbbüsü və Milli Məclisin dəstəyi ilə baş tutub.

Qeyd edək ki, Şuay Alpayın çox maraqlı tərcümeyi-halı var. O, həm də Azərbaycan kökənli olduğu üçün bizə daha da doğma insandır. Modern.az-ın məlumatına görə, 1960-cı ildə Türkiyənin Elazığ şəhərində dünyaya göz açan Şuay Alpay İstanbul Universitetinin hüquq fakültəsinin məzunudur. O, 1986-1991-ci illərdə hakim, 1991-ci ildən isə vəkil kimi fəaliyyət göstərib. AKP-də rəhbər vəzifələrdə işləmiş Ş.Alpay 2011-2015-ci illərdə AKP-dən Elazığ millət vəkili seçilib. TBMM-də o, Türkiyə-Azərbaycan Dostluq Qrupu sədrinin müşaviri və s. vəzifələrdə çalışıb. 2015-ci ilin dekabr ayından etibarən isə Ş.Alpay Türkiyə milli müdafiə nazirinin müavini vəzifəsini daşıyır.

Şuay Alpayın ana tərəfi Azərbaycanın Gəncəbasar bölgəsinin Samux rayonundandır. Müsahibələrinin birində o, ana babası Məhəmməd Qasım bəyin 1918-ci ildə Azərbaycanın müstəqilliyi uğrunda mübarizə apardığını, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin üzvlərindən biri olduğunu qeyd edib. 1920-ci ildə bolşeviklərin işğalı zamanı Gəncənin müdafiəsi Məhəmməd Qasım bəyə tapşırılıb. Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra belə o, silahını yerə qoymur və dağlara çəkilərək 1932-ci ilədək bolşeviklərə qarşı mübarizə aparır. Xalq arasında qaçaq Məhəmməd Qasım bəy kimi tanınan bu şəxs sonradan Türkiyəyə mühacirət edib.

AMEA Mərkəzi Elmi Kitabxanasının (MEK) Vikipediya Metodik Mərkəzinin könüllüləri tərəfindən Türkiyənin milli müdafiə nazirinin müavini, əslən azərbaycanlı olan Şuay Alpaya aid bölmə yaradılıb.

Əslən azərbaycanlı olan nazir müavini Bakıda olduğu ilk gün ərzində bir sıra diqqətçəkən açıqlamalar verib. "Türkiyə Suriyanın Afrin bölgəsində həyata keçirdiyi "Zeytun budağı"əməliyyatını beynəlxalq hüquq çərçivəsində aparır və bu, özünümüdafiə xarakteri daşıyır. Əməliyyat bütün terror təşkilatlarına qarşı və onların təhdidlərini sonlandırmaq üçün aparılır"- deyə, Şuay Alpay bildirib: ""Zeytun budağı" əməliyyatı Türkiyənin beynəlxalq sənədlərdən irəli gələn hüquqlarına uyğun olaraq başladılıb. BMT-nin terrorçuluq əleyhinə və BMT Konvensiyasının özünümüdafiə hüququnu nəzərdə tutan bir sıra qərarları var. Türkiyə bu əməliyyatı başladarkən BMT Konvensiyasının özünümüdafiə hüququnu nəzərdə tutan 51-ci maddəsini, Təhlükəsizlik Şurasının terrorla əlaqədar qərarlarını və beynəlxalq hüquqdan qaynaqlanan haqlarımızı əsas tutub. "Zeytun budağı"əməliyyatı çərçivəsində mülki əhaliyə zərər verməmək istiqamətində səylərimizi uğurla davam etdiririk".

Türkiyəli nazir müavini qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi onun da bayramıdır: "Mənim babam Qaçaq Məhəmməd Gəncəli 1918-ci ildə Azərbaycan Parlamentinin yaradılmasında iştirak edib. Mən bundan qürur duyuram".

Qeyd edək ki, Ş.Alpayın da qatıldığı turnir Azərbaycan Milli Məclisinin, Türkiyə Böyük Millət Məclisinin, Ukrayna Ali Radasının, Polşa və Latviya seymlərinin komandalarının iştirakı ilə keçirilir.

**❑ E.PAŞASOY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 38 (6652) 20 fevral 2017

**Azərbaycanda müxtəlif dövlət təşkilatlarının dövlət zəmanəti ilə aldıqları kreditlərin qaytarılması sahəsində vəziyyət heç də ürəkaçan deyil. Xüsusilə kommunal sektorda, enerji istehsalı və təchizatı sahəsində çalışan iri təşkilatların müxtəlif xarici mənbələrdən aldıqları kreditləri qaytarmaqla bağlı ciddi problemləri var. Belə qurumlardan biri də "Azərenerji" ASC-dir.**

# "Azərenerji"nin yükünü dövlətin üzərindən necə qaldırmalı

## Qubad İbadoğlu: "Sağlam investorlar cəlb etməklə bu sahələri vəziyyətdən çıxarmaq mümkündür"

Bu günlərdə "Fitch" beynəxalq reytinq agentliyi "Azərenerji" ASC-nin emitentin uzunmüddətli defolt reytinqini "BB+", qısamüddətli defolt reytinqini isə "B" səviyyəsində təsdiq edib. Reytinq üzrə proqnoz stabildir.

Agentliyin bununla bağlı məlumatında bildirilir ki, "Azərenerji" dövlət şirkətidir və onun borclarının böyük hissəsinə dövlət tərəfindən zəmanət verilib: "Görürük ki, dövlət "Azərenerji"yə bütün əməliyyatlar üzrə güclü dəstək verməkdə davam edir. Çünki son bir neçə il ərzində dövlət tərəfindən şirkətə investisiya proqramı çərçivəsində kapital inyeksiyası baş tutub. 2015-ci ilin sonunda imzalan sərəncama əsasən, dövlət 2016-2025-ci illər ərzində şirkətə öz xarici öhdəliklərini yerinə yetirməyə yardım məqsədilə kapital ayırmaqda davam edəcək"(APA).

Agentliyin bundan əvvəl yaydığı məlumatda isə bildirilirdi ki hökumət "Azərenerji"nin likvdiliyini təmin etmək üçün ona dəstəyini davam etdirib. Bura əsas borcların və faizlərinin ödənməsi daxildir: "Gözləyirik ki, bu dəstək davam edəcək, amma həm də görürük ki, həmin dəstək getdikcə zəifləyir. Şirkətin genişlənmiş investisiya proqramının icrasına dair qeyri-müəyyənlik var. Digər tərəfdən qurumun yığımlarının əsas hissəsi "Azərişıq" ASC-dən gəlir. Nəhayət, hökumətə nisbətən "Azərenerji"nin xarici borcları daha yüksəkdir".



"Fitch"in hesablamarına əsasən 2016-2025-ci illər ərzində dövlət şirkəti müvafiq olaraq 172 milyon dollar və 204 milyon avro məbləğində xarici borcunu ödəməlidir. Lakin hazırda şirkətin maliyyə vəziyyəti bu borcun dövlət dəstəyi olmadan ödənilməsini qeyri-mümkün edir.

undan əlavə, vergi öhdəliklərinin yerinə yetirilməsi üçün dövlət "Azərenerji" ASC-yə aşağı faiz dərəcəsi ilə 360 milyon manat məbləğində uzunmüddətli kredit də ayırıb. Habelə hökumət "Azərenerji"-nin investisiya proqramının qismən maliyyələşdirilməsi üçün 2009-2015-ci illərdə büdcədən 970 milyon manat həcmində investisiya yatırıb.

Hesabata əsasən 2015-ci ilin sonuna "Azərenerji" ASC-nin xarici borcu 1,5 milyard manatdan 2,4 milyard manata yüksəlib. Bunun əsas səbəbi manatın devalvasiyaya uğramasıdır.

Onu da qeyd edək ki, ASC prezidenti Etibar Pirverdiyev dəfələrlə bəyan edib ki, qurum xarici borclarını özü ödəyir. Amma yuxarıda qeyd olunanlar göstərir ki, əslində ağırlıq yenə dövlətin üzərindədir.

Onu da qeyd edək ki, 2017-ci ildə "Azərenerji" ASC-nin Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) olan borcun ödənməsi təmin edilib.Nazirlər Kabinetinin 2017-ci ildə fəaliyyəti haqqında hesabatında qeyd olunur ki, "Azərişıq" ASC-nin də "Azərenerji"yə borcu tam həcmdə ödənilib. Buna əsas səbəbi kimi, ötən il martın 14-də Nazirlər Kabinetinin 91 saylı qərarı ilə "Elektroenergetika və qaz təchizatı sahəsində fəaliyyət göstərən paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər arasında qarşılıqlı ödəniş məsələlərinin tənzimlənməsi və daxil olmuş vəsaitlərdən istifadə Qaydası"nın təsdiq edilməsi göstərilir.

İqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu deyir ki, borclara xidmətlə bağlı vəziyyəti dəyərləndirsək, "Azərenerji" ən zəif həlqədir: "Bu təşkilatda borc yükü və ona xidmət edilməsi səviyyəsi heç zaman məqbul sayılmayıb. Eyni zamanda borc vəsaitləri kifayət qədər deyərdim ki, səmərəsiz idarə olunub. 2015-ci ilə aid olan son məlumata görə, "Azərenerji"nin borclarının 91,5 faizinə dövlət zəmanəti verilib, 8,5 faizinə isə Maliyyə Nazirliyi tərəfindən zamin durulmuşdu. Yəni bu quruma dövlət təminatı olmadan bundan sonra borc alınması mümkün deyil. Bu o deməkdir ki, o borcların qaytarılması məsuliyyəti dövlətin üzərindədir. Elə bu kimi borclara görə büdcədə dövlət borcuna xidmət xərcləri yüksək həddə çatıb. 2018-ci ilin dövlət büdcəsində dövlət borcuna xidmət xərcləri ümumi xərclərin 10,8 faizini təşkil edir. Bu, 2 milyard 262,8 milyon manat vəsait deməkdir. Ötən illə müqayisədə 621 milyon manat, və ya 37,8 faiz yüksək bir rəqəmdir. Bunu şərtlərindirən amillərdən biri də "Azərenerji" kimi qurumların dövlət zəmanəti ilə götürdükləri borcları qaytara bilməməsi, nəticədə bu yükün büdcənin üzərinə qoyulmasıdır".

İqtisadçı-ekspertin sözlərinə görə, "Azərenerji"nin borcların qaytarılmasında yaşadığı problemlərin obyektiv səbəbləri də var: "2015-ci il devalvasiyasından sonra "Azərenerji"nin borclara xidmət sahəsində çox ciddi problemləri yarandı. Nəzərə alaq ki, "Azərenerji"nin əsas gəlirləri daxili bazardakı satışlardan formalaşır. Düzdür, enerji xaricə də ixrac olunur - ildə ortalama 50 milyon dollarlıq. Lakin dediyim kimi, əsas bazar daxildədir, buradan gəlirlər də manatla ifadə olunur. Borclar isə xarici valyutada olduğuna görə "Azərenerji"nin obyektiv çətinlikləri meydana çıxdı. Bu səbəb həm də borclara dövlət zəmanəti verilməsi zərurətini izah edir".

Q.İbadoğlu hesab edir ki, yaranmış vəziyyətdən çıxış yollarından biri paylayıcı şəbəkələrin özəl idarəetməyə verilməsi ola bilər: "İndiki borc yükü vəziyyətində istehsal obyektləri üçün investor tapmaq çox çətin məsələdir. Ümumiyyətlə, dünya təcrübəsində də iri enerji istehsal güclərinin özəlləşdirilməsinə az-az rast gəlinir. Bu baxımdan, hesab edirəm ki, diqqət paylayıcı şəbəkələrin özəlləşdirilməsinə yönəlməlidir. Bildiyiniz kimi, son illərdə "Azəriışıq" da sürətlə borclanmaya gedir, bu borcların əksəriyyəti dövlət zəmanəti ilə alınır. Bu yaxınlarda elə Asiya İnkişaf Bankından "Azərişıq"a 750 milyon dollarlıq borc ayrıldı. Hazırda ən aktual məsələ vəsaitlərdən səmərəli istifadə olunmasıdır. Bütün ölkə boyu "Azərişıq"ın dəbdəbəli ofisləri inşa olunur. Bu tikinti işlərinə külli miqdarda vəsait sərf edilir. Halbuki daha az dəbdəbəli ofislərlə də keçinmək mümkündür. Yəni vəsaitlərdən səmərəli istifadə sahəsində ciddi problemlərin olduğu ortadadır".

İqtisadçı-alimə görə, mövcud qiymətlər şəraitində alınan borcların qaytarılmasında ciddi problemlər qalacaq: "Görünür, vəziyyətdən çıxış yollarından biri kimi tariflərin artırılması seçiləcək. Yaxın dövrdə olmasa da, müəyyən müddətdən sonra tariflərə yenidən baxılması gündəmə gətirilə bilər. Çünki "Azərenerji"nin aldığı kreditlər xarici valyutadadır, çoxusu qaytarılmayıb. Onun satdığı məhsulun indiki qiymətləri ilə bu borcların qaytarılması ciddi çətinlik yaradacaq".

Müsahibimiz deyir ki, "Azərenerji" ilə yanaşı, Xəzər Dəniz Gəmiçiliyi, "Azərsu" ASC kimi qurumların da xarici borc öhdəliklərinin icrası sahəsində problemlər mövcuddur: "Yalnız dövlət dəstəyi ilə bu problemləri həll etmək mümkün olmayacaq. Buna görə də mümkün olan bütün sahələrdə dövlətsizləşdirməyə gedilməli, idarəetmə optimallaşdırılmalıdır. Sağlam investorlar cəlb etməklə bu sahələri vəziyyətdən çıxarmaq mümkündür".

❑ **Dünya SAKİT,
"Yeni Müsavat"**

# Evimizə gələn çirkablı, qumlu su - çıxış yolu nədir?

## Ekspert: "Supaylayıcı sistem özəl əllərə verilməsə, problem bitməyəcək"

**İçməli suyun tərkibi əhalini ən çox narahat edən məsələlərdən biridir. Xüsusilə Bakı şəhəri və ətraf qəsəbələrdə yaşayan insanlar evlərə verilən suyun keyfiyyətindən narazılıq edirlər. Narazılıqlar daha çox suyun bulanıq gəlməsindən, tərkibində qum dənələri, müxtəlif qırıntıların olması üzündən su krantlarının tez sıradan çıxması ilə bağlı olur. Hətta Bakının ətraf qəsəbələrindən olan vətəndaşlar su borusu ilə gələn qırıntılar üzündən su sayğaclarında tez-tez problemlərin yaşanmasından narazılıq edirlər.**

Qeyd edək ki, bir müddət əvvəl Bakının bir sıra qəsəbələrinin su təchizatı sistemi Dövlət Neft Şirkətindən alınaraq "Azərsu"nun balansına verilib. Hansı ki, bu qəsəbələrin demək olar ki, hamısında təchizatda şor sudan - quyu suyundan istifadə olunurdu. Hazırda da həmin qəsəbələrin böyük əksəriyyətində əhaliyə şirin su verilmir. Şor su isə əhalinin istifadə etdiyi avadanlıqların vaxtından əvvəl sıradan çıxmasına səbəb olur.

Onu da qeyd edək ki, paytaxtın içməli su ilə təchizatını həyata keçirən "Azərsu" ASC dəfələrlə xətlərə vurulan suyun keyfiyyətinin müasir standartlara uyğun olduğu barədə açıqlamalar verib.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov mətbuata verdiyi açıqlamada problemin suötürücü xətlərin köhnəlməsi ilə bağlı olduğunu bildirib. Onun sözlərinə görə, xətlərdəki nasazlıqlar üzündən suya müxtəlif qarışımlar olur. Nəticədə evlərə çatanadək suyun keyfiyyətində problemlər yaranır.

İqtisadçı-ekspert Natiq Cəfərli isə deyir ki, Azərbaycanda ən çox vəsait sərf olunan istiqamətlərdən biri su təchizatı sistemidir: "Bakı şəhəri və regionların su təchizatına ayrılan vəsaitlərin məbləği kifayət qədər böyükdür. Təkcə bir kəmərin - 240 kilometrlik Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilişinə 1 milyard dollardan artıq vəsait sərf olunub. Hər belə layihədən əvvəl deyirlər ki, vəssalam, problemlər bitəcək, su təchizatı yüksək səviyyəyə çatacaq. Amma layihə bitir, hansısa ciddi dəyişiklik baş vermir. Oğuz-Bakı kəmərindən sonra Bakının bir çox sahələrində fasiləsiz su təchizatının olacağı deyilirdi, olmadı. Bir neçə il əvvəl az qala bütün Bakının küçələrini qazdılar, dedilər, xətlər yenilənir. Amma yenə müsbət bir dinamika nəzərə çarpmır. Həm suyun keyfiyyəti, həm verilişi ilə bağlı problemlər olduqca böyük olaraq qalır".



Ekspert hesab edir ki, supaylayıcı şəbəkələr dövlətsizləşdirilmədir: "Bu şəbəkələr dövlətin əlində qaldıqca, ayrılan vəsaitlərdən səmərəli istifadə də mümkün olmayacaq. Dövlət bu gün çalışır ki, hər yerdə nəzarəti əlində saxlasın. Halbuki belə olmamalıdır. Dövlət adil hakim, tənzimləyici olmalıdır, nəinki təchizatçı. Məsələn, götürək elə su təchizatı şəbəkəsini. Bakını bütövlükdə olmasa belə, bir mərkəzdən təchiz olunan ərazilər üzrə şəbəkələr özəl əllərə verilməlidir. Hətta özəlləşdirmə mümkün deyilsə, uzunmüddətli dövr üçün idarəetməyə verilə bilər. Bununla da həm dövlətin yükü azalar, həm şəbəkə vaxtında yenilənər, həm də əhali keyfiyyətli su ilə təchiz olunar. İndiki halda təchizatçı dövlət qurumudur deyə insanlar keyfiyyətsiz xidmətə görə məhkəməyə də üz tuta bilmirlər. Çünki məhkəmələr dövlət qurumlarının mövqeyini müdafiə edirlər".

N.Cəfərlinin sözlərinə görə, ümumiyyətlə, dövlət bütün kommunal xidmət sektorundan çıxmalıdır: "İdarəetmənin fəlsəfəsi, yanaşma dəyişməlidir. Dövlət kənar tənzimləyici olmalı, münasibətlər vətəndaşlarla özəl şirkətlər arasında qurulmalıdır".

Sonda qeyd edək ki, məsələ ilə bağlı "Azərsu" ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinə sorğu ilə müraciət etmişik. Sorğumuz cavablandırılan zaman diqqətinizə təqdim edəcəyik.

❑ **Dünya SAKİT,
"Yeni Müsavat"**



# NATO "Rus NATO-su"nu Ermənistandan çıxara biləcəkmi?

Azərbaycanın genişmiqyaslı hərbi təlimlərə başladığı ərəfədə işğalçı ölkə sürpriz xəbərdarlıqlar almaqdadır; "KTMT-nin "qarışmayacağıq" bəyanatından sonra Alyans rəhbərliyi də İrəvandakı 5 minlik rus əsgərini hədəfə aldı; politoloqlardan maraqlı şərh...

**Cənubi Qafqazın ən güclü ordusu olan Azərbaycan Silahlı Qüvvələrinin daha da gücləndirilməsi istiqamətində işlər uğurla davam etdirilir. Belə ki, ordumuzun işğalçı ölkənin ordusundan dəfələrlə üstün olması dövlətimizin prioritetlərindəndir. Bu mənada növbəti irimiqyaslı hərbi təlimlərə başlanılması da olduqca önəmli hadisədir.**

Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən martın 12-dən 17-dək Müdafiə nazirinin rəhbərliyi altında müxtəlif qoşun növləri, qisimləri, birlik və birləşmələrin iştirakı ilə genişmiqyaslı təlimlər keçiriləcək. Təlimlərə 25.000 nəfərədək şəxsi heyət, 250-dək tank və digər zirehli texnika, 1000-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatan, 50-dək müxtəlif təyinatlı ordu və cəbhə aviasiyası cəlb olunacaq. Təlimlərdə qoşunlar şərti düşmənin hücumunun qarşısının alınması, onun atəşlə təlafata uğradılması, əks-zərbə endirməklə müdafiənin əlverişli hədlər üzrə bərpa olunması və genişmiqyaslı əks-hücum əməliyyatının keçirilməsi tapşırıqlarını yerinə yetirəcək.

Sözsüz ki, bu, düşməni ciddi şəkildə narahat edən hadisədir. Xüsusilə də aprel döyüşlərinin növbəti ildönümü ərəfəsində ABŞ Milli Kəşfiyyatının Qarabağda müharibə xəbərdarlığı ilə çıxış etməsi onsuz da işğalçı ölkənin olmayan rahatlığını alt-üst edib. Digər tərəfdən, Qarabağda hərbi əməliyyatlar başlayacağı halda, KTMT hərbi blokunun erməni tərəfinə köməklik göstərməyəcəyi barədə bəyanat Ermənistanda panikaya səbəb olub. İşğalçı ölkədə bir qayda olaraq hesab ediblər ki, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməyə qərar verməsinə mane olan əsas güc Rusiya və "Rus NATO-su", yəni KTMT-dir. Lakin bu həftə KTMT-nin birləşmiş qərargahının rəisi, general-polkovnik Anatoli Sidorov bildirdi ki, KTMT kollektiv müdafiə barədə müqavilələni Ermənistanla bağlayıb və deməli ancaq İrəvan qarşısında konkret öhdəlikləri var.

Erməni mətbuatı ötən günlər ərzində Sidorovun bu bəyanatının təhlili və gözlənilən təhlükələri araşdırmaqdadır. Bu mənada Azərbaycanın hərbi qüvvələrinin döyüş hazırlığı vəziyyətinə gətirməsi, genişmiqyalı təlimlərə start verməsi heç şübhəsiz, İrəvanda həssaslıqla izləniləcək prosesdir. Üstəlik, NATO-dan işğalçı ölkənin mövcudluğunun qarantı olan qüvvələr - Ermənistandakı rus ordusu haqqında səslənən bəyanat İrəvan üçün növbəti sürpriz oldu. Rusiya NATO-nu sıradan çıxarmağa və dünya düzənini dəyişməyə nail olmağa, habelə ABŞ-ın dünya liderliyini sarsıtmağa, öz qonşuları üzərində dominantlıq edib bütün dünya üzrə təsirlərini yaymağa çalışır. Virtualaz.org xəbər verir ki, belə bəyanatla NATO-nun Avropadakı Birləşmiş silahlı qüvvələrinin baş komandanı, Amerika generalı Kertis Skaparotti Senatın silahlı qüvvələr Komitəsində dinləmələr zamanı çıxış edib. General bildirib ki, Kreml öz məqsədinə nail olmaq üçün bütün vasitələrdən istifadə edir, o cümlədən silahlı qüvvələrdən daha effektiv və qətiyyətli istifadəni həyata keçirir. Skaparottinin sözlərinə görə, Rusiya artıq öz cinahları boyu ölkələrin daxili işlərinə qarışmaq niyyətlərini büruzə verib, o cümlədən Yaxın Şərqdə güc nümayiş etdirib. "Rusiya sosial şəbəkələrdən və digər kütləvi kommunikasiya vasitələrindən əminliklə istifadə edir, dezinformasiyalar yayır və ABŞ-ın qətiyyətini sınağa çəkir, onu avropalı tərəfdaşlarının gözündən salmağa çalışır"-general Senat qarşısında deyib. Karrtis Skaparotti məxsusi olaraq bildirib ki, Rusiya Ermənistanda 5 minlik hərbi qüvvə yerləşdirib. Eyni zamanda Dağlıq Qarabağ münaqişəsi ətrafında davam edən gərginliyə baxmayaraq həm Ermənistana, həm Azərbaycana silah verir. General Ukraynanın şərqində də münaqişənin aktiv fazasının davam etdiyini, Rusiyanın bu münaqişəni dayandırmaqda maraqlı olmadığını bildirib.

Politoloq Arzu Nağıyev isə "Yeni Müsavat"a açıqlamasında bu bəyanatın ilk növbədə Rusiya prezidenti Vladimir Putinin ölkə vətəndaşlarına müraciətindən sonra səslənməsinə diqqət çəkdi: "Belə ki, müraciətində Putin Rusiyanın raket komplekslərinin yeniləcəyi və bunun analoqu olmayacağını bəyan etdi və sanki bununla Qərbə, ilk növbədə ABŞ və NATO-ya bir çağırış etdi. Hərçən ki, bundan sonra Rusiyada da reytinqi müəyyən qədər düşdü, bu, həm də Qərbdə bir qıcıq yaratdı. Bundan başqa, NATO rəsmisi bu bəyanatı verməklə gələcək iqtisadi və siyasi sanksiyalara bir zəmin yaradır və silah sursat müqavilələrinin iştirakçıları olan dövlətləri də sanki xəbərdar edir. Avropa və ABŞ arasında hərbi sahədə müəyyən gərginlik də hökm sürür. Avropa İttifaqı birləşmiş qoşun kontingenti yaradacağı ilə bağlı bir neçə dəf anons verib, lakin deməк olar ki, aparıcı dövlətlərin hamısı NATO üzvü olduğu üçün bu məsələ baş tutan deyil".



Arzu Nağıyev



Elçin Mirzəbəyli

A.Nağıyev xatırlatdı ki, NATO və Rusiyanın sərhədi həm də Türkiyə və Ermənistandan keçdiyi üçün, Gümrüdəki 102 saylı baza ilə bağlı bütün suallara bunu arqument kimi gətirir və orada çoxsaylı kontingent saxlayır: "Əgər Rusiya və Türkiyə münasibətləri düzələnə gedirsə, bu kontingentin saxlanması nəyə gərəkdir? Deməli, bu, həm də regiona nəzarət üçün edilir və Dağlıq Qarabağda gərginlik yaradan əsas səbəblərdən bir budur".

Politoloqun sözlərinə görə, Ermənistanın KTMT üzvü olması, NATO sərhəddinin buradan keçməsi onu deməyə əsas verir ki, Rusiya qoşunları oradan çıxmayacaq: "Sadəcə olaraq NATO rəsmisi bunu gündəmə gətirməklə münaqişənin səbəbkarının həm də Rusiya olduğunu bir daha yada salır".

ABŞ-ın Rusiyaya qarşı sanksiyalarının davamlı olması şəraitində, Ermənistanın da sanksiyalarla üzbəüz qalacağını erməni ekspertlər özləri də bəyan edirlər. Bu ərəfədə Rusiyanın forpost Ermənistandakı hərbi qüvvələrinin də təftişinə başlaması İrəvan üçün pis xəbərdarlıq sayıla bilər. Düzdür, Ermənistanın özündə də hesab edirlər ki, rus ordusunun bu ölkədə 2040-cı ilədək qalmasını nəzərdə tutan müqavilənin mövcudluğu onların müstəqilliyinin üstündən xətt çəkib. Lakin ermənilər onu da etiraf edirlər ki, Qarabağa və Türkiyə ərazilərinə iddialarını yalnız Rusiyaya arxalanaraq irəli sürməyə qadirdirlər.

Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Qarabağda müharibə baş verəcəyi təqdirdə KTMT-nin müdaxilə etməyəcəyi barədə səsləndirilən fikirlər yeni deyil: "Şübhəsiz ki, Dağlıq Qarabağ Azərbaycan ərazisidir və KTMT-nin bu və ya digər şəkildə bu ərazidə baş verən hadisələrə müdaxilə etməsi faktiki olaraq Azərbaycan ərazilərinə hərbi müdaxilə kimi qiymətləndirilə bilər. Amma mən düşünmürəm ki, bu barədə bəyanat verən rus generalları beynəlxalq hüququn prinsiplərindən çıxış edirlər. Rusiya üçün beynəlxalq hüquq anlayışı yoxdur. Sadəcə, KTMT adından çıxış edən rus generalları da başa düşürlər ki, əgər Dağlıq Qarabağda müharibə baş verərsə, quruma üzv olan Qazaxıstan, Belarus, Qırğızıstan və hətta Tacikistan da müdaxilənin əleyhinə səs verəcəklər və bu məsələdə Azərbaycana qarşı qərar qəbul etmək konsensusa nail olmaq mümkün olmayacaq. Məsələnin alt qatında bu amil dayanır, beynəlxalq hüquq isə real vəziyyəti pərdələmək üçün istifadə edilən vasitədir. Çünki reallıq dilə gətirilərsə, belə anlaşılacaq ki, KTMT-də ortaq mövqe yoxdur və Rusiya da üzv dövlətlərə təsir göstərmək gücündə deyil".

NATO-nun Avropadakı Birləşmiş silahlı qüvvələrinin baş komandanı, Amerika generalı Kertis Skaparottinin açıqlamalarına gəldikdə isə, E.Mirzəbəyli dedi ki, bunu daha çox Putinin son çıxışına verilən cavab kimi qiymətləndirmək doğru olardı: "NATO-nun yaxın zaman ərzində rus ordusunu Ermənistandan çıxara biləcəyi inandırıcı deyil. Əgər Avratlantik Alyansın belə bir imkanı olsaydı, bu addımı daha yaxın müttəfiqlərinə - Ukrayna və Gürcüstana münasibətdə atardı. Bununla yanaşı, hesab edirəm ki, əgər Qərbin son vaxtlar Rusiyaya qarşı nümayiş etdirdiyi prinsipial mövqe dəyişməzsə, zamanla Rusiyanın nəinki Cənubi Qafqazdan, bütövlükdə postsovet məkanından geri çəkilməsi də mümkündür".

****

Bütün bunlar isə Ermənistanda hakimiyyət dəyişikliklərinin fonunda baş verir. Düzdür, ölkədə saxta parlamentdəki səsvermə ilə prezident seçkiləri sakit şəkildə həyata keçirildi və keçmiş baş nazir Aram Sərkisyan prezident prezident seçildi. Hazırkı prezident Serj Sərkisyan isə gələn ay baş nazir kürsüsünə sahiblənmək istəyir. Lakin görünən budur ki, onun bu postu tutması elə də asan olmaya bilər. Ən azı qarşısında hazırkı baş nazir - Rusiyanın adamı Karen Karapetyan maneəsi var. Elə iki gün əvvəl hakim Respublikaçılar Partiyasından "Ermənistanın baş nazirliyinə namizədimizi apreldə açıqlayacağıq", məzmunlu bəyanatının verilməsi də pərdə arxasında gərginliyin mövcudluğunu deməyə əsas yaradır.

YENİ MÜSAVAT
N 55 (6944) 10 mart 2018

# Tramp Kim Çenin görüş təklifini qəbul etdi - nə dəyişəcək...

**Şimali Koreya ilə Amerika arasındakı gərgin münasibətlərdə yumşalma hiss olunur. Belə ki, iki ölkə arasında aylardır davam edən təhdidlərin ardınca Şimali Koreya lideri Kim Çen In ABŞ prezidenti Donald Trampı təkbətək görüşə dəvət edib. CNN-nin yaydığı məlumatda bildirilir ki, Şimali Koreya ilə danışıqlardan sonra Vaşinqtona gedən Cənubi Koreyanın nümayəndə heyəti KXDR lideri Kim Çen Inın məktubunu ABŞ prezidenti Donald Trampa çatdırıblar. Məlumatlara görə Kim, həmçinin nüvə və raket sınaqlarını dayandırmağa razılıq verib və "nüvəsizləşdirməyə meyillidir".**

## Politoloq: "Ən kövrək dialoq belə sərt qarşıdurmadan yaxşıdır"

BBC yazır ki, Tramp bu təklifi "böyük irəliləyiş" adlandırıb, amma onu da deyib ki, qəti razılaşma əldə edilənə qədər sanksiyalar yerində qalacaq.

Həmçinin ABŞ prezidenti Şimali Koreya lideri Kim Çen Inla may ayınadək görüşün keçirilməsinə razılıq verib.

Öncə onu da qeyd edək ki, vəzifədə olan heç bir ABŞ prezidenti Şimali Koreya lideri ilə görüşməyib, lakin Şimali Koreyanı "nüvəsizləşdirməyə" cəlb etmək cəhdləri olub.

Şimali Koreyanın görüş təklifi yayıldıqdan sonra bir sıra iri dövlət rəsmiləri bunu alqışlayaraq, tərəfləri tez bir zamanda görüşməyə dəvət etmişdi. Belə ki, Çinin xarici işlər naziri Şimali Koreya və ABŞ-ı mümkün qədər tez bir zamanda görüş keçirməyə çağırıb. Vanq Yi deyib ki, tərəflər vəziyyəti normallaşdırmalı və sülh uğrunda mübarizə aparmalıdır. Cənubi Koreya prezidenti Mun Cae-in də eyni mövqedən çıxış edərək, nüvə böhranına son qoyulmasında ciddi məqamlar olacağını vurğulamışdı. Rusiya xarici işlər naziri Sergey Lavrov isə bildirib ki, bu görüş adi söhbətlə bitməməli və problemin həlli yolunu açmalıdır: "Bu görüşün reallaşdırılması və sadəcə, görüşdən ibarət olmaması vacib məsələdir. Görüş BMT Təhlükəsizlik Şurasında Koreya yarımadasının nüvə probleminin həllinə dair qəbul olunmuş prinsiplər əsasında tam formatlı siyasi danışıqlar prosesinin bərpasına yol açmalıdır".

"Yeni Müsavat"a danışan **politoloq Tofiq Abbasov** bildirib ki, Şimali Koreya liderinin təklifi və Trampın da buna dərhal razılıq verməsi bir qədər təəccüb doğurur:

"Ancaq həqiqətən də Şimali Koreyada dağıdıcı potensial yerləşib. Əsasən də Amerika başa düşdü ki, nə qədər təzyiq göstərməsinə baxmayaraq, Şimali Koreya geri çəkilmir. Əksinə, öz mövqeyindən əl çəkməyib ya Amerikaya, ya Yaponiyaya ya da Cənubi Koreyaya zərbə vura bilər. Bununla da hərbi siyasi gərginlik son həddə çatar. Ona görə də hazırda Şimali Koreya belə bir təşəbbüs göstərir ki, əvvəla öz vəziyyətini bir qədər düzəltsin. Bəllidir ki, onlar həqiqətən də çox ağır sanksiyalar rejimində yaşayırlar. 1980-ci illərin əvvəllərində orada bir neçə dəfə təbii fəlakətlər və digər bu kimi hadisələr nəticəsində ölkənin demək



olar ki, taxıl zəmilərinin hamısı dağılmışdı. Ölkə həmin ərəfədə çox ağır vəziyyətə düşmüşdü ki, hələ də özünə gələ bilmir. Amerikanın və onun müttəfiqlərinin tətbiq etdiyi sanksiyalar isə vəziyyəti bir qədər də çətinləşdirdi. Ölkələr Şimali Koreyanı uzunmüddətli çətinliklərə məhkum edirlər. Nə vaxtsa bu, ölkənin daxilində ağır aqressiyaya gətirib çıxara bilər. Hazırda Şimali Koreya liderinin yumşalması orijinal bir gedişdir. O, birbaşa dialoqa gedərək göstərir ki, danışıqlara hazırdır. Suallar ortaya çıxır ki, Şimali Koreya hər hansı bir məsələdə geri çəkiləcəksə Amerikanın buna cavabı nə olacaq? Yumşalmadan sonra qoyulan sanksiyaların məhdudlaşdırılması baş verəcəkmi? İstər İranda, istərsə də Kubada analoji hadisələr baş verdi. Amerika onlara da söz verdi ki, sanksiya rejimini azaldacaq. Ancaq əslində bunu etmədi. Zaman göstərəcək ki, eyni hal Şimali Koreyanın da timsalında təkrarlanacaq, yoxsa yox".

**Politoloq bildirib ki, iki ölkə liderinin görüşündən sonra mövcud ağır vəziyyətin aradan qaldırılacağına inanmır:**

"Çünki ABŞ-da prezident səviyyəsində hansısa dəyişiklik qəbul olunsa da, dövlətin digər siyasi institutları özlərinin strateji siyasi xətlərindən geri çəkilmirlər. Yenə də sıxma taktikalarını sona qədər aparırlar. Ancaq təbii ki, ən kövrək dialoq belə sərt qarşıdurmadan yaxşıdır. İnanmıram ki, görüşdən sonra Şimali Koreyanın dünyaya qapı açması və digər bu kimi böyük dəyişikliklər olsun. Ümumiyyətlə, rəsmi Vaşinqtonun özü də bildirir ki, Şimali Koreya rejimi qeyri-qanunidir və getməlidir. Hesab edirlər ki, şimali və cənubi Koreya birləşməli, sistem də cənubdakı kimi olmalıdır. Yəni Amerika heç bir yumşalmadan danışmır. Məsələ Rusiya və İranla da oxşardır. Deyir ki, Putin rejimi qeyri-qanunidir. İranla bağlı da deyir ki, bu, molla rejimidir və getməlidir. Oxşar hal Şimali Koreya üçün də keçərlidir. İndi görüşdən sonra Amerikanın bu siyasətində yumşalma olacaq, yoxsa yox bunu da zaman göstərəcək. Dialoq əslində onu ehtiva edir ki, iki dövlət arasında münasibətlər sabitləşsin və yeni bir mübadiləyə, alış-verişə keçsinlər. Amerikanın isə bundan razı olub-olmayacağı bilinmir. Çünki Amerika gündəliyə gətirdiyi tələblərlə bağlı heç zaman axıra qədər getmir. Ona görə də danışıq burada əsas məqsəd deyil. Sadəcə olaraq iki ölkə arasında baş tutacaq danışıq bir vasitədir ki, münasibətlər yeni səviyyəyə çıxsın. Amerika bunu etməyib, başqa cür sıxma-boğmaya başlayacaqsa, deməli, başa düşüləcək ki, ABŞ özünü hegemon dövlət kimi apararaq istəyini ciddi cəhdlə həyata keçirmək niyyətini gizlətmir".

❑ **Əli RAİS**
**"Yeni Müsavat"**

# Səudiyyə şahzadəsinin Türkiyə ilə bağlı fikirləri qalmaqal yaratdı

## Məhəmməd bin Salmanın Misirdə söylədiyi fikirlər Riyad-Ankara münasibətlərindəki gizli nüanslara aydınlıq gətirib

**Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanın Türkiyə haqda fikirləri qalmaqala səbəb olub. BBC-nin məlumatına görə, "The Daily Mail" nəşri Məhəmməd bin Salman Türkiyəni "şər üçbucağının bir tərəfi" adlandırdığını yazıb.**

Britaniya qəzeti isə bu məlumatı Misirin Aş-Şuruq qəzetinə istinad edir. Misir qəzeti yazır ki, Səudiyyə şahzadəsi habelə Türkiyəni yüz il əvvəl Osmanlı imperiyası ilə birlikdə çökmüş İslam xilafətini bərpa etmək cəhdində günahlandırıb. Qahirədə qəzet redaktorlarına verdiyi müsahibədə Məhəmməd bin Salman "Müsəlman Qardaşlar" təşkilatını demokratiyadan sui-istifadədə ittiham edib və bildirib ki, bu təşkilatın hamisi olan Türkiyə xilafəti bərpa etməyə çalışır. Əş-Şuruq qəzeti şahzadə Məhəmmədə istinadən yazıb ki, "şərin müasir üçbucağı İran, Türkiyə və ekstremist dinçi qruplaşmalardan ibarətdir".

Ancaq bu açıqlama yayıldıqdan bir gün sonra təkzib verilib. Krallığın Ankaradakı səfirliyi rəsmi açıqlama yayaraq şahzadənin terror təşkilatları və "Müsəlman Qardaşlar" Hərəkatından bəhs etdiyini bildirib. Ancaq Misir mətbuatı və Qətərə yaxın media orqanları şahzadənin məlum çıxışında İran, Türkiyə və Qətərin adını çəkdiyini qeyd edir.

Qeyd edək ki, son iki ildə hakimiyyət pillələrində sürətlə irəliləyən Məhəmməd bin Salman taxt-tacın növbəti sahibi hesab olunur. Hazırda vəliəhd-şahzadə (növbəti kral olacaq şəxs - K.R.) titulu daşıyan Məhəmməd bin Salman eyni zamanda müdafiə naziri, ölkədə iqtisadi islahatlar prosesinə rəhbərlik edən şəxs və həmçinin ötən ilin noyabrın yaradılmış Korrupsiyaya Qarşı Mübarizə Komitəsinə rəhbərlik edir. Öz ölkəsində bir sıra yeniliklərə imza atıb. O cümlədən, qadınların idman yarışlarını izləməsi, avtomobil idarə etməsi, konsertlərin keçirilməsi kimi yeniliklərə imza atıb. Şahzadə Salman bu addımları ölkəsinin yenilənməsi yolunda islahatlar adlandırıb və bunları davam etdirəcəyini bildirib.



Məhəmməd İbn Salman

Şahzadə Məhəmməd bin Salmanın Qərblə, o cümlədən ABŞ-dakı siyasi dairələrlə yaxşı əlaqələri var, onlardan dəstək görür. Qərb mediası onu Yaxın Şərqin yenilik ümidi adlandırır. Misir səfəri Məhəmməd bin Salmanın - yeri gəlmişkən Qərb mediası onu adının baş hərfləri ilə MBS adlandırır - ilk xarici səfəri idi. Və indi mübahisə şahzadənin bunu deyib deməməyi ilə bağlıdır.

Maraqlıdır ki, Qərb mediası Məhəmməd bin Salmanın məlum açıqlamasında Türkiyənin adını çəkdiyini inadla yazır. Burada bir qədər inandırıcılıq var. Məsələ ondadır ki, hazırda Misir və Səudiyyə Ərəbistanı arasında müttəfiqlik münasibətləri var və Səudiyyə Ərəbistanı, Misir və BƏƏ Qətər və Türkiyə ittifaqı ilə ciddi soyuq münasibətlərə malikdir. Ötən ilin iyununda Səudiyyə Ərəbistanı və adıçəkilən müttəfiqləri Qətərə qarşı embarqo elan edəndə Türkiyə açıq şəkildə Dohanın yanında dayandı. Hətta Qətərdə hərbi baza qurdu. Doğrudur, Türkiyə və Səudiyyə Ərəbistanı arasında regional əməkdaşlıq da qırılmadı, davam edir. Suriya, Yəmən, İraq məsələlərində Türkiyə və krallıq arasında əməkdaşlıq davam edir. Ancaq fakt odur ki, Yaxın Şərqdə ərəb ölkələri Qətər və Səudiyyə Ərəbistanı "cəbhələrinə" bölünüb. Digər tərəfdən, Səudiyyə Ərəbistanı hökuməti Yaxın şərqdə və müsəlman aləmində dini radikalizmin əsas nüvəsinin "Müsəlman Qardaşlar" Hərəkatı olduğunu bildirir. 1927-ci ildə Misirdə yaranmış "Müsəlman Qardaşlar" Hərəkatı ötən əsrin 60-cı illərində hakimiyyətin şiddətli təzyiqləri nəticəsində daha da radikallaşıb. Hərəkatın müsəlman dünyasında əsas dəstəkçisi Qətər dövlətidir. Maraqlıdır ki, Amerikada bir neçə siyasətçi Türkiyənin hazırkı rəhbərliyinin "Müsəlman Qardaşlar" Hərəkatına yaxın və hətta bəzi hökumət nümayəndələrinin hərəkatın üzvü olduğunu iddia edib. Görünür ki, Səudiyyə şahzadəsi də çıxışında Türkiyə və Qətəri eyni cərgəyə qoyaraq tənqid edib.

**Bu həm də onu göstərir ki, üzdə müşahidə olunmasa da, Səudiyyə Ərəbistanı hakimiyyəti Türkiyənin Qətərə verdiyi dəstəyi unuda bilmir. Ancaq hələlik bu baxış münasibətlərə təsir etməyib, sadəcə şahzadə özünü saxlaya bilməyib.**

❑ **Kənan RÖVŞƏNOĞLU**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 14 (6903) 20 yanvar 2018

**Liviya diktatoru Müammar Qəzzafinin Belçika banklarından birində BMT-nin qərarı ilə dondurulmuş hesablarından 11 milyard avroya yaxın vəsait sirli şəkildə yoxa çıxıb. Virtualaz.org Belçikanın "Le Vif" nəşrinə istinadən yazır ki, 2013-2017-ci illər ərzində Belçikanın "Euroclear Bank" adlı bankından Qəzzafiyə məxsus 16.1 milyard avro vəsaitin 10 milyard dolları yoxa çıxıb.**



# Oğlu Qəzzafinin milyardlarını Avropa banklarından "sümürür"

## Seyfəlislam Qəzzafinin Liviyada seçkilərə qatılacağı haqda xəbərlərin fonunda diktatorun pullarının banklardan "yoxa çıxması" arasında əlaqə var

Yazıda qeyd olunur ki, 2013-cü il noyabrın 29-da "Libyan İnvestment Authority" və "Libyan Foreign İnvestment Company" adlı şirkətlərə aid 4 bank hesablarında 16.1 milyard avro olub. Bu şirkətlər Qəzzafi ailəsi ilə bağlı olub. 2017-ci ilin payızında Belçika hökuməti çirkli pulların beynəlxalq dövriyyəsinə qarşı mübarizə çərçivəsində həmin vəsaitlərə həbs qoymaq istəyəndə məlum olub ki, hesablarda cəmi 5 milyard avrodan bir az çox pul qalır.

Aydın olur ki, Belçika hökuməti Qəzzafinin bank hesablarının dondurulması ilə bağlı qərarı ləğv etməyib. Amma 10 milyard avrodan çox vəsait bankdan naməlum istiqamətlərə ötürülüb və deməli Belçika hakimiyyəti BMT qətnaməsinin tələblərini pozaraq dondurulmuş hesablar üzərində kifayət qədər nəzarət tətbiq etməyib. Belçikanın Maliyyə Nazirliyi bildirir ki, məsələ ilə bağlı təhqiqat aparılır. Amma pulların kim tərəfindən çıxarıldığı və hansı istiqamətdə ötürüldüyünə dair heç bir versiya yoxdur.

Xatırladaq ki, 2011-ci ildə Liviyanı bürümüş üsyanlar zamanı BMT Təhlükəsizlik Şurası Qəzzafi ailəsinin və hakim rejimin digər ünsürlərinin bank hesablarının dondurulmasını da nəzərdə tutan qətnamə çıxarıb. Qəzzafi devriləndən sonra məlum olmuşdu ki, onun və ailə üzvlərinin xarici banklarda 100 milyard dollara yaxın vəsaiti var. Bu vəsaitin çox cüzi hissəsi Liviyanın yeni hakimiyyəti tərəfindən geri alınıb. Qəzzafinin dondurulan pullarının Liviyaya geri qaytarılması bu ölkədə sabitlik yaranana qədər mümkün hesab edilmir.

Liviyada 1969-2011-ci illərdə məhdudiyyətsiz hakimiyyətə malik olan Qəzzafi böyük sərvət toplayıb. 2011-ci ilə qədər Liviyanın gündəlik neft hasilatı 2,5 milyon barel olub. 6,5 milyon əhalisi olan Liviya üçün fantastik neft-qaz gəlirləri deməkdir. Bu səbəbdən də Liviya ilə yanaşı Avstraliyadan Britaniyaya qədər dünyanın müxtəlif ölkələrində Qəzzafilərin daşınan və daşınmaz əmlakları, şirkətləri, payları olub. Bəzi iddialar görə, Qəzzafi ailəsi 700 milyardlıq sərvətə sahib olub. Eyni zamanda devrildiyi zaman ölkə xaricində Qəzzafi ailəsinin 240 milyard dollar sərvətinin bir qisminin bank hesabları, bir qisminin isə daşınmaz əmlak şəklində varlığının olduğu ehtimal olunurdu.

Konkret olaraq Belçika banklarındakı Qəzzafi pullarına gəlincə, yuxarıda da qeyd olunduğu kimi, bu pulların Liviya dövlətinə verilməsi az ehtimaldır. Çünki hazırda Liviyada faktiki olaraq iki hökumət fəaliyyət göstərir. Üstəlik, vətəndaş müharibəsi davam edir və ölkənin gələcək taleyi də bəlli deyil. Belə bir qeyri-müəyyən vəziyyətdə Belçika hakimiyyətinin və ya banklarının Liviyanın hökumətinə Qəzzafinin pullarını verməsi real deyil. Digər tərəfdən, böyük həcmdə neft satan və ərəb sponsorları tərəfindən dəstəklənən Liviya hökumətlərinin ciddi maddi sıxıntıları da yoxdur. Yerdə qalır bir variant.

Ehtimal ki, bu pulları Qəzzafi ailəsinin üzvləri "çəkiblər". Bəlli olduğu kimi müharibədən sağ çıxan ailə üzvləri Afrika ölkələrində gizlənirlər. Ancaq Qəzzafinin siyasi varisi olan oğlu Seyfəlislam Qəzzafi ötən il 5 illik məhbus həyatından sonra azadlığa buraxılıb və faktiki olaraq Liviyanın növbəti dövlət başçısı olmağa əsas iddiaçılardan biri hesab olunur. Seyfəlislam Müəmmar Qəzzafinin 8 övladından biridir. Ancaq digər övladları ilə müqayisədə Seyfəlislam atasına daha yaxın və onun gələcək varisi, diktatorun parlaq övladı hesab olunurdu. Bu səbəbdən də Liviyada başlayan etirazlara qarşı əsas mübarizə aparan da Seyfülislam idi.

Seyfəlislam Qəzzafi 1972-ci ildə Liviyada anadan olub. Avstriya və İngiltərədə təhsil alıb, dünyanın ən nüfuzlu ali təhsil ocağı hesab olunan Londonda İqtisadiyyat və Siyasi Elmlər Məktəbini bitirib, memar-mühəndis ixtisası üzrə fəlsəfə doktorudur.

Eyni zamanda Liviyada yeni islahatçı lider, Qərblə yaxınlaşmanın əsas memarı olaraq tanınan Seyfəlislamın atasından sonra Liviyaya rəhbərlik edəcəyi gözlənilirdi. Ancaq 2011-ci ilin gəlməsi ilə hər şey dəyişdi. Bütün dünya Liviyaya qarşı olanda, NATO havadan və gəmilərdən Liviyanı bombalayanda ortada görünən Seyfülislam idi və Qərbə meydan oxuyurdu. Liviyada üsyançılara və NATO qüvvələrinə qarşı müqavimətə məhz Seyfəlislam rəhbərlik edirdi.

Seyfəlislam 2011-ci ilin noyabrında maşınla Niger sərhədinə tərəf gedərkən Zintan şəhərinin könüllülər briqadasının əlinə keçmişdi. Ələ keçdikdən sonra Qəzzafinin oğlu işgəncəyə məruz qalmış, Liviyada üsyan başlayanda üsyançıları hədələdiyi məşhur fotosuna cavab olaraq vaxtı ilə üsyançıları hədələdiyi sağ əlinin şəhadət barmağı kəsilmişdi.

Ötən il aprelin 12-də Liviya məhkəməsi Seyfəlislam azadlığa buraxılıb. Və dərhal sonra onun Liviyanın yeni prezidenti olacağı ilə bağlı fikirlər mediaya yol tapıb. Ötən il Ramazan ayında isə Tripoli şəhərində Seyfəlislam Liviyanın aşirət liderləri ilə iftar yeməyində görüşüb. Oğul Qəzzafi bu il keçiriləcək prezident seçkilərində iştirak etmək barədə qərar qəbul edib

Bu ilin yanvarında isə Seyfəlislam Qəzzafinin Liviyada prezident seçkilərində iştirak edəcəyi ilə bağlı xəbər yayılıb. Bu məlumatı Qəzzafilər ailəsinin mətbuat katibi Basim Haşimi Sul Misirin ingilisdilli "Egypt Today" jurnalına verib. Beləliklə, varis Qəzzafinin yenidən Liviyanın başına gəlməsi və ölkəni birləşdirməsi ssenari işə düşür. Təbii ki, seçkilərə gedən oğul Qəzzafiyə pul lazımdır, özü də böyük pul. Bu pulu isə o, ən rahat yol budur ki, ailəsinə məxsus hesablardan çıxara bilər. Hələlik Belçikadakı pulları kimin götürməsi haqda dəqiq məlumat verilmir. Eyni zamanda dünyanın digər nöqtələrində banklarda gizli hesablardakı pulların çəkilib çəkilmədiyi haqda da bilgi yoxdur. Əlimizdə olan bilgi Qəzzafi ailəsinin seçkilərə qatılmaq istəyi və hərəkətə keçmələridir. Açıq qalan suallara isə zaman cavab verəcək.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Tramp dünya ilə "polad müharibəsinə" başlayır



## ABŞ polad və alüminium idxalına gömrük rüsumlarını niyə artırıb?

**ABŞ prezidenti Donald Tramp ölkəyə idxal olan polad və alüminium barədə çoxdan gözlənilən qərarı qəbul edib. Beləliklə, ABŞ-a polad ixrac edən ölkələr 25 faiz, alüminium idxal edən ölkələr isə 10 faiz gömrük vergisi ödəyəcəklər.**

Qeyd edək ki, Avropa Birliyi bu qərarın təsdiqlənəcəyi halda, ABŞ-a sanksiyaların nəzərdən keçiriləcəyini bildirmişdi. Tramp isə daha sərt açıqlama verərək, iqtisadi müharibəyə hazır olduğunu qeyd etmişdi.

Artıq bir çox ölkələrdən, əsasən də Avropa Birliyindən bu qərara neqativ yanaşmalar səslənməkdədir.

Avropa Birliyinin Xarici Əlaqələr və Təhlükəsizlik üzrə Ali nümayəndəsi Federika Moqerini bildirib ki, Avropa Birliyi ABŞ-la ticarət müharibəsinə hazırlaşmır, ancaq ABŞ ticarət öhdəlikləri tələb edəcəyi halda cavab tədbirləri görməyə məcbur olacaq. Moqerini həmçinin Trampın hər hansı bir həmləsi qarşılığında cavab veriləcəyini qeyd edib

Yaponiya hökuməti isə ABŞ-ın polad və alüminium ixracına rüsumlar tətbiq etməsinə təəssüflənib. Çünki bu, yalnız yapon müəssisələrinə deyil, eyni zamanda, ABŞ ilə Dünya Ticarət Təşkilatı (DTT) arasında münasibətlərə də təsir göstərə bilər.

Ticarət tərəfdaşlarının reaksiyasını təhlil etmək məqsədi ilə ABŞ polad və alüminiuma dair idxal rüsumunu azı 15 gün tətbiq etməyəcək. İqtisadçı ekspertlər isə hesab edir ki, bu qərar dünyada böyük bir ticarət müharibəsinin başlanğıcı ola bilər.

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan iqtisadçı ekspert Natiq Cəfərli vurğuladı ki, bu Trampın daxili istehsalçını qorumağa yönəlik siyasətidir, ancaq əks nəticə verməsi ehtimalı da böyükdür: "Amerikada daxili istehsalçılar xaricdən gətirilən polad və alüminium xammalının qiyməti ilə rəqabətdə uduzurdular. Yerli istehsalçılara dəstək olmaq üçün, iş yerlərinin artmasına yardımçı olmaq üçün Tramp belə bir addım atdı. Əslində isə nəticə etibarilə bu qərar istehlakçılara zərbə vuracaq. Gömrük rüsumlarının qalxması o deməkdir ki, bir müddət sonra mal və məhsulların qiyməti də qalxacaq. Bu isə gələcəkdə həmin xammaldan istifadə edən istehsal sahələrində qiymətlərin yüksəlməsinə səbəb olacaq. Bu zəncirvari reaksiyaya səbəb olacaq, həm də ticarət müharibələrinin yaranmasına səbəb olan amilə çevriləcək. Artıq başqa ölkələr də Amerika məhsullarına qarşı eyni addımları atmağı müzakirə edirlər. Bu gün Avropa ölkəsi olan Almaniyadan da belə bir xəbər gəldi ki, Amerikadan ölkəyə gətirilən bir çox xammalların gömrük rüsumları qaldırılsın. Bu yaxşı bir tendensiya deyil. Dünyada ticarət müharibələrinin heç zaman qalibi olmur, uduzan da hər zaman qlobal olaraq dünya istehlakçıları olur. Yəni, hamımız uduzuruq. Bu müharibələr son nəticədə bütün dünyada qiymətlərin qalxmasına səbəb olur".

İqtisadçının sözlərinə görə, bu qərar daxili auditoriyada trampın reytinqini artırsa da, son nəticə heç də ürəkaçan olmayacaq: "Düzdür, Trampın bu addımı ölkə daxilində onun populyarlığını artıracaq. Yerli istehsalçıların onun bu qərarını alqışlayırlar. O baxımdan ABŞ prezidentinin reytinqinə müsbət təsir göstərən bir qərardır. Ancaq dünyada ticarət müharibələrinin alovlanmasına da səbəb ola bilər ki, bir müddət sonra bundan Amerikanın digər istehsalçıları ziyan görə bilər. Polad və alüminium istehsalçıları bir müddət sonra digər sahələrdə istehsal etdikləri məhsulları Avropaya, Asiyaya, Çinə və digər ölkələrə ixracatında gömrük rüsumlarının artmasına görə istehsalı azaltmaq məcburiyyətində qalacaqlar. Bu populist bir addımdır. Bir müddət sonra Amerika bununla bağlı dəyişikliklərə getməyə məcbur olacaq. Trampın bu qərarı verməkdə məqsədi daxili tələbatı yerli istehsal hesabına ödəməkdir. ABŞ prezidenti düşünür ki, bunun üçün potensial var, istehsalı artırmaq olar. Sadəcə xaricdən idxal olunan xammalın ABŞ-da satış qiyməti ucuz olduğu üçün, gömrük rüsumlarını artırmaq yolu ilə onları bahalaşdırmaq istəyir ki, daxili istehsal artsın. Belə bir mexanizm düşünülüb. Lakin bu zamana bağlı olan məsələdir. Polad və alüminium istehsalı elə bir sahədir ki, qərar verilən kimi effekt əldə etmək mümkün deyil. Bir müddət Amerikada polad və alüminiumdan xammal kimi istifadə edən istehsalçılar öz məhsullarının qiymətini artırmağa məcbur olacaqlar. O zaman amerikalı istehlakçılar da anlayacaq ki, bur qərar son nəticədə onların cibinə ziyan vurur".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

## 3 manata görə qonşusunu öldürdü, izi itirmək üçün evi yandırdı




**Fevralın 27-i saat 3 radələrində Gəncə şəhəri N.Nərimanov prospektindəki mənzillərdən birində yanğın baş verib. ARB TV xəbər verir ki, alov söndürüldükdən sonra içəridən ev sahibəsi Natella Katiblinin yanmış meyiti tapılıb. Məhkəmə tibbi ekspertizasının müayinəsi zamanı mərhumun boğaz nahiyəsində kəsik olduğu, qabırğalarının isə sındığı müəyyən edilib.**

Polis və prokurorluq orqanları əməkdaşlarının birgə keçirdikləri istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində qadının tamah məqsədi ilə boğularaq öldürüldüyü, sonradan evinin yandırıldığı müəyyən edilib. Görülmüş tədbirlərlə mərhumun qonşusu, Gəncə şəhər sakini, əvvəllər məhkum olunan Elçin Mustafayev şübhəli şəxs qismində saxlanılıb.

Elçin Mustafayev (saxlanılan şəxs): "Üç manat istədim, dedi yoxumdur. Məni söyüb, qovalamaq istəyəndə mən də girdim evə. İçkiliydim vurdum, yıxıldı. Bir də dedim 3 manat ver, yenə dedi yoxumdur, söydü məni. Gördüm ki, vəziyyəti pis oldu, ölümcüldür, başladım boğmağa ki, qoy ölsün".

Spirtli içki aludəçisi olan Elçin Mustafayev qətli törətdikdən sonra fantaziyasını işə salıb. O, evi yandırmaqla iz itirmək istəyib.

Tural Məmmədov Gəncə Şəhər Prokurorluğunun böyük müstəntiqi:

- Elçin Mustafayev Natella Katiblini öldürdükdən sonra evdə axtarış aparmış, lakin hər hansı bir qiymətli əşya və pul tapmamışdır. Mərhumun mobil telefonunu götürən Elçin Mustafayev mətbəxdən tapdığı neftlə evi yandırmaqla mənzili tərk edib.

Faktla bağlı cinayət işi başlanıb, istintaq tədbirləri davam etdirilir.

## Bakıda qumarxana aşkar edilib - qumarbazlar tutulub



**Qeyri-qanuni təşkil olunan qumarxana, kazino, totalizator və bu kimi oyunların keçirildiyi obyektlərin fəaliyyətinin qarşının alınması istiqamətində daxili işlər orqanlarının əməkdaşları tərəfindən növbəti əməliyyat tədbiri həyata keçirilib.**

DİN-in mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə paytaxtın Binəqədi rayonu ərazisində yerləşən çay evlərindən birində pul uduşlu qumar oyunlarının təşkil edilməsi barədə əməliyyat məlumatı daxil olub.

Keçirilən təxirəsalınmaz əməliyyat tədbiri nəticəsində qeyd edilən obyekt nəzarətə götürülüb və həmin çay evində qumar oyunlarının keçirildiyi sübuta yetirilib. Əməliyyat-axtarış tədbiri nəticəsində həmin obyektdə pul uduşlu qumar oyunları təşkil etməkdə şübhəli bilinən, Bakı şəhər sakini Mübariz Quliyev və orada qumar oynayan şəxslər polis əməkdaşları tərəfindən saxlanılıblar.

Çay evinə baxış keçirilən zaman qumar oyunlarında istifadə olunan əşyalar, pul vəsaitləri və iş üçün maraq kəsb edən digər maddi sübutlar aşkar edilərək götürülüb.

Qeyd edilən faktla bağlı toplanmış materiallar prosessual qərar qəbul edilməsi üçün Baş İdarənin İstintaq Şöbəsinə göndərilib

Musavat.com

## Kiyevdə Azərbaycan vətəndaşları saxlanıldı

**Kiyev şəhərində iki Azərbaycan vətəndaşı saxlanılıb. APA-nın məlumatına görə, saxlanılan şəxslər 1993-cü il təvəllüdlü Əbülfəz Qəniyev və Fadil Cavadovdur. Onlar qarət, oğurluq və insanı ölümlə hədələməkdə ittiham olunurlar. Kiyev şəhərinin Obolonski rayon məhkəməsi azərbaycanlılar barəsində 4 aylıq həbs-qəti imkan tədbiri seçib. Saxlanılan şəxslər ittihamla razılaşmırlar və hüquqi yardıma ehtiyacı olduqlarını bildiriblər.**

## Müğənni Fədayə Laçının həbs müddəti uzadıldı

**Xüsusi təyinatlı qatardan qaçan məhbuslarla bağlı həbs edilən müğənni Fədayə Laçının həbs müddəti uzadılıb. Vəkil Türkel Süleymanlının APA-ya verdiyi məlumata görə, həbs qətimkan tədbirinin müddəti Nəsimi rayon Məhkəməsinin qərarı ilə mayın 29-dək artırılıb.**

Xatırladaq ki, ötən il oktyabrın 23-də Bakı- Astara - Bakı planlı dəmir yolu qarovulu ilə xüsusi təyinatlı vaqonda Bakı şəhərinə müşayiət olunan 1980-ci il təvəllüdlü, əvvəllər məhkum edilmiş, hazırda Cinayət Məcəlləsinin (CM) müxtəlif maddələri ilə təqsirləndirilən Etibar Ələkbər oğlu Məmmədov və 1989-cu il təvəllüdlü, əvvəllər məhkum olunmamış, CM-nin müxtəlif maddələri ilə təqsirləndirilən Əli Rasim oğlu Ağami müşayiət altından qaçıblar.

Qaçan məhbuslardan Əli Ağami bir neçə gün sonra Şirvan şəhərində tutulub. E. Məmmədov isə bir neçə gün sonra keçirilən əməliyyat zamanı hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən zərərsizləşdirilib.

Məhkumların qaçmasına yardım etməkdə təqsirləndirilən Hacıyev Məhəmməd Famil oğlu, Günay Atakişiyeva, müğənni Fədayə Laçınvə Pentensiar Xidmətin bir neçə əməkdaşı həbs olunub.

# Ziya Məmmədovun qardaşı oğlunun 200 min dollarlıq məhkəmə işi

## Bankın filial müdiri prosesə məcburi gətiriləcək



**Keçmiş nəqliyyat naziri Ziya Məmmədovun qardaşı oğlunun şikayətçi olduğu şəxs növbəti dəfə hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən tanınmış idmançı, K-1 döyüş növü üzrə məşqçi Rövşən Heybətovun məhkəməsi davam edib.**

İşə hakim Azər Paşayevin sədrliyi ilə baxılıb.

Qeyd edək ki, iş üzrə zərərçəkmiş şəxs sabiq nazir Ziya Məmmədovun qardaşı, sabiq deputat Elton Məmmədovun oğlu Elnur Məmmədovdur.

Məhkəmədə şahid qismində Gülər Ələkbərova ifadə verib. O, istintaqa verdiyi ifadəni təsdiq edib.

G.Ələkbərova söyləyib ki, "Zaminbank"ın mərkəzi filialında xəzinədar vəzifəsində işləyən zaman Rövşən Heybətov banka gələrək Türkiyəyə pul göndərmək istəyiblər. Amma sənədlər qaydasında olmadığı üçün mümkün olmayıb.

G.Ələkbərova Rövşən Heybətovu həmin vaxt tanıdığını, amma Elnur Məmmədovu xatırlamadığını söyləyib.

Prokuror sual verib ki, Bakıdan pul göndərilmədiyi halda "Zaminbank"ın Türkiyədə Kapalıçarşıdakı filialından 200 min dollar necə görürülüb?

G.Ələkbərova bundan xəbərsiz olduğunu, pul göndərmədiyini deyib.

Elnur Məmmədov söyləyib ki, şahidin ifadələrində ziddiyyət var. Sabiq deputatın oğlu pulun göndərildiyini söyləyib.

Şahid isə əlavə edib ki, əgər pul göndərilsəydi, qəbz olardı. Əgər qəbz yoxdursa, əməliyyat düzgün aparılmayıb.

Hakim Elnur Məmmədova sual verib ki, o pulu kimə verib. Elnur Məmmədov 100 min manatı birinci dəfə bankın filial rəhbəri olan Nadir adlı şəxsə verdiyini söyləyib: "Nadir də işçisi olan Gülər xanımı çağırıb pulu ona verdi. Növbəti dəfə də 100 min dolları banka vermişəm".

Şahid isə heç kimdən pul almadığını deyib.

Məhkəmə "Zaminbank"ın "Mərkəz" filialının müdiri olmuş Nadir İsmayılovun məhkəməyə məcburi gətirilməsi ilə bağlı qərar çıxarıb.

Təqsirləndirilən Rövşən Heybətov heç kimə pul vermədiyini söyləyib. Sadəcə Türkiyədə pulu götürdüyünü qeyd edib.

Qeyd edək ki, məlumata görə sabiq deputatın oğlu Bakı şəhər Baş Polis İdarəsinə müraciət edərək, Rövşən Heybətovun onun etibarından sui-istifadə edərək 100 min manat pulunu dələduzluq yolu ilə mənimsədiyini bildirib.

Rövşən Heybətov saxlanılaraq barəsində həbs qətimkan tədbiri seçilib və 5 ay həbsdə qalıb. Daha sonra isə ev dustaqlığına buraxılıb.

Sabiq deputatın oğlu E.Məmmədov R.Heybətova 100 min manat verdiyini və Türkiyədə iş görmək üçün yola saldığını deyib.

Rövşən Heybətov isə Türkiyədə avtomobil qəzasına düşüb və xəstəxanaya yerləşdirilib. Həmin zaman isə pulun üzərində olmadığını görüb. E.Məmmədov isə buna inanmayaraq R.Heybətovdan şikayətçi olub. İstintaqda Elnur Məmmədov məbləğin 210 min olduğunu deyir. Rövşən Heybətov isə 150 min ödədiyini bildirir.

Qeyd edək ki, Elnur Məmmədov "Best of the Best" promoşn qrupunun prezidenti olmaqla yanaşı, həmçinin, K-1-in Azərbaycan və Yaxın Şərq üzrə rəsmi nümayəndəsi olub.

❑ İlkin MURADOV



## "Bakcell"dən "İncəsənət, sənətkarlıq və sahibkarlıq" sərgisinin keçirilməsinə dəstək

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi "Bakcell", istedadlı qadınların əl işlərindən ibarət "İncəsənət, sənətkarlıq və sahibkarlıq" sərgisinin təşkilinə dəstək göstərib.**

**Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının təşkilatçılığı, "Pullman Bakı" mehmanxanasının baş sponsorluğu və "Bakcell" şirkətinin sponsorluğu ilə "8 Mart Beynəlxalq Qadınlar günü" münasibətilə istedadlı qadınların əl işlərindən ibarət "İncəsənət, sənətkarlıq və sahibkarlıq" sərgisi təşkil edilib. Tədbirin əsas məqsədi Azərbaycanda qadın sahibkarlığının inkişafına dəstək olmaq, qadın əl işlərini tanıtmaq və təşviq etməkdən ibarət idi. Sərgidə 70-dən çox qadın sahibkarın müxtəlif əl işləri - suvenirlər, zərgərlik əşyaları, rəsm əsərləri, toxuculuq nümunələri, oyuncaqlar, məişət əşyaları və s. satışı da həyata keçirilib.**

**Azərbaycan-Fransa Ticarət və Sənaye Palatasının üzv şirkətlərin və onun əməkdaşlıq etdiyi qurumların; Fransanın Azərbaycandakı Səfirliyinin və digər səfirliklərin nümayəndələri və "Bakcell" şirkətinin əməkdaşları sərgidə iştirak edib, nümayiş olunan əl işləri ilə yaxından tanış olublar.**

**"Bakcell" şirkəti tədbirin sponsoru olaraq qadın sahibkarlara xüsusi diqqət ayırmaqla ölkədə qadın məşğulluğunun və sahibkarlıq fəaliyyətinin inkişafına öz dəstəyini əsirgəmir.**

## "Nar"ın dəstəyi ilə "Brain Ring" intellektual yarışlarının yeni mövsümü başladı




**Təhsil və elmə, mədəniyyət və maariflənmənin təbliğinə xüsusi önəm verən "Nar" intellektual bilik yarışlarını dəstəkləməyə davam edir. Artıq bir neçə ildir ki, "Brain Ring" yarışının sponsorluğunu öz üzərinə götürmüş mobil operator bu il də məşhur bilik yarışlarının baş sponsoru oldu.**

**Mart ayında "Brain Ring" intellektual bilik yarışlarının növbəti - onuncu mövsümü start götürdü. "Brain Ring" bilik yarışlarında respublikanın 15 bölgəsi və 10 ali məktəbini təmsil edən 32 komanda iştirak edir. İyun ayınadək davam edəcək yarışlar hər həftənin bazar günü AzTV vasitəsilə yayımlanır.**

**"Nar" gəncləri stimullaşdırmaq üçün müxtəlif səpkili bilik yarışları, intellektual oyunları dəstəkləməyə çalışır və bununla da onların elmə, təhsilə, biliyə olan marağını artırmağa səy göstərir, maariflənməni təşviq edir. Artıq dördüncü "Brain Ring" mövsümüdür ki, televiziya tamaşaçılarının yarışlara olan marağını daha da artırmaq məqsədilə "Brain Ring" və "Nar" onlayn müsabiqə keçirirlər. Belə ki, verilişin yayımı zamanı "Nar"-ın "Twitter" hesabında qoyulan suala ən tez cavab verən izləyicilər xüsusi hədyyələr qazanırlar. Beləliklə, "Brain Ring" həvəskarları bu intellektual yarışı izləmək fürsəti ilə yanaşı, həm də "Nar" operatorundan hədiyyələr qazanmaq şansı əldə edirlər.**

**"Azerfon" MMC ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini istifadəyə verib. Mobil operator səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

YENİ MÜSAVAT
N 55 (6944) 10 mart 2018

# Dəm qazının qəm qoxusu - mavi yanacağa hansı maddə vurulur...

## Mütəxəssis: "Qaz nə rüşvət götürür, nə də sözə baxır"

**Bu qış da ötən illər olduğu kimi dəm qazı ailə faciələrinə səbəb oldu. Təkcə mart ayına nəzər salsaq görərik ki, 10 gündən də az zaman kəsiyində 14 nəfər dəm qazından boğularaq dünyasını dəyişib. Belə ki, martın 2-də "Femida 007" qəzetinin baş redaktoru Əyyub Kərimov, martın 4-də Lənkəranda biri uşaq olmaqla 5 nəfər dəm qazından zəhərlənib.**

Martın 5-də Sumqayıtda bir evdə 6 nəfər dəm qazından boğularaq dünyasını dəyişdi, martın 6-da isə Bakıda iki az yaşlı uşağın dəm qazından zəhərlənməsi xəbəri yayıldı.

"Azəriqaz" İstehsalat Birliyinin mətbuat xidmətindən bildirilir ki, onların verdikləri qazın tərkibində heç bir dəyişiklik yoxdur. Qurum rəsmiləri hadisələrdə özlərini günahkar bilməyib qeyd edirlər ki, qazdan boğulmaların əksəriyyətinin səbəbi abonentlərin cihazlarla düzgün davranmamasıdır.

1 saylı Kliniki Tibbi Mərkəzin toksikologiya şöbəsindən verilən məlumatda qeyd olunur ki, ölkə ərazisində yanvar və fevral aylarında dəm qazından ölənlərin 70 faizi qadınlardır. Statistikaya görə dəm qazı zəhərlənmələrinin əksəriyyəti hamam otağında baş verir. Bu isə oradakı cihazların düzgün quraşdırılmaması və istifadəçinin mövcud qaydalara əməl etməməsi ilə əsaslandırılır.

Əhali arasında belə bir fikirlər də dolaşır ki, hazırda verilən qazdan xüsusi qoxu gəlmir. Bildirilir ki, sovet dövründə qaza xüsusi maddə vurulurdu. Qaz sızması halı baş verdikdə abonent bunu dərhal anlayıb, lazımı tədbirləri görürdü. Hesab olunur ki, indi bu maddə olmadığı üçün insanlar otağa qaz sızmasını hiss etməyib, facİə ilə üzləşirlər.

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan mütəxəssis Nüsrət Qasımov bildirib ki, əslində qazın tərkibinə belə bir maddə indi də



vurulur: "Qoxu verməsi üçün təbii qazın tərkibinə "adarand" qatılır. Bu maddəni hər min kubmetr qaza yay aylarında 8, qışda isə 16 qram vururlar. Maddəni ona görə vururlar ki, yerdən çıxan metan qazı iysiz, rəngsiz, dadsızdır. Ona görə də əgər "adarand" vurulmasa insanlar evə qaz sızdığı zaman bunun qoxusunu hiss etməzlər. Bu maddənin vurulması dövlət standartına daxildir. Yəni sovet dövründə necə idisə, indi də həmin qaydada və miqdarda maddə vurulur. Qaz yanan zaman bu maddənin zəhərlənməyə heç bir təsiri yoxdur. Çünki cəmisi 1000 kubmetrə 8 qram bu maddədən vurulur. Mütəxəssislər bildirirlər ki, dəm qazının qoxusu yoxdur. Ancaq onlar bu fikri söyləməklə böyük səhv edirlər. Əgər siz 4 gözlü sobanın üzərinə böyük qazan qoyub qazı yandırsanız, bir müddət sonra otağa daxil olan zaman görəcəksiniz ki, gözünüz acışır və sarımsaq iyinə oxşar qoxu hiss edirsiniz. Özü də dəm qazı təkcə metan qazının yanmasından əmələ gəlmir. Əgər odun da yarımçıq yanırsa, o zaman da dəm qazı yaranır. Eyni zamanda onu da deyim ki, benzinin də yarımçıq yanması nəticəsində dəm qazı meydana çıxır. Bu hal da insanların avtomobildə ölmələrinə səbəb olur. Statistikaya nəzər salsaq görərik ki, avtomobilin içərisində, qarajda neçə nəfər dünyasını dəyişib. Bu hadisələr də maddənin natamam yanması nəticəsində baş verib. Bəziləri deyirlər ki, qaza hansısa maddə qatırlar və hadisələr də buna görə baş verir. İndi sual olunur ki, onda belə çıxır ki, benzinə də, oduna da hansısa maddə qatılır? Məsələ sadəcə olaraq maddənin tam yanmamasıdır. Biz deyirik ki, evlərdə xüsusi cihazlar quraşdırılsın ki, otağa qaz dolduğu zaman aparat siqnal versin. Milyonlar xərcləyib villalar tikdirirlər, ancaq bu cihazdan almırlar. Cihaz belə işləyir ki, dəm qazının içərisində yanmayan elementlər olur, həmin elementlər cihaza daxil olduğu zaman siqnal səsi ucalır".

Mütəxəssis bildirib ki, son günlər dəm qazından bu qədər ölümün olması heç də normal hal deyil: "Məsələ burasındadır ki, o adamlar ölürlər ki, onlar məsuliyyətsiz davranırlar. Bu qədər maarifləndirmə işi aparılsa da qazın qanunlarına hörmət etməyən, qazdan qorxmayan istifadəçilər var. Qaz nə rüşvət götürür, nə də sözə baxır. Cihazlarla düzgün davranmayanların sonu faciə ilə nəticələnir. Ancaq onu da deyim ki, mətbuat vasitəsilə apardığımız təbliğat nəticəsində dəm qazından ölənlərin sayında azalma müşahidə olunur. Statistik məlumatlara görə, 2016-cı ildə toksikologiya şöbəsinə 470 adam müraciət edib. Onlardan əksəriyyəti sağaldılıb. 2017-ci ildə isə dəm qazından boğulma halı ilə 272 nəfər müraciət edib. Göründüyü kimi yarıbayarı azalma var ki, bunlar da mətbuatın və bizim əməyimizin nəticəsidir. İnsanlar aşağıda söylədiklərimə əməl edərək, dəm qazından boğulmadan xilas ola bilərlər:

**1.** Təbii qazla işləyən su qızdırıcılar quraşdırılan vanna otaqlarının həcmi 7,5, tutumlu su qızdırıcıları quraşdırılan vanna otaqlarının həcmi isə 6 kubmetrdən az olmamalıdır .

**2.** Vanna otağında ventilyasiya kanalı və tüstü bacası olmalıdır.

**3.** Vanna otağının qapısı çölə açılmalı, təmiz havanın daxil olması üçün qapı ilə döşəmə arasında sahəsi 0,02 kvadratmetrdən az olmayan sahə olmalıdır və ya qapının aşağı hissəsində ümumi sahəsi həmin sahəyə ekvivalent olan dəliklər açılmalıdır.

**4.** Vanna otağında bütün qaz xətləri və onların yivli birləşmələri üçün istifadə edilən hissələr poladdan olmalıdır.

**5.** Qazla işləyən axımlı su qızdırıcıları yanmayan divarda quraşdırılmalıdır və divardan ən azı 2 sm aralı olmalıdır. Mətbəxlərə gəlincə isə yaşayış binalarında qaz plitələri quraşdırılan mətbəxlərin hündürlüyü 2,2 metrdən az olmamalıdır. Nəfəsliyi və ventilyasiya kanalı olmalıdır. Bundan əlavə mətbəxin həcmi dördgözlü plitələr üçün 15 kubmetrdən, üçgözlü plitələr üçün 12 kubmetrdən, ikigözlü plitələr üçün 8 kubmetrdən az olmamalıdır. Nəhayət mətbəxdə quraşdırılan qaz plitəsi ilə qarşı divar arasında ən azı 1 metr məsafə olmalıdır.

İnsanlar bunlara əməl etsələr, ölüm sayları da azalar.

❑ **Əli RAİS,**

# Novruzda hara gedək - tur qiymətləri "əl yandırır"

## Həmişəki kimi, xaricdə istirahət etmək ölkə daxilində istirahətdən daha ucuz başa gəlir - səbəb...

**Novruz bayramı üçün 7 günlük tətil nəzərdə tutulub. Bu tətili səmərəli və fərqli keçirmək istəyənlər kifayət qədərdir. Kimi bayramı xarici ölkələrdə, kimisi isə Azərbaycan daxilindəki səfalı guşələrdə keçirməklə onu fərqli yaşamaq istəyir.**

Qiymətlərə gəlincə, kiçik bir araşdırma apardıq. Müşahidələrimizə əsasən deyə bilərik ki, hər zaman olduğu kimi, yenə xarici ölkələrdə istirahət etmək ölkə daxilində istirahətdən daha ucuz başa gəlir. Məsələn, "RVS Travel" turizm şirkəti 140 dollara Tiflis Novruz turu təklif edir. Bu turun müddəti 19-29 mart tarixlərini əhatə edir. Turun qiymətinə gediş dönüş aviabilet, 3 gecə 4 gün oteldə qalmaq, səhər yeməyi daxildir. Novruzun tətil günlərini Sankt-Peterburqda keçirmək istəyənlərə isə bu 447avrodan başlayan qiymətlərlə başa gələcək. Tur 20-24 mart tarixlərini əhatə edir. Bu məbləğə gediş dönüş aviabileti, 4 gecə 5 gün dörd ulduzlu oteldə qalmaq, səhər yeməyi,ekskursiya proqramı, ekskursiyalar zamanı özəl nəqliyyat xidməti, bələdçi, transfer (hava limanı-otel-hava limanı), səyahət sığortası daxildir. "Kral Travel turizm şirkəti isə 19-22 mart tarixlərin Dubay tur təşkil edir. Turun qiyməti 555 manatdır. Qiymətə aviabilet, oteldə 4 gün 3 gecə qonaqlanma və səhər yeməyi daxildir.

Ölkə daxili turlara gəlincə isə 20-22 mart tarixlərini əhatə edən Zaqatala-Balakən-Qax, Şəki, Qəbələ turu bir nəfər üçün 149 manata başa gələcək. Bu məbləğə komfortlu avtobusla səyahət, 2 fərqli oteldə gecələmə, 7 dəfə yemək, bələdçi, ekuskursiya, fotosessiya daxildir. 6 yaşa uşaqlar üçün isə gediş haqqı pulsuzdur. Təbii ki, əgər əlavə xidmət tələb edilməzsə. 20-22 mart tarixlərini



əhatə edən Mingəçevir-Göygöl turu isə adambaşına 129 manata başa gələcək.

Maraqlıdır, ölkəmizdəki vətəndaşlar Novruz ərəfəsində daha çox hansı ölkələrə üz tutur? Həmçinin Novruzu Azərbaycanda keçirmək üçün daha çox hansı ölkələrdən turistlər gəlib?

"FLY Travel" şirkətinin rəhbəri Mamed Əliyev "Yeni Müsavat"a bildirdi ki, azərbaycanlılar daha çox Türkiyə və Dubaya gedir: "Azərbaycan daxilində daha çox Quba və Qəbələyə gedirlər. Qiymətlərdə heç bir artım yoxdur, münasib qiymətlər təklif edilir. Misal üçün, iki nəfərin İstanbula bir həftəlik istirahəti 1100-1200 dollara başa gəlir. Artıq bir ay əvvəldən demək olar ki, bütün yerlər tutulub. Hazırda yerlər yoxdur. Ancaq əvvəlki illərə nisbətən ölkəmizdən xaricə istirahət üçün gedənlərin sayında xeyli azalma var. Dollar və avro baha olduğu üçün gedənlər azdır, ən çox gələnlər var. Azərbaycana Novruz bayramını keçirmək üçün daha çox farslar, iranlılar, ərəblər, iraqlılar gəlir. Onlar da ən çox paytaxtda qalırlar. Onların içərisində iranlılar ailəliklə daha çox gəlirlər. Hətta onların çoxu artıq gəlib və martın 25-ə qədər qalacaqlar. Avropa ölkələrindən gələnlərin sayı isə barmaqla sayılacaq qədər azdır".

Turizm sahəsi üzrə eskpert Çingiz İsmayılov isə Novruz bayramını Azərbaycanda keçirməyin daha cəlbedici olduğunu dedi, nəinki harasa getməyin: "İnsanlar bayram günlərində maraqlı əyləncələrə, şənliklərə, muzeylərə getmək, meydançalarda tamaşalara baxmaq istəyir. Əvvəllər bu cür şənliklər yalnız paytaxtda az miqyaslı olurdu. İndi Bakının digər rayonlarında da, Nizami, Nəsimi və digər rayonlarında da icra hakimiyyəti, yerli bələdiyyə idarələri çalışırlar ki, belə bir əyləncələr təşkil etsinlər. İnsanların bir hissəsi 25 il ərzində çox gəzib, görüblər. Turistlərin bu ərəfələrdə Azərbaycana gəlməsi servis səviyyəsinin qalxması, turist cəlb etmək üçün o əyləncələrin təşkilidir. İstirahət yalnız yeyib-içib, uzanıb yatmaq deyil. İnsanlar vaxtını səmərəli, maraqlı keçirmək istəyir. Təbii ki, turizmin inkişafına diqqət verildiyi üçün insanlar burda vaxtını keçirməyə daha çox üstünlük verir. Digər tərəfdən xarici ölkələrdə miqrantlara qarşı münasibət gərginləşib. Həmçinin maliyyə böhranı ilə bağlı orada da qiymətlər qalxıb. Hansısa xarici ölkəyə 7 günük istirahətə getsəniz bunun 2 gününü gedib-qayıtmağa sərf etməli olacaqsınız. Beləcə, 5 gün istirahət etmiş olursan. Az müddətli istirahəti isə heç kim istəmir. Daha yaxşı olar ki, 2-3 saatlıq məsafəsi olan bir yerə gedib istirahət edəsən. Bundan başqa Novruz bayramı bizim bayramımızdır. Bu bayram nə Gürcüstanda, nə də Dubayda bu cür keçirilmir. Ona görə də bayramı burda qalıb keçirmək daha cəlbedicidir".

Qeyd edək ki, Bakıda bir həftəlik böyük Novruz festivalı keçiriləcək. Builki festival ötənilkindən daha təmtəraqlı və daha geniş məkanda olacaq. Belə ki, bu dəfə festival "Sabir bağı"nda yox, şəhərin mərkəzindəki daha geniş ərazidə, Fəvvarələr meydanında keçiriləcək. Festival martın 20-də başlayacaq və martın 25-də bitəcək. Festival çərçivəsində Azərbaycanın tanınmış sənətçiləri, o cümlədən, müxtəlif bölgələrindən folklor kollektivləri konsert proqramı ilə çıxış edəcəklər. Həmçinin, pəhləvanlar, akrobatlar, sehrbazlar, aktyorlar müxtəlif nömrələrlə tamaşaçıları əyləndirəcəklər. Bundan əlavə, festival çərçivəsində sənətkarların əl işlərinin sərgisi və satışı təşkil olunacaq, eləcə də milli mətbəxin nümunələri nümayiş etdiriləcək, həmin təamları dadmaq imkanı yaradılacaq.

❑ **Günel MANAFLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 55 (6944) 10 mart 2018



## Velosipedi ilə maşınla toqquşduğu üçün...ana ola bilib

43 yaşındakı fransız qadın Keyt Mansbricin başına qəribə hadisə gəlib. O, 27 yaşında erkən menopoza girdiyi üçün ana ola bilməyəcəyi aşkarlanıb. "Daily Mail"in xəbərinə görə, qadın bir neçə il sonra Fransada velosiped sürərkən bir maşınla toqquşub və ayaqları əzilib, beynində travma yaranıb, bir daha gəzə bilməyib. Həkimlər bundan sonra onun ancaq əl arabasında gəzə biləcəyini deyiblər. Amma hardasa möcüzəni xatırladan bir hadisə baş verib, qəza nəticəsində adrenalin artımı doğuş hormonlarını tətikləyib və Keytdə yenidən menustrasiya dönəmi başlanıb. Mütəxəssislər isə deyiblər ki, travma çox nadir görülən kimyəvi dəyişikliklərə səbəb olur. Amma möcüzəvi bir şey meydana gəlib. Qəzadan 3 il sonra qadın hamilə qalıb. Bununla da Keyt həyatının ikinci şokunu yaşayıb. Tibb bacısı olan Keyt deyib ki, bir tərəfdən həyatının ən pis hadisəsi baş versə də, digər tərəfdən möcüzə bir uşağa sahib olub. Keytin qızı hazırda 6 yaşındadır. O, Rubi ilə xoşbəxt bir həyat yaşayır və qəzaya görə Allaha minnətdardır.

# Ölkə azaddırsa, orda kişilər ağılsızlaşır

**Qadın azadlığı kişilərin riyazi qabiliyyətlərini aşağı salıb. Avstriya, Norveç və İsveç alimlərinin apardığı tədqiqatdan sonra belə nəticəyə gəlinib. Alimlər qrupu kişi və qadınların idrak qabiliyyətinin fərqli tərəflərini araşdırıb.**



Həyat səviyyəsi yüksək olan ölkələrdə hər iki cins arasındakı idrak qabiliyyətinin müxtəlif dinamikası müşahidə olunub. Məsələn, qadınların yaddaşı yaxşılaşdığı halda, kişilərin riyazi bacarığı aşağı enməyə başlayıb. Mütəxəssislər iddia edir ki, idrak qabiliyyətində olan fərqlilik həyat səviyyəsinin yüksəlməsi və təhsilli qadınların sayının artması ilə bağlıdır. İş ondadır ki, kişilərin idrakı dəyişməz olaraq qaldığı halda, qadının idrakı getdikcə yüksəlməkdədir. Nəticədə, hər iki cins arasında fərq yaranır.

Tədqiqatlarda Avropanın müxtəlif ölkələrindən yaşı 50-dən çox olan 30 min insan iştirak edib. İştirakçılara yaddaşı, riyazi qa-

# İnternetdən baxıb öyrəndi, sonra da uşağını dünyaya gətirdi



**8 aylıq hamilə olan amerikalı bir qadın keçmiş zamanlarda olduğu kimi təkbaşına uşaq dünyaya gətirib. YouTube-dakı videoları izləyərək körpənin göbək bağını kəsib. İstanbuldakı otellərdən birində, axşam saatlarında uşaq dünyaya gətirən amerikalı ana və uşağına daha sonradan Atatürk aeroportunda çalışan işçilər yardım edib. Ananın kağız dəsmala bürünmüş bir körpə ilə uşaqlara qulluq otağına girdiyini görən aeroport işçiləri anaya yardımçı olmaq və körpəsinin baxımını etmək üçün səfərbər olub. Körpəyə Xavier adı ilə yanaşı, Ata adı da verilib.**

22 yaşındakı Tai Freeman körpəsini qucağına alaraq Atatürk aeroportunda jurnalistlərə açıqlama verib. Deyib ki, Atlantadan Stutqarta getmək üçün İstanbula gəlib və istirahət etmək üçün bir otelə yerləşib: "Bundan öncəki gecə dünyaya gəlib. İndi də geri getməyə çalışırdıq. Özümü yaxşı hiss edirəm. İstanbulda endim. Almaniyaya gedəcəkdim. Otelə yerləşdim, sonra sürpriz bir şəkildə doğum gerçəkləşdi. Çox sürətli bir şəkildə oldu. Xəstəxanaya gedə bilmədim. Uşağın atası Atlantadadır. Almaniyaya dostlarıma baş çəkməyə gedirdim".

Aeroport işçiləri və gənc ana uşaqla birlikdə jurnalistlərə poza verib. Tia Freeman və körpəsi Xavier Ata bəzi sənədləşmə işləri üçün ABŞ-ın İstanbulsakı konsulluğuna aparılıb. Otelə yerləşdiriləcək ana və körpə qanunlara uyğun olaraq 48 saat İstanbulda qalıb, sağlamlıq nəzarətindən sonra Stutqarta uça biləcək.




**QOÇ** - Artıq on gündür ki, qlobal problemlərinizin həlli yolları aydınlaşır. Bunu sürətləndirmək üçün ətrafınızda etibarlı insanlar olmalıdır. Axşama yaxın səhhətinizi qoruyun.

**BUĞA** - Əsas diqqətinizi fəaliyyətə yönəldin. Yalnız bu halda, qarşıya qoyduğunuz məqsədlərə nail ola bilərsiniz. Həmkarlarınızla, eləcə də doğmalarınızla münasibətdə acıdil olmayın.

**ƏKİZLƏR** - Əsas planlarınızı iş vaxtına təyin edin. Çünki axşam saat 18-dən sonra sinirlərinizin gərilməsi işlərinizə mane olacaq. Nahar ərəfəsində gözləmədiyiniz istiqamətdən sevinə bilərsiniz.

**XƏRÇƏNG** - Riskli hadisələrlə üzləşmə ehtimalınız var. Nəticənin sizə xeyir verməsini istəyirsinizsə, təcrübəli adamlarla məsləhətləşin. Əmin olun ki, onlar sizə lazımi dəstəyi verəcək.

**ŞİR** - Maraqlı adamlarla görüşləriniz mümkündür. Belə məqamlarda kiminsə əleyhinə danışmaqdansa, öz söhbət və davranışlarınızla rəğbət qazanmağa çalışın. Riskdən uzaq olun.

**QIZ** - Maddi durumunuzu yaxşılaşdırmaq üçün şansınız var. Bunun üçün maksimum bəhrələnməyə çalışın. Əvvəlcədən nəzərdə tutmadığınız məsələlərə baş qoşmayın. Sevgidə uğurlarınız gözlənilir.

**TƏRƏZİ** - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq istəyirsinizsə, çoxdan bəri nəzərdə tutduğunuz şəxslərlə görüşləri reallaşdırın. Digər işləri təxirə salmaq da olar. Riskdən qorxmayın.

**ƏQRƏB** - Ulduzların düzümü yalnız maliyyə məsələlərində müəyyən uğurlara yiyələnəcəyinizdən xəbər verir. Digər işlərdə isə gərginlik hökm sürəcək. Səhhətinizə xüsusi diqqət ayırın.

**OXATAN** - İş və fəaliyyətlə bağlı yeniliklər yolunuzu gözləyir. Bunun üçün bəzi mühüm şəxslərlə görüşməyiniz vacibdir. Çətinlikdən qorxmayın. Ən azı ona görə ki, artıq öz dövranınız yetişməkdədir.

**OĞLAQ** - Təxminən saat 14-ə qədər passiv ərəfə yaşayacaqsınız. Həmkar və rəhbərinizlə mübahisələrə cəlb oluna bilərsiniz. Sonrakı müddətdə isə hər şey normal tərzdə cərəyan edəcək.

**SUTÖKƏN** - Sevindirici hadisələr, təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, gözlənilməz səfərə də çıxasınız. Amma pul və sənədləşdirmə işləri ilə bağlı bütün planlarınızı təxirə salın.

**BALIQLAR** - Bu gün iştirakçısı olduğunuz əksər proseslər sizə xeyir verəcək. Mövcud reallığa obyektiv qiymət verin. Kənar təsirlərə uymayın. Qətiyyən görücü və ya falçı yanına da getməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 27 cüt insan əli tapıldı



**Rusiyada bir sellofan torbada 27 cüt insan əli tapılıb. Çin sərhədinə yaxın, Sibirdəki Xabarovsk şəhərində tapılan əllərin sirri hələ tapılmayıb. Bir çayın kənarında tapılan əllərin sirri ilə bağlı ortaya bir neçə versiya atılıb. Amma polis bunları təsdiqləməyib. Balıq ovlanan populyar bir məkanda çantanı tapan polis məmuru çevrədə başqa şübhəli bir şeyə rast gəlmədiklərini deyib. Əllərə bağlı teoriyalardan biri ondan ibarətdir ki, onlar oğurluq nəticəsində kəsilib. Digər versiya isə xəstəxanadakı ölü bədənlərdən kəsilməsi yönündədir. Başqa bir iddia isə bunun cəsədlərdən bədən parçaları oğurlayan bir dəstənin əməli olması ilə bağlıdır. Sübutların yanında tibbi bandajlar və xəstəxanalarda istifadə olunan xüsusi ayaqqabılar tapılıb. Polis mövzu ilə bağlı hər hansı bir açıqlama verməyib.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.